# Bakı Dialoqu Təşəbbüsünə start verildi



**Dünən iqlim hədəflərinin dəstəklənməsi məqsədilə COP tarixində ilk dəfə keçirilən Maliyyə, Sərmayə və Ticarət Tematik Günündə iqlim maliyyəsi, sərmayə və ticarət üzrə Bakı Dialoqu Təşəbbüsünə (BICFIT Dialoqu) start verilib.**

İqtisadiyyat Nazirliyinin məlumatına görə, COP29 Sədrliyinin əsas təşəbbüslərindən biri olan bu addımın BMT-nin Ticarət və İnkişaf Təşkilatının, adıçəkilən qurumun İnkişaf Proqramının, Ümumdünya Ticarət Təşkilatı və Beynəlxalq Ticarət Mərkəzi ilə əməkdaşlıqda reallaşdırılması nəzərdə tutulur. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının müvafiq sədrlikləri, müxtəlif beynəlxalq təşkilatlar, çoxtərəfli inkişaf bankları və iqlim fondları, vətəndaş cəmiyyəti təşkilatları, qlobal beyin mərkəzləri və akademik institutlar bu təşəbbüsə öz töhfələrini və dəstəklərini verirlər.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına və Paris İqlim Sazişinə dəstək olaraq irəli sürülən bu təşəbbüs qlobal iqlim, inkişaf və ticarət tərəfdaşlarının, eləcə də digər maraqlı tərəflərin iştirakı ilə maliyyə, sərmayə, ticarət və dayanıqlı inkişaf arasında əlaqəni artırmaq üçün innovativ, hərtərəfli dialoq və tərəfdaşlıq platforması yaratmaq məqsədi daşıyır.

*(ardı 10-cu səhifədə)*




Xalq qəzeti
Xalqın qəzeti!
№ 253 (30657) 17 noyabr 2024-cü il, bazar
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# COP29 iqlim savaşının qlobal həmrəylik məkanıdır




## Kosmik Liderlərin Sammiti

**COP29 çərçivəsində Azərbaycan Kosmik Agentliyi – "Azərkosmos"un təşkilatçılığı ilə "İqlim dəyişikliyi ilə mübarizədə kosmik çağırışlar: Kosmik liderlərin sammiti" keçirilir. Bundan məqsəd qlobal və inkişaf etməkdə olan kosmik agentliklərlə birgə kosmik texnologiyanın imkanlarının iqlim dəyişikliyinə necə töhfə verməsini təşviq etmək və sammit çərçivəsində birgə atılacaq addımları formalaşdırmaqdır.**

"Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov çıxışı zamanı bildirib ki, müzakirələrin nəticəsi olaraq 20 qlobal kosmik agentliyin "Kosmosa əsaslanan iqlim təşəbbüslərinin genişləndirilməsinə dair vəd" sənədi imzalanacaq. Bu, COP28 tədbirində kosmik agentliklərin görüşündə qəbul edilən öhdəlik sənədinin bir növ davamı olacaq və növbəti iqlim konfransları üçün qlobal əməkdaşlığı, ölkələrin təcrübə mübadiləsini, iqlim dəyişikliyinin mənfi nəticələrini vaxtında və səmərəli şəkildə yumşaltmağın həlledici yollarını müəyyənləşdirəcək.

*(ardı 11-ci səhifədə)*



# Dirçəlişdən Zəfərə

*36 il bundan əvvəl Azərbaycan xalqı Bakının Azadlıq meydanına toplaşaraq öz haqq səsini dünyaya çatdırdı*

**17 noyabr Azərbaycan xalqının tarixində əlamətdar günlərdən biridir. Məhz bu gün xalq ilk dəfə olaraq birləşmək və öz etirazını bildirmək üçün Azadlıq meydanını seçdi.**

**Bakının ayrı-ayrı yerlərindən, öndə tələbələr olmaqla əhali Azadlıq meydanına axışır, sovet rəhbərliyinə etirazlarını ifadə edirdilər. Azadlıq meydanına toplaşan əhali bir tərəfdən Sovet hakimiyyətinin ədalətsiz siyasətini pisləyir, digər tərəfdən isə ermənilərin Azərbaycana qarşı ərazi iddialarını rədd edirdilər.**

**Meydan hərəkatının təşkilatçıları xalqın aşağıdakı tələblərini irəli sürdülər:**

*(ardı 8-ci səhifədə)*

# Manipulyasiya və "təklif diplomatiyası"

*Paşinyan deyir, Handanyan izah edir*

**Ermənistan baş naziri Nikol Paşinyanın bir neçə gün əvvəlki açıqlaması ölkəsində geniş müzakirə mövzusuna çevrilməkdədir. Qeyd edək ki, Paşinyan Kazanda Prezident İlham Əliyevlə görüşünün nəticələrindən məmnunluğunu ifadə etmiş və bildirmişdi ki, Azərbaycan tərəfi ilə belə uzun və səmərəli görüş heç vaxt olmayıb.**



Erməni hökumət rəhbəri həmin təmas barədə danışarkən onu da demişdi ki, Ermənistana və Azərbaycana dinc yanaşı yaşamaq üçün təkcə sülh müqaviləsi və digər sazişlər yox, eyni zamanda, gələcəkdə, yəni, qarşıdakı yüz ildə hansı düstur əsasında bir-birinin yanında olmaq niyyətinə dair strateji sazişin bağlanması lazımdır. "Hesab edirəm ki, bu, çox mühüm, fundamental məsələdir. Bu strateji müqavilənin nə olması barədə fikrim var. Strateji sazişə dair fikirlərimiz "Real Ermənistan" konsepsiyasına əsaslanır", – deyən Paşinyanın sözlərinə görə, sözügedən sövdələşmənin ərsəyə gəlməsi özünün siyasi ifadəsini tapmalıdır.

Əslində, ilk baxışdan, N.Paşinyanın nə dediyi anlaşılmır. Çünki indiki məqamda ortada olan konkret sülh müqaviləsi layihəsi var. Ancaq görünən budur ki, rəsmi İrəvan həmin layihə ilə əlaqədar hansısa ciddi addımlar atmaq niyyətindən uzaqdır. Nikolun dilə gətirdiyinin mənasızlığı kontekstində də Ermənistanın reallıqdan kənar düşdüyünü görmək mümkündür.

Məsələn, yaxşı olardı ki, erməni tərəfi Bakının evsahibliyini gerçəkləşdirdiyi COP29-da iştirak edəydi, amma, bu alınmadı. Yəni, sülh müqaviləsi layihəsinin parametrindən asılı olmayaraq, Ermənistanın nüfuzlu toplantıda təmsilçiliyi müsbət məqam kimi dəyərləndirilə bilərdi. Özü də mövzu iqlim idi və onun prinsip etibarilə siyasətlə heç bir əlaqəsi yoxdur.

*(ardı 4-cü səhifədə)*

# Sülhlə COP-un məramı uyğundur

*Bakı "yaşıl dünya"ya sülhpərvər çağırışlar tribunasına çevrilib*

**Sülhün rəmzi ağ göyərçin, rəngi isə səma rəngində, yəni mavidir. Təbiətdə bu iki rəngin bir-birinə uyarlığı indi həm də ictimai məna kəsb edir. XXI əsrin parodokslarından biri də odur ki, silahların işə düşdüyü məkanda təbiət də insanlar kimi əzablara düçar olur. Bu gün dünyanın qlobal iqlim kataklizmlərindən əziyyət çəkən və sülhü, əmin-amanlığı arzulayan qitəsi Afrikadır. BMT-nin Baş katibi Antonio Quterreş Bakı Sammitindəki çıxışında bunu birmənalı olaraq vurğuladı. O, "qara qitə"nin, kiçik ada dövlətlərin sakinlərinin böyük ədalətsizliklərlə üzləşdiklərini, iqlim dəyişmələrinin, artan qiymətlərin, pandemiyanın bu ölkələrə ciddi ziyan vurduğunu qeyd etdi.**




Əslində, iqlim dəyişikliyi qida təhlükəsizliyi ilə birbaşa bağlı problemdir. İqlim dəyişikliyinin yaratdığı fəlakətlər qeyri-sabitliyin dərinləşməsinə səbəb olan münaqişələr üçün, bir növ, katalizator rolunu oynayır. Yəni, ekoloji böhran bir yandan münaqişələrin yaranması, digər tərəfdən isə onun nəticələrinin infrastruktura, torpağın deqradasiyasına, biomüxtəlifliyə və bütövlükdə, cəmiyyətə dağıdıcı təsir göstərir. Hazırda dünyada beş yüz milyondan çox insan münaqişə və ya münaqişəyə meyilli ərazilərdə yaşayır. Bu, Bakı Sammitində səslənən statistikadır. Planetin iqlim dəyişmələrinə ən həssas nöqtələri – Afrika və Okeaniyadan artan həyəcan səsləri isə bu gün Bakıdan yayımlanır. Azərbaycan Cənubi Qafqazda və dünyada sülhün bərqərar olması üçün çağırışlarını COP29-a qədər də edirdi.

"Yurdda sülh, cahanda sülh!". Türkiyə Respublikasının qurucusu və ilk prezidenti Mustafa Kamal Atatürk bu şüarı az qala yüz il bundan əvvəl Anadolu turunda ictimaiyyətlə görüşlərinin birində söyləyib. Ulu öndərin bu kəlamının aktuallıq dərəcəsi indi daha da artıb. Dünyanın istənilən nöqtəsində baş verən qarşıdurmaların, iğtişaşların sonucda hamıya zərər verə biləcəyini və bu səbəbdən başqa ölkələrin və xalqların problemlərinə biganə qalmağın riskini ehtiva edən bu postulat kamalizmin inteqrativ prinsiplərindən sayılır. "Yurdda sülh, cahanda sülh!", eyni zamanda, kollektiv təhlükəsizliyi, beynəlxalq sülhün qorunmasını və onun davamlılığını nəzərdə tutur. Məgər COP29-un Bakı tribunasından səslənən ideya və təşəbbüslərin leytmotivi bu məntiqə söykənmirmi? Həmin ismarıclar, eyni zamanda, 30 il torpaqları ermən işğalı altında inləyən Azərbaycan həqiqətini görməyə gözləri kor, haqq səsini eşitməyə qulaqları kar olmuş bədxahlarımızın da diqqətinə çatdırılır.

*(ardı 5-ci səhifədə)*

# İqlim konfransında ESG platforması təqdim edildi



Səhifə ⇨ 11

# Əhali artımı niyə aşağı düşüb?



Səhifə ⇨ 15



# Əl-Əzhərin Şeyxi, Müsəlman Ağsaqqalları Şurasının sədri Əhməd Əl-Tayyib Həzrətlərinə

**Zati-həzrətləri,**

Ailənizə üz vermiş ağır itki – bacınız Samiha Məhəmməd Əl-Tayyibin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu üzüntülü anlarda dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 noyabr 2024-cü il**

# Pakistan rəsmisi FHN-də



**Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Pakistanın Fövqəladə Halların İdarə edilməsi üzrə Milli Qurumunun sədri general-leytenant İnam Heydər Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Qonaqları səmimi salamlayan nazir Azərbaycan və Pakistan arasındakı münasibətlərin tarixən sarsılmaz dostluq və qardaşlıq, qarşılıqlı hörmət prinsipləri üzərində qurulduğunu vurğulayıb, iki ölkənin fövqəladə hallarla mübarizə üzrə məsul qurumları arasında əlaqələrin genişləndirilməsinin qarşılıqlı faydasından danışıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən Pakistan İslam Respublikasının Fövqəladə Halların İdarə edilməsi üzrə Milli Qurumunun sədri general-leytenant İnam Heydər Malik COP29-da iştirakdan məmnunluq ifadə edib, qlobal əhəmiyyətli tədbirin Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Daha sonra qonaqlar FHN-in Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin Böhranların idarə edilməsi zalı və Əməliyyat zalı, İctimaiyyətlə əlaqə idarəsinin Multi-media mərkəzinin fəaliyyəti ilə yerində tanış olublar.

***XQ***

# YAP nümayəndə heyətinin Çinə səfəri

**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində noyabrın 16-da Çin Kommunist Partiyası Nantun şəhər komitəsinin rəhbərliyi ilə görüş keçirilib.**



Görüşdə dostluq və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətlərinin inkişafının məmnunluq doğurduğu, qarşıda duran bütün hədəflərin reallaşdırılması üçün geniş imkanların mövcud olduğu diqqətə çatdırılıb.

Bu gün hər iki ölkənin dinamik inkişafı və yüksək nüfuzu ilə dünyanın diqqət mərkəzində olduğu, beynəlxalq münasibətlər sistemində layiqli yer tutduğu və öz mövqelərini davamlı olaraq möhkəmləndirdiyi vurğulanıb.

Görüş zamanı hər iki ölkənin sosial-iqtisadi inkişafı və gələcəyə yönəlik hədəfləri barədə ətraflı məlumat verilib, bir çox istiqamətlərdə yeni işbirliyi imkanları müzakirə olunub.

YAP ilə ÇKP-nin hakim siyasi partiyalar kimi dövlət başçılarının dostluq münasibətlərini və Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığı əsas götürərək məqsədyönlü birgə fəaliyyəti uğurla davam etdirmək niyyətində və yeni uğurlara imza atmaq əzmində olduqları xüsusi vurğulanıb.

***XQ***

# Fatih Terim Gənclər və İdman Nazirliyində

**Noyabrın 16-da gənclər və idman naziri Fərid Qayıbov ölkəmizdə səfərdə olan tanınmış türkiyəli futbol mütəxəssisi Fatih Terimi qəbul edib.**

Görüş zamanı iki qardaş ölkədə futbolun hazırkı vəziyyəti və uşaq futbolunun inkişafı yolları müzakirə edilib.

COP29 çərçivəsində "Qarabağ" Futbol Klubunun təşəbbüsü ilə təşkil olunacaq futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansın yaradılması ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident İlham Əliyev!**

Yenidən gözəl Azərbaycana və gözəl Bakı şəhərinə gəlmək mənim üçün böyük şərəfdir. İkinci səfərim zamanı mənə göstərdiyiniz sevgi və səmimiyyətə görə minnətdaram.

Azərbaycan COP-un ən mühüm sammitlərindən birinə ev sahibliyi edir. Planetimizin torpaqlarının qlobal səviyyədə dəhşətli çirklənməsinə səbəb olan böhranla üz-üzə olduğu bir dövrdə yaşıl dünya naminə həmrəylik böyük əhəmiyyət daşıyır və aktualdır. Torpaqların sağlamlaşdırılmasının təcili diqqətə ehtiyacı olduğuna dair dünya dövlətləri arasında geniş konsensusu nəzərə alaraq Azərbaycanın bu gün torpağın sağlamlaşdırılması və münbitliyinin bərpası istiqamətində regionda liderlik etmək, torpağın qida, su təhlükəsizliyinə və biomüxtəlifliyə, iqtisadiyyata və ekologiyaya təsirini nümayiş etdirmək imkanı var.

"Save Soil" hərəkatı inkişaf edən və zəngin nemətlərə malik planetin bərpasına dərindən sadiqliyini bildirir. Biz daha yaşıl və daha sağlam planetə kollektiv baxışımızı nümayiş etdirmək məqsədilə ölkənizin torpağın yenidən sağlamlaşdırılmasında bütün Mərkəzi Asiya regionunda lider rolunu oynaması üçün hər cür lazımi dəstəyi təklif edəcəyik.

Bu möhtəşəm tədbirə ev sahibliyi etdiyinizə, o cümlədən səmimi və yüksəksəviyyəli qonaqpərvərliyə görə Sizi və Azərbaycan xalqını təbrik edir, minnətdarlığımızı bildiririk.

**Dərin hörmətlə,**

***Sadhquru (Caqqi Vasudev)***
***İşa Xeyriyyə Fondunun təsisçisi***

# COP29 çərçivəsində Parlament Görüşü

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində noyabrın 16-da Bakıda Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçirilib. 66 ölkədən və beynəlxalq təşkilatlardan 330-dək iştirakçının qatıldığı məclisdə 12 spiker və vitse-spiker olmaqla, 160-dan çox parlament üzvü iştirak edib.**




Görüşün ilk günündə açılış mərasimində çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova məclisdə milli parlamentləri, parlamentlərarası təşkilatları, habelə müxtəlif təsisatları təmsil edən 90-a yaxın nümayəndə heyətinin iştirak etdiyini bildirib. Qeyd edib ki, bu, zəmanəmizin ən aktual problemi olan iqlim dəyişikliyi məsələsinin həllindəki qətiyyətimizin və fədakarlığımızın göstəricisidir. İqlim dəyişikliyinin təsirləri dünyanın bütün ölkələrinə sirayət edir və bu baxımdan, ölkəmiz də istisna deyil. Son illərdə Azərbaycan həddindən artıq istilər, su qıtlığı, Xəzər dənizinin dayazlaşması və daşqınlar kimi problemlərlə üzləşib. Bu çağırışın əhəmiyyətini anlayan və qabaqcadan dəyərləndirən Azərbaycan, hələ COP29-a ev sahibi seçilməzdən xeyli əvvəl, Prezident İlham Əliyevin rəhbərliyi ilə iqlimlə bağlı fəaliyyətləri öz milli planlarının mərkəzinə yerləşdirib. Azərbaycan



könüllü öhdəliklər götürərək, yaşıl gündəliyi milli inkişaf proqramlarına daxil edib, bərpaolunan enerji ilə bağlı layihələr həyata keçirərək və yaşıl enerji zonaları yaradaraq, gələcək inkişaf yolunda əzm və qətiyyət nümayiş etdirib.

Tanzaniya Milli Assambleyasının sədri, Parlamentlərarası İttifaqın (PAİ) prezidenti xanım Tulia Akson Bakı şəhərinin COP29-a gözəl ev sahibliyi etdiyini deyib, buna görə təşəkkürünü bildirib. Qeyd edib ki, bu, qlobal əməkdaşlıq üçün gözəl imkan yaradır. Biz burada inklüzivlik və tərəfdaşlıq ruhunda iqlim böhranının öhdəsindən gəlməliyik. Daim çalışırıq ki, beynəlxalq dialoqu gücləndirək, insan hüquqlarını gündəmə gətirək, daha ədalətli dünya quraq.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev çıxışı zamanı COP29-un əsas hədəflərindən söz açıb. O qeyd edib: "Biz istəyirik ki, COP29-da ambisiyalarımızı ortaya qoyaq. Çalışaq ki, iqlimlə bağlı bütün tərəflərin səslərini eşidə bilək".

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil çıxışında COP29 çərçivəsində G20 liderlərinə müraciət edib. O, iqlim dəyişikliyinin yaratdığı qlobal böhranın həlli istiqamətində təcili və daha təsirli tədbirlər görülməsinin vacibliyini vurğulayıb. G20-nin iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynadığını vurğulayan S.Stil liderləri daha çox qrant və güzəştli maliyyənin ayrılmasına, çoxşaxəli inkişaf banklarının islahatlarının sürətləndirilməsinə və borc yüklərinin yüngülləşdirilməsinə çağırıb.

Sonra Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva "COP29-da parlamentlərarası əməkdaşlığın təşviqi: Parlamentlərarası İttifaqın 150-ci Assambleyası və sonrakı dövr" mövzusunda çıxış edib. COP29-un ciddi önəm qazandığını söyləyən Tənzilə Narbayeva burada irəli sürülən bütün təşəbbüsləri dəstəklədiyini deyib.

Açılış mərasimindən sonra Azərbaycan Milli Məclisi ilə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Azərbaycan tərəfindən Milli Məclisin sədri Sahibə Qafarova, Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament tərəfindən isə Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan imzalayıblar.

Daha sonra görüş işini sessiyalarla davam etdirib.

"Zəmin yaratmaq: iqlim dəyişikliyinin real təsirini anlamaq" adlı sessiyada çıxış edən BMT-nin Yerli Problemlər üzrə Daimi Forumunun (UNPFII) 23-cü sessiyasının sədri, Çadın Mbororo xalqının yerli sakini xanım Hindu Omarou İbrahim mənsub olduğu xalqdan, üzləşdikləri çətinliklərdən bəhs edərək deyib: "Bizim xalqımız yarımköçəri həyat sürür. İki milyona yaxın insan məcburi köçkün olub. Son altı aydakı istilər nəticəsində qoca və uşaqlar arasında ölənlər oldu. İstilər nəticəsində yaranmış quraqlıq çox faciəvidir".

Albaniya parlamentinin sədri Elisa Spiropali hazırda dünyanın gözünün Azərbaycanda, COP29-da olduğunu söyləyib. Bildirib ki, burada parlament səviyyəsində də COP29-a töhfə verməyə çalışırıq.

Tonqa Qanunvericilik Assambleyasının sədri Lord Fakafanua diqqətə çatdırıb ki, iqlim dəyişmələri davam etdikcə vəziyyət daha da pisləşəcək. "Sakit okeanda bəzi ada ölkələrinin adaptasiyası artıq çox gecdir. Növbəti 50-100 ildə 100 milyondan çox insan problemlərlə üzləşə bilər ".

Tacikistan Nümayəndələr Palatasının sədri Məhmədtair Zokirzadə isə iqlimin mühafizəsinin aktual problemlərdən biri olduğunu vurğulayıb. Deyib ki, birgə mübarizə olmadan onların həlli mümkün deyil.

COP29-un İqlim üzrə gənclər çempionu xanım Leyla Həsənova iqlim maliyyəsi məsələsinin önəmini vurğulayıb.

"İqlim öhdəliklərinin reallaşdırılması: təsirlərin azaldılması üzrə ambisiyalarının artırılmasında və milli səviyyədə müəyyən edilmiş öhdəliklərin həyata keçirilməsində parlamentlərin rolu", "Qlobal İqlim Maliyyəsi Arxitekturasını Aşmaq: Resursların hərəkətə gətirilməsi və iqlim maliyyəsinə girişin sadələşdirilməsi" və "İqlim dəyişiklikləri üzrə dayanıqlılığın artırılması: uyğunlaşmanın və yerli səlahiyyətlərin genişləndirilməsi" mövzularında da fikir mübadilələri aparılıb.

*

**Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 16-da Tacikistan Ali Məclisinin Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzodanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə iqlim dəyişikliyi ilə əlaqədar dünyanın üzləşdiyi problemlərin həlli üçün qlobal əməkdaşlığın əhəmiyyəti qeyd edilərək, Azərbaycan və Tacikistan tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlərlə bağlı fikir mübadiləsi aparılıb, bu istiqamətdə parlamentlərin mühüm rolu vurğulanıb.

Mahmadtoir Zokirzoda iqlim sammitinin yüksəksəviyyəli təşkilinə görə təbriklərini çatdırıb, COP29-un və Parlament Görüşünün əhəmiyyətini qeyd edib.

***XQ***

# Hikmət Hacıyev: Azərbaycan daha geniş məcralı xarici siyasəti həyata keçirəcək




**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin APA-ya müsahibəsi**

***– Dünən münaqişədən əziyyət çəkən bir qrup ölkə iqlim dəyişikliyindən daha çox əziyyət çəkdiklərinə dair müraciət yayıb. Düzdür, Azərbaycan bu təşəbbüsün üzvü deyil, amma münaqişədən əziyyət çəkib. Bu müraciətə münasibətinizi bilmək istərdik.***

– Sualınıza keçməmişdən əvvəl, fürsətdən istifadə edərək, APA informasiya agentliyinin yaranmasının 20-ci ildönümü ilə bağlı agentliyin rəhbərliyi başda olmaqla bütün kollektivi səmimi qəlbdən və ürəkdən təbrik edirəm. APA informasiya agentliyi Azərbaycan Respublikasının informasiya məkanında öz xüsusi çəkisi, rolu olan media strukturudur. APA-nın informasiyaları təkcə Azərbaycanın hüdudları ilə məhdudlaşmır, o, geniş bir informasiya məkanını əhatə edir, regionda, eyni zamanda, regiondan kənarda informasiya axınının formalaşmasında öz xüsusi yeri var. Biz həm də dünyanın aparıcı media orqanlarının APA-ya artan istinadlarını görürük. Belə desək, geniş bir anlamda APA informasiya agentliyinin ölkəmizin, həmçinin geniş bir regionun informasiya axınının və informasiya məkanının formalaşmasında öz rolu var. Bu da ağır zəhmətin, intensiv işin nəticəsidir. Bütün kollektivə gələcək işlərində uğurlar arzulayıram.

Bu gün COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar Azərbaycan mediası, o cümlədən APA informasiya agentliyi digər media strukturlarımızla çiyin-çiyinə, dünya mediası ilə birlikdə bu tədbirin işıqlandırılmasında yaxından iştirak edir. Bildiyiniz kimi, informasiya məkanında da ciddi rəqabət var. Bu tədbirdə də informasiya əldə edilməsi, informasiyaların hazırlanması, ötürülməsində öncülük prinsiplərinə əsaslanaraq bir sağlam rəqabət mühiti var. Bu rəqabət mühitində də Azərbaycanın informasiya resursları çox qabaqcıl mövqelərdədir. Sizi buna görə də ayrıca təbrik etmək istərdim.

Konkret sualınıza gəldikdə isə, bəli, Azərbaycan Respublikası qeyd olunan təşəbbüsə qoşulmayıb. Çünki Azərbaycan Respublikası artıq münaqişəni həll edib. Azərbaycanda münaqişə yoxdur, lakin münaqişənin fəsadları qalmaqdadır. Biz bu baxımdan həmin ölkələri tam şəkildə başa düşürük və onların narahatlıqlarını da anlayırıq. Çünki münaqişədən əziyyət çəkən ölkələr iqlim dəyişikliyinin fəsadlarına ən çox məruz qalan ölkələr sırasındadır. Onların da müəyyən yardıma və dəstəyə ehtiyacı var. Belə desək, 30 il işğala, Ermənistanın Azərbaycana qarşı hərbi işğalı və təcavüzünə məruz qalan ölkə kimi Azərbaycan Respublikası da bunun fəsadlarını qabarıq şəkildə görmüşdü. Fikrimizi belə də ifadə edə bilərik ki, əgər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalı, 30 il davam edən bu işğal faktoru olmasaydı, Azərbaycan özünün yaşıl gündəliyində və Yaşıl konsepsiyasının həyata keçirilməsində daha da böyük nailiyyətlərə imza atmış olardı.

Amma buna baxmayaraq, gördüyünüz kimi, Qarabağ və Şərqi Zəngəzur azad olunandan sonra dərhal cənab Prezidentin müvafiq qərarlarına uyğun olaraq, həmin ərazi sıfır tullantı zonası elan olundu. Dövlətimizin siyasəti bundan ibarətdir. Azərbaycan Respublikası qısa müddət ərzində yaşıl transformasiya nöqteyi-nəzərindən nə qədər ciddi nailiyyətlər əldə edib. Bunun başqa bir tərəfi ondan ibarətdir ki, işğal, təcavüz və hərbi əməliyyatlar həmin ərazinin ekoloji mühitinə və ekosisteminə də ciddi zərbə vurur. Ermənistanın bu illər ərzində işğal altındakı ərazilərimizin flora və faunasının məhv etdiyini gördük. Bütün bunların hamısı sənədləşdirilib. Hesab edirik ki, COP29 bu kimi məsələlərin qaldırılması, müzakirə olunması baxımından vacibdir. Ona görə də qeyd etdiyiniz suala bir daha qayıdaraq bildirirəm ki, biz bu dövlətlərin narahatlığını yaxından başa düşürük, anlayırıq. Hesab edirik ki, münaqişədən əziyyət çəkən ölkələrin rəqəmsal iqlim transformasiyası prosesində onlara da xüsusi yanaşma olmalıdır.

***– Bəs münaqişəni həll etdikdən sonra Azərbaycanın qlobal xarici siyasəti necə inkişaf edir?***

– Artıq Azərbaycan üçün münaqişə keçmişdə qalıb. Azərbaycan özünün ərazi bütövlüyü və suverenliyini tam şəkildə təmin edib. Ümumiyyətlə, Azərbaycan Respublikasının Ermənistanın işğalına və təcavüzünə son qoyması və BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü icra etməsi dünyada münaqişələrin həll edilməsinin çox nümunəvi modellərindən biridir. Məhz cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan siyasi və hərbi metodlarla özünün ərazi bütövlüyünü tam şəkildə təmin edib.

Münaqişənin uzun müddət Azərbaycanın gündəliyində qalması müəyyən məhdudiyyətlər, müəyyən buxovlar yaradırdı. Məqsəd də bu idi ki, Azərbaycanın xarici siyasət hədəflərinin həyata keçirilməsinə müəyyən maneələr, əlavə məhdudiyyətlər yaradılsın. Münaqişənin başa çatması ilə, yəni ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi ilə Azərbaycan məxsus olduğu fərqli geosiyasi identifikliyi və kimliyi əsasında daha böyük bir coğrafi məkanda xarici siyasət həyata keçirir. COP29-un Azərbaycanda keçirilməsi bunun bariz nümunələrindən biridir.

Gördüyünüz kimi, məhz Azərbaycan qlobal gündəliyin ən vacib, ən narahatedici mövzularından biri olan, dünyamiqyaslı tədbirə, COP29-a ev sahibliyi edir. Və buna da çox müvəffəqiyyətlə ev sahibliyi edir. Belə ki, təşkilatçılıq baxımından, substantiv və mahiyyəti üzrə aparılan müzakirələr baxımından Azərbaycan bunu mükəmməl şəkildə həyata keçirir. Digər tərəfdən, COP29-un davamı olaraq, 2026-cı ildə Bakı Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcək. Bu da BMT miqyasında ən böyük tədbirlərdən biridir. Hətta BMT-də belə bir deyim var ki, iqlim məsələləri şəhərlərdə meydana gəlir və iqlimlər elə şəhərlərdə də məhv olur. Çünki iqlimi ən çox çirkləndirən məkanlardan biri də şəhərlərdir. Azərbaycanın yanaşmasında ardıcıllıq və sistemlilik var. Azərbaycan postmünaqişə şəraitində 9 şəhər, yüzlərlə kəndi sıfırdan yenidən qurmaqla unikal bir model ortaya qoymuş olur. Azərbaycanın daha da qloballaşan, daha da geniş coğrafiyanı əhatə edən xarici siyasətin konturları cənab Prezident tərəfindən müəyyən edilib.

Bundan başqa bir nümunəsini də qeyd edə bilərəm. Cənab Prezident bu günlər ərzində 50-dən artıq müxtəlif görüşlər keçirdi. Bu görüşlərin coğrafiyasına baxsaq görərik ki, orada Latın Amerikası, Afrika, Asiya, Avropa ölkələri təmsil olunur, dünyanın elə qitəsi yox idi ki, həmin ölkələr əhatə olunmasın. Hətta bir sıra ölkələr var idi ki, onlarla bizim diplomatik əlaqələrimiz olsa da, ticari-iqtisadi, mədəni əlaqələrimiz bir o qədər də geniş inkişaf etməyib. Bu da Azərbaycanın qarşısında yeni bir istiqaməti müəyyən etmiş oldu. Bundan sonra Azərbaycan qlobal gündəlikdə duran mövzulara töhfə verilməsi, problemlərin aradan qaldırılması nöqteyi-nəzərindən daha geniş məcralı xarici siyasət həyata keçirəcək.

***– Ermənistan Azərbaycanın COP29-da iştirakla bağlı dəvətinə müsbət geridönüş etmədi. Bu regionda davamlı sülh yaratmaqla bağlı səylərə necə təsir edir?***

– Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının üzvü olaraq və COP29-a ev sahibliyi edərək BMT və Konvensiyanın bütün üzv dövlətlərini bu tədbirə dəvət edib. Konvensiya tərəflərinin sayı 198-dir. Hətta burada dövlət olmayan tərəflər də var. Məsələn, Avropa İttifaqı və iki müstəqil dövlət olmayan tərəf də var ki, biz hətta onları da dəvət etmişdik. Çünki bu, bizim öhdəliyimizdir və bu öhdəlik çərçivəsində Azərbaycan Respublikası tərəfindən Ermənistana da dəvət göndərilmişdi. Açığı, Ermənistanın iştirak edib-etməyəcəyi bizim üçün bir o qədər də maraqlı deyil. Bu, Ermənistanın öz qərarıdır.

Əgər Ermənistan qlobal iqlim dəyişməsi konsepsiyasında iştirak etmək istəmirsə, yəqin ki, Ermənistanın yaşıl gündəliyi ilə əlaqədar müəyyən problemləri var. Amma hər bir halda bu, Ermənistanın daxili işidir və öz qərarıdır. Amma bu günlərdə bütün dünya Azərbaycandadır. Tədbir iştirakçılarının sayına baxaq, artıq qeydiyyatdan keçən iştirakçıların sayı 75 000-i aşıb. Elə COP məkanına baxmaq kifayətdir. Ermənistanı və dövlət olmayan tərəfləri kənara qoysaq, tərəflərin hamısı burada təmsil olunurlar. Qeyd etmək istərdim ki, bizim üçün bunun hər hansı bir fərqi yoxdur, yəni Ermənistan burda iştirak edir, yoxsa etmir, Azərbaycan öz üzərinə düşəni yerinə yetirib, Ermənistanı dəvət edib. Yəqin ki, Ermənistanın yaşıl transformasiya ilə əlaqədar problemləri və yaxud da başqa fikirləri var.

Amma eyni zamanda, hesab edirdik ki, bu tədbir Ermənistanla Azərbaycan arasında və regionda etimad quruculuğu prosesinə də töhfə vermiş olardı. Əgər Ermənistan həqiqətən də sülh gündəliyinin, regionda etimad quruculuğu, regional əməkdaşlığın tərəfdarı idisə, burada iştirak etməsi faydalı ola bilərdi. Həmçinin də Ermənistanın burada iştirakı Qafqaz regionunda da iqlim dəyişmələrinin təsirləri kimi məsələlərin müzakirə edilməsi baxımından faydalı olardı.

Bu günlərdə BMT-nin Ətraf Mühit Proqramı çox maraqlı hesabat təqdim edib. Həmin hesabatda Azərbaycanın da yerləşdiyi Qafqaz regionunda - istər Xəzər dənizinin suyunun səviyyəsinin, istər Qafqaz dağlarında buzlaqların səviyyəsinin aşağı düşməsinin, istər yağıntıların miqdarının azalmasının, istərsə də müxtəlif fəsadlar nəticəsində iqlim dəyişmələrinin parametrlərini görürük. Amma Ermənistan istəmirsə və yaxud belə qərar qəbul edibsə, bu, hər bir halda Ermənistanın öz məsuliyyətidir. Açıq söyləsək bunun bizim üçün hər hansı bir əhəmiyyəti yoxdur. Azərbaycan dünya ölkələri ilə qlobal iqlim gündəliyinin irəli aparılması üçün çox ciddi səylərini ortaya qoyub və bu konfransı da uğurla başa çatdıracaq. Konfransdan sonra Azərbaycanın işi hələ bitmir. Azərbaycan Sədr ölkə olaraq bir il ərzində bu prosesi aparacaq.

***– COP29-da iqlim sərmayəsi ilə bağlı hədəflərə nail olunacaqmı, bu vəsaitlər toplana biləcəkmi?***

– Burada bir məsələni tam aydınlaşdırmaq lazımdır. Çünki Azərbaycan Konvensiyanın üzvü, COP29-un ev sahibi və sədr dövlət olaraq nəticəyönümlü müzakirələrin aparılması üçün çox əlverişli mühit və şərait yaradıb. Amma burada qərarların qəbul edilməsi Konvensiyanın bütün tərəflərindən asılıdır. Mən təəssüflə qeyd etmək istəyirəm ki, bəzən beynəlxalq mediada məsələ elə bir formada qoyulur ki, guya bu, yalnız Azərbaycanın qərarıdır və yaxud da hər şey Azərbaycandan asılıdır, bunu ancaq Azərbaycan etməlidir. Bu, belə deyil.

Azərbaycan sədr ölkədir, ev sahibi ölkədir. Azərbaycan nəticəyönümlü müzakirələrin aparılması üçün də çox real və əlverişli, münbit şərait yaradıb. Açıq və səmimi etiraf etməliyik ki, yeni maliyyə hədəfi ilə əlaqədar inkişaf etmiş ölkələrin üzərinə böyük öhdəliklər düşür. Paris razılaşmasının mahiyyətini ümumi, amma fərqli məsuliyyətlər konsepsiyası təşkil edir ki, sənaye inqilabının başlanması ilə dünyada karbon emissiyasının artmasında inkişaf etmiş ölkələrin xüsusi məsuliyyəti var. Ona görə də Azərbaycanın ev sahibliyi etdiyi COP29-da da, dünyanın inkişaf etmiş ölkələrdən gözlənti məhz yeni maliyyə hədəflərinin ortaya qoyulmasıdır.

Qarşıdan G20-nin toplantısı gəlir. Ümid edirik ki, G20 çərçivəsində aparılan müzakirələr nəticə etibarı ilə COP29-da maliyyə hədəfi ilə bağlı aparılan müzakirələrə öz töhfəsini verəcək.

# Konstitusiya Məhkəməsində görüş



**Noyabrın 16-da Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən məhkəmə seminarında iştirak etmək üçün Bakı şəhərinə səfər edən Belçika Krallığının Konstitusiya Məhkəməsinin sədri Lük Lavrysen ilə görüş keçirib.**

Sədr Fərhad Abdullayev Bakıda keçirilən genişmiqyaslı tədbirin bütün dünya ölkələri üçün əhəmiyyətini qeyd edib. O, Konstitusiya Məhkəməsinin fəaliyyəti haqqında məlumat verərək iki ölkə arasında məhkəmə-hüquq əməkdaşlığının vacibliyini qeyd edib. Görüşdə Konstitusiya məhkəmələrinin məhkəmə təcrübəsində ətraf mühitin qorunması ilə bağlı qərarlar barədə fikir mübadiləsi aparılıb.

Lük Lavrysen Azərbaycanın COP29-a ev sahibliyi etməsini yüksək qiymətləndirib. O, gələcəkdə də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığın faydalı olacağına ümid etdiyini və qarşılıqlı əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayıb.

***XQ***

# Naxçıvan Ali Məclisinin iclası



**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisi payız sessiyasının 4-cü iclasında Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsi müzakirə olunub.**

Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli məsələ barədə məlumat verib. Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası üzvlüyünə Bağırov Orxan Rza oğlunun, Əliyev Asim Yediyar oğlunun, Heydərli Elşən Sadıq oğlunun Həsənli Çingiz Namizəd oğlunun, Orucəliyev Ramil Əli oğlunun, Rüstəmova Məlahət Oruc qızının və Yaqubov Nicat Əsgər oğlunun namizədliklərini təklif edib.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev namizədlər barədə məlumat verərək onların ictimai fəaliyyətini yüksək qiymətləndirib. Müzakirə olunan məsələ ilə bağlı qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Mərkəzi Seçki Komissiyasının üzvü Ramil Orucəliyev komissiyanın yeni tərkibinə etimad göstərdiklərinə görə Ali Məclisin üzvlərinə minnətdarlığını bildirib, komissiyanın bundan sonrakı fəaliyyətində də seçkilərin azad, ədalətli və şəffaf keçirilməsini təmin edəcəyini söyləyib.

***XQ***

# Norveç rəsmisi məlumatlandırılıb



**Noyabrın 16-da xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak məqsədilə ölkəmizdə səfərdə olan Norveç Krallığının beynəlxalq inkişaf naziri Anne Beate Tvinreym ilə görüşüb.**

Görüşdə Azərbaycan və Norveç arasında əməkdaşlığın perspektivləri, ölkəmizin COP29 Sədrliyindən irəli gələn məsələlər, eləcə də regional vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycanın COP29-a Sədrliyi, aparılan danışıqlar prosesi haqqında məlumat verərək, ölkəmizin iqlim fəaliyyəti gündəliyinin irəli aparılması istiqamətində səyləri nəticəsində COP29-un ilk günündə sessiyanın gündəliyinin razılaşdırılmasının əhəmiyyətini qeyd edib. Danışıqlar prosesində bugünədək Paris Sazişinin 6.4-cü maddəsi, habelə çoxtərəfli maliyyə institutları tərəfindən illik əsasda iqlim maliyyəsi öhdəliyinin 75 milyarddan 170 milyard ABŞ dollarına qədər artırılması üzrə razılıqların əldə olunduğu diqqətə çatdırılıb.

Azərbaycanın xarici işlər naziri, həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi və postmünaqişə dövründə bölgədə vəziyyət, habelə ölkəmizin sülh səyləri barədə qarşı tərəfə məlumat verib. Bununla yanaşı, Ermənistanın yaratdığı mina təhdidi diqqətə çatdırılıb.

***XQ***

# Tunberq ekofəaldır, yoxsa...

**Bakıda öz işini uğurla davam etdirən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) qarşı çıxanlardan biri də isveçli ekologiya fəalı Qreta Tunberqdir. O, noyabrın ilk günlərində Tbilisiyə səfər edərək, burada müxalifətin parlament seçkilərinin nəticələri ilə bağlı keçirdiyi yürüş-mitinqlərə qatılıb. Həmin vaxt Tunberq ölkəmiz əleyhinə ilk açıqlamasını verərkən COP29-da iştirak etməyəcəyini bildirib. O, ölkəmizin Gürcüstandakı səfirliyi önündə aksiya da keçirib.**

Onun ölkəmizin yaşıl gündəliyini əsassız tənqid etməsi az imiş kimi, siyasi məsələləri də bura qatması, guya, Azərbaycanın 2023-cü ilin sentyabrında erməniləri "etnik təmizləmə"yə məruz qoyması, hansısa "hərbi cinayətlər"dən dəm vurması Tunberqin əsas məqsədlərini üzə çıxarıb. Bu yaxınlarda isə o, Böyük Britaniyanın "The Guardian" qəzetində Azərbaycana qarşı ittihamların yer aldığı məqalə dərc etdirib.

Ekofəal daha sonra – noyabrın 12-də İrəvana gedib. Onu qarşılayan Ermənistanda Cəmiyyətin səfərbərliyi və dəstəyi mərkəzinin rəhbəri Oleq Dulqaryanın "Facebook" profilində yazdığı fikirlər də çox mətləblərdən xəbər verir: "Böyük məsuliyyət və məmnunluq hissi ilə Bakıda keçirilən COP29-u boykot etmək üçün Ermənistana gələn isveçli ekoloji fəal Qreta Tunberqi Ermənistan–Gürcüstan sərhədində qarşıladım. Qarşıdakı proseslər haqqında yaxın vaxtlarda ətraflı məlumat veriləcək".

Noyabrın 14-də, səhər saatlarında Q. Tunberq Ermənistan–Amerika Universitetinin Manukyan zalında "Azərbaycanın təcavüzünün (?) insan hüquqlarına və ətraf mühitin mühafizəsinə təsiri" adlı panel müzakirəsində iştirak edib. Ertəsi gün BMT-nin Ermənistan ofisi yaxınlığında keçirilən "Yaşıl soyqırımı dayandırın!" adlı etiraz aksiyasına qatılıb. Hər iki tədbirin təşkilatçısı Ermənistan iqlim ədalət təşəbbüsüdür.

Aksiyadakı çıxışı zamanı Q.Tunberq Azərbaycanı "neft dövləti" adlandırıb və COP29-un Bakıda keçrilməsinin doğru qərar olmadığını iddia edib. Erməni xalqının "çəkdiyi iztirablardan" danışıb, "məcburi köçkünlüyün və davamlı fiziki və psixoloji zorakılığın qəbuledilməz" olduğunu bildirib.

Əsasən, siyasi açıqlamalar verən Tunberq daha sonra keçmiş separatçı rejimin başçıları barədə danışıb. O, beynəlxalq medianı və imkanı olanları "qlavar"lara baş çəkməyə və onların azad olunmasını tələb etməyə çağırıb.

Qeyd edək ki, Q.Tunberq 2003-cü ildə Stokholmda anadan olub. O, iqlim dəyişikliyi nəticəsində bəşəriyyəti qaçılmaz ekzistensial (mövcudluq, var olma–S.H.) böhranın gözlədiyi fikrini təbliğ etdiyinə görə dünya miqyasında şöhrət qazanıb. Tunberq sadə ünsiyyət tərzi və siyasi xadimləri ekoloji problemlərin həlli üçün yetərincə hərəkət edə bilmədiklərinə görə kəskin tənqid etməsi ilə tanınır. 2018-ci ilin avqustunda 15 yaşlı Tunberq ekoloji problemlərlə mübarizə üçün təcili tədbirlər görməyə çağıran "İqlim üçün məktəb tətili" plakatı ilə İsveç parlamenti qarşısında etiraz etməyə başlayıb. Onun hərəkətləri bütün dünyada rezonans doğurub və "Gələcək üçün cümə günləri" kimi tanınan kütləvi hadisələrə səbəb olub. Elə həmin il Tunberq Polşada keçirilən COP24-də çıxış edib. 2019-cu ildə müxtəlif şəhərlərdə bir milyondan çox insanın iştirakı ilə etiraz aksiyaları keçirilib. Onun BMT-nin 2019-cu ildə keçirilən iqlim dəyişmələri konfransında səsləndirdiyi "Necə cəsarət edirsən!" sözləri mətbuatda və internetdə geniş işıqlandırılıb.

İsveçli fəalın sürətlə şöhrət qazanması və dünya arenasında nüfuzunun artması "The Guardian" tərəfindən "Qreta effekti" kimi təsvir edilib. Tunberq işinə görə bir çox mükafat və fəxri fərmanlar alıb, 2019-cu ildə "Time" jurnalına görə dünyanın 100 ən nüfuzlu insanı siyahısına daxil edilib. Həmin nəşr tərəfindən "İlin adamı" elan edilib. "Forbes" jurnalı onu dünyanın ən güclü 100 qadını siyahısına daxil edib. Tunberq iki dəfə – 2019 və 2020-ci illərdə "Nobel" sülh mükafatına namizəd olub.

Bütün bunlara baxmayaraq, Tunberqin fəaliyyətinə dünyada münasibət birmənalı deyil. O, ekoloji problemlərə qarşı mübarizə apardığını bəyan etsə də, bir dəfə jurnalistlər onun plastik qablardan istifadəsini ictimailəşdirmişdilər. Plastik tullantılar isə məlum olduğu kimi, dünyada ətraf mühitin korlanmasında mühüm rola malikdir. Bir çoxları, o cümlədən Böyük Britaniyanın keçmiş Baş naziri Tereza Mey Tunberqin dərslərdən yayınmasını və bütün dünyada milyonlarla yeniyetməni ondan nümunə götürməyə təşviq etməsi faktını bəyənmir. Almaniyanın sabiq Kansleri Angela Merkel ekoloji tətilləri "bir növ kənar müdaxilə" kimi qiymətləndirmişdir.



Almaniya Bundestaqının Xristian–demokrat və Xristian-sosial birlik fraksiyasından olan deputatı Aleksandr Trom isə isveçli ekofəalın Almaniyaya girişinə qadağa qoyulmasını təklif edib. Bu təklifə səbəb onun 2024-cü il oktyabrın 7-də Berlində İsrail əleyhinə keçirilən nümayişdə iştirakı olub: "Almaniyada Qreta Tunberq kimi yəhudi düşmənlərinə yer yoxdur. İsrailə qarşı təbliğat aparmaq və bizim polislərimizi ləkələmək üçün bura gələn heç kəsə Almaniyada yer yoxdur. Düşünürəm ki, Almaniya Daxili işlər nazirinin gələcəkdə bu antisemitin ölkəyə girişini qadağan etməsi nəinki məqsədəuyğundur, hətta zəruridir".

İsrail Təhsil Nazirliyi məktəb materiallarından Q.Tunberqə istinadları silmək qərarına gəlib. "Ynet" portalı xəbər verir ki, isveçli Fələstin və Qəzza zolağına dəstək verdiyi üçün hakimiyyət bu tədbirə əl atıb. "Belə bir mövqe Tunberqi mənəvi və tərbiyəvi dəyərlər baxımından nümunə olmaq hüququndan məhrum edir. Onun artıq israilli tələbələr üçün nümunə və örnək olmaq hüququ yoxdur" – deyə nazirlik bildirib.



İndi isə ekofəal olduğu halda onun siyasi məsələlərdən danışması, Azərbaycanı olmazın məsələlərdə ittiham etməsi heç bir qəlibə sığmır. Yaxşı olardı ki, Q.Tunberq bəsirət gözünü açsın və Ermənistandakı rejimlərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlarından agah olsun. Onun qeyd etdiyi "qaçqınlıq və məcburi" köçkünlüyün nə demək olduğunu azərbaycanlılar bu gün Qretanın dəstəklədiyi ermənilərin sayəsində yaxşı bilirlər. İsveçli ekofəal məsələlərə birtərəfli yanaşmamalı, əsl həqiqətləri dilə gətirməlidir. Bundan əlavə, o bilməlidir ki, əsl ekoloji soyqırımı da ermənilər 30 ilə yaxın davam edən işğal dövründə törədiblər. Ermənistanın işğal dövründə törətdiyi ağır cinayətlərdən biri də ekoloji cinayətlərdir. Onlar tutduqları Azərbaycan ərazilərində regionun təbii sərvətlərini də talan edib, bu ərazilərdə mütəmadi olaraq yanğınlar törədib, regionun flora və faunasına, bölgənin ekoloji durumuna bərpa edilə bilməyəcək zərər vurublar.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İşçi Qrupunun fəaliyyətinin nəticəsi olaraq hazırlanan hesabat ermənilərin işğal etdiyi ərazilərimizdə ölkəmizə dəyən maddi-mənəvi ziyanın dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara çatdırılması üçün sübutdur. Hesabatda ətraf mühit, təbii sərvətlər, onların qiymətləndirilməsi üsulları, beynəlxalq hüquqda vurulmuş zərərlərin ödənilməsinin hüquqi şərtləri, zərər və itkilərin qiymətləndirilməsinin metodoloji əsasları haqqında aparılan araşdırmalar dəyən zərərin obyektiv, elmi əsaslarla qiymətləndirilməsinə dəlalət edir. Altı əsas sahə – faydalı qazıntı yataqlarının talanı, biomüxtəlifliyin, meşələrin məhv edilməsi, torpaqların sıradan çıxardılması, istifadədən məhrum olunması, su, su anbarları və ətraf mühitin çirkləndirilməsi üzrə ekoloji zərərlər, o cümlədən əhaliyə dəymiş mənəvi-ekoloji zərərlər müəyyənləşdirilib, 27 illik işğal dövrünü əhatə etməklə, ümumilikdə, Azərbaycana dəyən ziyan 285 milyard dollar çərçivəsində qiymətləndirilib.

Onu da bildirək ki, Q.Tunberq bu ilin aprelində Haaqada keçirilən aksiya zamanı polislər tərəfindən saxlanılarkən Azərbaycan Xarici İşlər Nazirliyi Niderland hakimiyyətinə çağırış etmişdi. Nazirlik bununla "X" platformasındakı paylaşımında aşağıdakıları qeyd etmişdi: "Tanınmış iqlim fəalı Qreta Tunberqin Haaqada dinc nümayiş zamanı saxlanılmasından narahatıq. COP29-un sədri kimi biz Niderland hakimiyyətini iqlim etirazçılarının ifadə azadlığına hörmət etməyə və saxlanılanları azad etməyə çağırırıq".

Bakıda keçirilən COP29-da iştirak edən **Rusiya Prezidentinin dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün beynəlxalq təşkilatlarla əlaqələr üzrə xüsusi nümayəndəsi Boris Titov** bildirib ki, Q. Tunberq ehtiyaclar və imkanlar arasındakı real tarazlığı düzgün qiymətləndirmir. Onun sözlərinə görə, COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycanın seçilməsi tamamilə haqlıdır, çünki iqlim məsələləri neft hasil edən ölkələrdə müzakirə edilməlidir: "Qreta iqtisadiyyatdan uzaqdır, ona görə də o, ehtiyaclar və imkanlar arasındakı real tarazlığı düzgün qiymətləndirmir".

O qeyd edib ki, Rusiya qaz, nüvə və su istehsalını birləşdirən dünyanın ən yaşıl enerji sektorlarından birinə malikdir: "Buna görə də ənənəvi texnologiyalardan dərhal və genişmiqyaslı imtina bizim üçün təkcə iqtisadi cəhətdən mümkün deyil. Bu, əslində, özünü doğrultmur. Biz artıq istiləşməyə qarşı qlobal mübarizəyə öz töhfəmizi vermişik və bundan sonra da verəcəyik".

**Hüquq müdafiəçisi, ekoloq Sahib Məmmədov** isə Q.Tunberqin fəaliyyətini müxtəlif güc mərkəzlərinin layihəsi hesab edir. Onun sözlərinə görə, alternativ enerji mafiyası məktəbdə dərslərini pis oxuyan bir qızı tapıb ekofəal edib və ona müxfəlif mükafatlar verib. O cümlədən onların əli ilə Tunberq iki dəfə "Nobel" sülh mükafatına namizəd olub: "Qreta Tunberq təbiətşünaslıq sahəsində savadsızlığını dəfələrlə nümayiş etdirib. Alternativ enerji mafiyası üçün belə bir məktəbli tapmaq çətin iş deyildi. Bu qızın bəxti gətirib. İndi o dərsini pis oxuyan qızdan soruşsan ki, "albedo"



(səthin işıqqaytarma qabiliyyətini səciyyələndirən kəmiyyət–S.H.) nə deməkdir, bilməyəcək. Yaxud, Yer planetinin istilik balansının neçə faizini ekzogen, neçə faizini endogen enerji formalaşdırır? Buna da cavab verə bilməyəcək. "İstixana effekti nədir?" sualının da cavabını bilmir".

S.Məmmədov bildirdi ki, Q.Tunberqin atmosferdə olan qazların tərkibi və faiz göstəriciləri barədə də məlumatı yoxdur. Hətta elə bilir ki, atmosferdə karbon qazı olmasa yaxşıdır. Amma bilmir ki, atmosferdə karbon qazı olmasa Yer kürəsində həyat olmazdı: "Amma ondan ekofəal düzəldiblər, guya, dərslərini oxumayan, məktəbi tərk edən bu qız bəşəriyyəti xilas edəcək. Bütün bunları qoyaq bir kənara. Problem ondadır ki, bu qız indi də siyasi məsələlərə girişib. Onun siyasi məsələlərdə naşı olduğu isə göz önündədir. Qreta Tunberq Qərbin siyasi alətidir".

***Səxavət HƏMİD***
***XQ***

# Manipulyasiya və "təklif diplomatiyası"

**(əvvəli 1-ci səhifədə)**

Ancaq rəsmi İrəvan xaricdəki anti-Azərbaycan qüvvələr kimi tədbiri boykot yolunu tutdu. Belə olan halda hansı etimad quruculuğundan danışmaq mümkündür? Ermənistan fürsəti əldən verdi və tam əminliklə bildirmək mümkündür ki, bunu Qərbin, başlıca olaraq isə Fransanın təhriki ilə etdi.

Əlqərəz, Paşinyanın Kazan görüşünün nəticələrini pozitiv qiymətləndirməsinə görə Ermənistanda qalxmış ajiotaj fonunda hakim komandanın təmsilçilərinin açıqlamaları diqqət çəkməkdədir. Müxalifət nümayəndələri Azərbaycanla strateji saziş məsələsini təslimçilik kimi qiymətləndirdikləri halda, baş nazirin tərəfdarlarının səsləndirdikləri mövqe onu deməyə əsas verir ki, Nikolun irəli sürdüyü tezis rəsmi İrəvanın növbəti manipulyasiyasından başqa bir şey deyil.

Fikrimizi Ermənistan parlamentinin Xarici əlaqələr komissiyasının sədri, hakim "Vətəndaş sazişi" partiyasının fraksiya üzvü Sakris Handanyanın açıqlaması da təsdiqləyir. Handanyanın söylədikləri, belə demək mümkünsə, "köhnə hamam, köhnə tas" ritorikasının məhsuludur. Onun sözlərinə görə, baş nazirin haqqında danışdığı məsələ sülh müqaviləsinin əsasını təşkil edən eyni prinsiplərin möhkəmləndirilməsini, kommunikasiyaların blokdan çıxarılmasını, delimitasiya və demarkasiya prosesini nəzərdə tutur: "Tərəflər bir-birinin ərazi bütövlüklərini və suverenliklərini tanımalı, bir-birinin daxili işlərinə qarışmamalı, qarşılıqlı məqbul şərtlər əsasında münasibətləri normallaşdırmalıdırlar. Mövcud kontekstdə kommunikasiyaların blokdan çıxarılması fraqmenti çox vacibdir. Çünki yolların açılması halında həm Ermənistan, həm də Azərbaycan üçün faydalı durum yaranacaq, insanların və malların hərəkəti baş verəcək".

Bəli, Handanyanın bildirdikləri Paşinyanın heç də yeni nə isə demədiyinin təsdiqidir. Bəs elə isə sual yaranır: Əgər bütün bu prinsiplər artıq sülh müqaviləsinə daxil edilibsə, niyə Nikol hansısa başqa fövqəladə müqavilə bağlamağın zəruriliyindən söz açır? Handanyanın sualla bağlı da qeydi var: "Biz hansısa əlavə sənədin imzalanmasından danışmırıq. Söhbət bütün bu proseslərdən (sülhün əldə edilməsi, kommunikasiyaların açılması və sərhədlərin müəyyənləşdirilməsi) hər iki tərəfin öz faydalarını götürməsi məntiqindən gedir".

S.Handanyanın ümumi tezisləri təkrarlaması zamanı dilə gətirdiyi yenilik məhz fayda amilidir. Əslində, faydanın nə demək olduğu da anlaşılmır. Amma ilk baxışdan. Məsələyə qayıdacağıq. Hələlik isə Paşinyanın bu günlərdə verdiyi digər açıqlamaya diqqət yetirək. Nikolun sözlərindən belə çıxıb ki, Ermənistan Azərbaycanın sülh şərtlərini qəbul etmək niyyətindən uzaqdır. Məsələn, ölkəmiz Ermənistanın konstitusiyasının dəyişdirilməsinin vacibliyini bildirdiyi halda, Nikol buna gedilməyəcəyini təsdiqləyib və fikrini belə əsaslandırıb ki, Ermənistan konstitusiya məhkəməsi ölkənin İstiqlaliyyət bəyannaməsinin əsas qanunda yer almayan müddəalarını etibarsız sayıb. Məlum olduğu kimi, Ermənistanın İstiqlaliyyət bəyannaməsində Azərbaycana qarşı ərazi iddiası var. O da məlumdur ki, bir məhkəmə qərarı bu iddianı heçə endirmək gücündə deyil.

Deməli, sülh prosesində irəliləyiş də yoxdur. Diqqət yetirək, Paşinyan özünün və komandasının aydın təsəvvürə malik olmadığı strateji saziş məsələsini ortaya atır. Handanyan isə bildirir ki, rəsmi İrəvan Nikolun Kazanda Prezident İlham Əliyevlə görüşündən sonra kommunikasiyaların blokdan açılması ilə bağlı Bakıya yazılı təkliflər göndərib. Komissiya sədri yeni təkliflərlə əlaqədar təfərrüatları açıqlamaqdan imtina edərək, yalnız onu deyib ki, orada qeyri-rəsmi səviyyədə müzakirə olunan özəl mühafizə şirkəti ilə bağlı bənd yoxdur. Ən əsası isə Handanyan Ermənistanın Azərbaycana ünvanladığı təkliflərdə başlıca istinad nöqtəsinin "Dünyanın kəsişməsi" layihəsinin olduğunu vurğulayıb. "İndi yalnız onu deyə bilərəm ki, təkliflər göndərilib, lakin hələlik Bakı onlara reaksiya verməyib", - deyən erməni komissiya sədri onu da bildirib ki, yalnız müzakirələr başladıqdan, fikir mübadiləsi aparıldıqdan sonra detalları açıqlamaq mümkün olacaq, hələlik isə söhbət yalnız təkliflərdən gedir.

Göründüyü kimi, rəsmi İrəvan yenidən "Dünyanın kəsişməsi" avantürasından yapışır. O avantüradan ki, Ermənistanı regional kommunikasiyaların açar fiquruna çevirməyə hesablanıb. O avantüra ki, Azərbaycanın 44 günlük müharibədən sonra irəli sürdüyü "Zəngəzur dəhlizi" təşəbbüsünə zidd mahiyyət daşıyır. Rəsmi Bakının bununla razılaşmayacağı gün kimi aydındır. "Dünyanın kəsişməsi" isə belə bir razılıq olmadan mümkünsüzdür. Onu da deyək ki, Ermənistan regional kommunikasiyaların açılması məsələsində Azərbaycanın şərtlərini qəbul etməyəcəyi halda, otuz ildən artıq müddətdə dalanda qaldığı kimi, yenə eyni aqibəti yaşayacaq.

Deməli, Handanyanın fayda məntiqinin nədən ibarət olduğu aydındır. Ermənistan öz faydasını düşünür, məğlub ölkə kimi öhdəliklərini yerinə yetirmək istəmir, üstəlik, diqqətə çatdırdığımız kimi, Paşinyan da açıq şəkildə ölkəsinin konstitusiyasının dəyişdirilməyəcəyini, sənəddə Azərbaycana qarşı ərazi iddiasının yer almadığını vurğulayır. Yəni, bir daha sübuta yetirilir ki, Nikolun strateji müqavilə ritorikası manipulyasiyadır.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Replika**

# Avantüra… İfa edir Frank Şvabe

**Avropanın ən ağıllı millətlərindən sayılan almanların bu müsbət imicinə xələl gətirəni, adbatıranı varmış. Söhbət Bundestaqının üzvü, Avropa Şurası Parlament Assambleyasında (AŞPA) ölkəsinin nümayəndə heyətinin rəhbəri vəzifəsində çalışan Frank Şvabedən gedir. AŞPA-nın bu parlamentarisinin anti-Azərbaycan isterikasına birinci dəfə deyil şahidlik edirik. Artıq bizdə onun Azərbaycan və Türkiyə əleyhinə erməni lobbisinin "muzdlu əsiri" kimi fəaliyyət göstərdiyinə şübhə yeri qalmayıb.**

Almaniyalı deputat bütün dünyanın diqqətinin Bakıda davam edən COP29-a yönəldiyi bir vaxtda yenə "yuyulmamış çömçə" kimi ortalığa atılıb. Cənab Şvabenin "X" sosial şəbəkəsində etdiyi paylaşıma diqqət yetirin: "Əgər rəsmi Bakı bu məsələyə aydın cavab verməzsə və erməni siyasi məhbusların əksəriyyətini azad etməzsə, yanvar ayında Azərbaycanın Avropa Şurası Parlament Assambleyasına qayıtmasını təsəvvür edə bilmirəm."



Tanış moizədir, elə deyilmi? Yəqin Frank Şvabe bu sərsəm paylaşımı ilə Azərbaycanın daxili işlərinə qarışdığının fərqindədir. Ölkəmizi "siyasi məhbus" məsələsi ilə ittiham etməyə çalışan deputat bu zaman nə konkret faktlara əsaslanır, nə də beynəlxalq hüquqla üst-üstə düşən məntiqi arqument ortaya qoyur.

Birincisi, onun bu mücərrəd və populist yanaşmasının təmsil etdiyi Almaniyada necə qarşılanacağı barədə düşünməsini tövsiyə edərdik. İkincisi, Şvabenin haypərəst mövqedən Azərbaycanı hədəf alan əsassız ultimatumlar səsləndirməkdənsə, öz ölkəsində sosial-demokratların dağılan ittifaqına diqqət ayırsa, daha yaxşı olar. Yoxsa onu Almaniyada cövlan edən iqtisadi böhran, sağ-radikal qüvvələrin siyasi olimpə yüksəlişi, daxili sabitliyin pozulması və sosial-demokratların nüfuzdan düşməsi kimi ciddi problemlər düşündürmür?

Oxuculara xatırladaq ki, bu ilin yanvar ayında Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığı və bu qurumda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Bununla bağlı bəyanat verib. Belə bir qərarın verilməsinin səbəbi Azərbaycan nümayəndə heyəti üzvlərinin etimadnamələrinin qəbul edilməməsi barədə avropalı deputatların çağırışları olub. Yeni seçilmiş Milli Məclisdə hələlik AŞPA üzrə nümayəndə heyəti formalaşdırılmayıb.

Biz Aİ-də, Avropa Parlamentində, AŞPA-da və "qoca qitə"nin digər qurumlarında anti-Azərbaycan ladına köklənmiş avantüraların (üvertura ilə səhv salmamalı -red.) "xorla" ifa edildiyini görürük. Üstəlik, bu "xor"un xüsusi səs çalarına malik solistlərinin "bacarıqlarına" da bələdik. Həmin "qabiliyyətli" solistlərdən biri də Frank Şvabedir. Bu dəfə o, səsinin lap qalın yerinə salıb oxuyur. Görünür, onun ifası erməni lobbisi tərəfindən yüksək qonorarla mükafatlandırılır. O, vaxtilə bir çox dövlətlərin şəninə təriflər yağdırıb və ya hansısa ölkəni məzəmmət, tənqid edib, sonra da qarayaxma kampaniyalarını reallaşdırıb. Yəni, sifarişlə çox işlər görüb. Hazırda Şvabenin "sənət yaradıcılığında" ermənipərəst lobbinin izləri aydın sezilməkdədir.

Amma Şvabenin fərdi rəyi heç də o demək deyil ki, AŞPA-dakı digər ölkələrin (onların arasında Azərbaycana dost ölkələr də var – red.) təmsilçiləri onunla həmrəydirlər, yaxud dediklərini qeyd-şərtsiz qəbul edirlər. Sadəcə, Şvabe bununla potensial və yağlı "müştərilərə" mesajlar verir ki, gələcəkdə hansısa ölkəyə qarşı qara piar bazarını ələ keçirə bilsin. Bazarda isə hər cür fırıldaqçıya rast gəlmək mümkündür. Hətta, siyasi avantüristə də…

***İ.HƏSƏNQALA***
***XQ***




# Sülhlə COP-un məramı uyğundur




(əvvəli 1-ci səhifədə)

Bakıda İqlim Sammitinin davam etdiyi günlərdə Hayastandan həm ev sahibliyi etdiyimiz beynəlxalq konfrans, həm də sülh danışıqlarının perspektivi ilə bağlı maraqlı bəyanatlar eşidirik. Misal üçün, Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, İrəvan bu yaxınlarda Bakının sülh müqaviləsi ilə bağlı təkliflər paketinə cavab verib və regional kommunikasiyaların qarşılıqlı şəkildə açılması üçün Azərbaycana yazılı təklif göndərib. "Bizim kommunikasiyaların açılması məsələsində tamamilə qarşılıqlı məqbul həll yolu tapa biləcəyimiz ehtimalı yüksəkdir", – deyən Paşinyan bir neçə gün əvvəl İrəvan Bakının sülh müqaviləsi ilə bağlı son təkliflər paketinə cavab verdiyini bəyan edib.

"Mən hesab edirəm ki, Ermənistan və Azərbaycana uzunmüddətli sülh şəraitində yaşamaq üçün sadəcə sülh müqaviləsi və ya digər sazişlər deyil, strateji saziş (?) lazımdır", – deyə Paşinyan bildirib.

Bu tezis hayların baş nazirinin diplomatik leksikonuna yeni daxil olub. Yeni ideyasının mahiyyətini izah etməyə çalışan baş nazir bildirib ki, "biz yaxın 100 ildə bir-birinə qonşu olan müstəqil dövlətlər kimi hansı düsturlar çərçivəsində yaşamağı planlaşdırdığımızı" dəqiq müəyyən etməliyik. Bu zaman Paşinyan, həmçinin tarixi deyil, "real Ermənistan"a əsaslanan gələcək münasibətlərin yeni konsepsiyasına işarə edib.

Rəsmi İrəvanın gündəmə gətirməyə çalışdığı yeni mövzu barədə təsəvvürümüz hələlik qeyri-müəyyən olsa da, baş nazirin bəyanatları onun sülhə və qonşuluğa diplomatik yanaşmaların köklü şəkildə yenidən qurulması istəyindən xəbər verir. Buna inanmaq istərdik. Bəlkə bu yanaşma özündə Azərbaycanla gələcək münasibətlərə daha praqmatik baxışı ehtiva edir.

Hər halda yeni və pozitiv təşəbbüslərə açıq olan Bakı üçün İrəvanın bu jesti maraq kəsb edə bilər. Amma bu yeni yanaşmaya keçmiş hərbi əməliyyatların və gərginliyin mürəkkəb tarixini nəzərə alsaq, onun sülh münasibətləri üçün davamlı zəmin yaratmaq məqsədi daşıya biləcəyinə inanmaq istərdik. Bununla yanaşı, ideya müəllifi təbii olaraq ortaya çıxan suallara cavab verməlidir: bu strateji sövdələşmənin məzmunu nədən ibarət olacaq? Bu layihə Bakı və İrəvan arasında qarşıdakı onilliklər ərzində dinc yanaşı yaşamanın əsasını qoymaq üçün tarixi inamsızlığı aradan qaldıra biləcəkmi? Və nəhayət, İrəvan Bakının Azərbaycana qarşı ərazi iddialarının Ermənistan konstitusiyasından çıxarılması və ATƏT-in Minsk qrupunun "de-yure" ləğvi ilə bağlı ədalətli tələblərini yerinə yetirəcəkmi?

İrəvanın ortaya atdığı yeni ideya ilə bağlı XQ-yə açıqlama verən **Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxovun** sözlərinə görə, Ermənistan baş naziri Nikol Paşinyanın Qərbin yaratdığı "siyasi labirintlərdə" vurnuxmasının heç bir məntiqi izahı yoxdur: "Düşünmürəm ki, Bakı Ermənistanın baş naziri ilə onun haqqında danışdığı hər hansı sövdələşməyə getsin. Hətta onun dediyi kimi, anlaşma strateji olsa belə. Bəli, Ermənistanla sülh razılaşması bizim üçün vacibdir və Paşinyan həmin mətndə nələri əks etdirməli olduğunu yaxşı bilir. Növbəti yüz ildə nə olacaq? Paşinyan nə deyir, heç kim bilmir. Amma sülh müqaviləsinin bağlanması ən azı qısamüddətli dinc gələcəyə, müəyyən mənada, zəmanət verir və Cənubi Qafqaz regionunun sabitliyinə və təhlükəsizliyinə zəmin yaradır".

Politoloqun sözlərinə görə, əgər Ermənistan baş naziri, həqiqətən də, diplomatik yanaşmalara köklü şəkildə yenidən baxmağa çalışırsa, bu, sülhə gətirib çıxararsa, dinc yanaşı yaşamaq üçün qarşılıqlı məqbul zəmin yaradırsa, bununla razılaşmaq olar: "Amma bunun üçün Paşinyan təklifini izah etməli, onu ictimailəşdirməlidir. O, ağlında tutduğu niyyətini ezop dilində ifadə etməməlidir. Mənim fikrimcə, Paşinyanın ideyası ünvanlandığı subyektlər – ilk növbədə, Ermənistan ictimaiyyəti üçün də anlaşılan olmalıdır. Təbii ki, biz irəliləyiş əldə etmişik və sülh sazişi layihəsində bir sıra məqamlar qarşılıqlı məqbul forma almışdır. Amma bir neçə məqam var ki, Azərbaycan tərəfi heç vaxt onlara İrəvanın yanaşması ilə razılaşa bilməyəcək və Paşinyan bunu yaxşı bilir. Söhbət Ermənistan konstitusiyasında əksini tapmış Azərbaycana qarşı ərazi iddialarından gedir. Bəlkə



elə buna görə Paşinyan reallıqdan qaçmağa və sülh müqaviləsinin imzalanmasına yanaşmada hələ də həllini gözləyən məsələləri ört-basdır etməyə çalışır".

"COP29-dan sonra, 2024-cü ilin sonunadək iki ölkə arasında sülh sazişi imzalana bilər". Bunu Paşinyan komandasının, demək olar ki, bütün üzvləri deyirlər. Rəsmi Bakı da bu nikbin yaxın perspektivə ümid etdiyini açıqlayıb. Son müddət kimi dekabrın ortaları bildirilir. Bir ay o qədər də uzaq müddət deyil...

***İmran BƏDİRXANLI***
***XQ***




# "Azərbaycan. Təbiətin sehrində" nəşri Çin mediasında

**Çinin ingilisdilli "China Daily" qəzeti Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşrinin təqdimatı barədə məqalə yayıb.**

Çinin nüfuzlu nəşri sıx əməkdaşlıq etdiyi AZƏRTAC-ın təqdim etdiyi materiala istinad edərək, ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, layihə rəhbəri Prezidentin köməkçisi Anar Ələkbərov olan nəşrdə Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillərin, müvafiq məlumatların yer aldığını yazıb.

Qeyd olunub ki, Azərbaycan təbiətinin müxtəlifliyini təsvir edərək ölkənin bütün regionlarını, milli parklar və qoruqlarını əhatə edən layihə üzrə videoçəkilişlər aparılıb, videoçarxlar və sənədli film hazırlanıb.

Nəşr yazır ki, kitabda toplanmış şəkillər Azərbaycanın gözəlliklərini təqdim edəcək, insanlara təbiəti sevməyi və qorumağı bir daha xatırladacaq. Layihə zamanı işğaldan azad olunmuş ərazilərdə - Qarabağda və Şərqi Zəngəzurda da çəkilişlər aparılıb.

Qeyd edək ki, çap versiyası və rəqəmsal platformalar üzrə yüz milyonlarla oxucusu olan nüfuzlu "China Daily" qəzeti təkcə Çində deyil, eləcə də dünyada ingilis dilində nəşr edilən ən populyar qəzetlərdən biridir. Onun xarici ölkələrdəki oxucularının sayı Çindəki oxucularından çoxdur.

Xatırladaq ki, oktyabrda 6-cı Dünya Media Sammiti çərçivəsində AZƏRTAC ilə "China Daily" arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Nəşr Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlar haqqında AZƏRTAC-ın onlarla materialını öz internet səhifəsində yerləşdirib. "China Daily" Bakıda keçirilən COP29 haqqında onlarla material yayıb.

***XQ***

# Karbonsuz iqtisadiyyata keçid təşəbbüsləri

**COP29 çərçivəsində Azərbaycanın PwC şirkətinin təşkilatçılığ ilə karbon emissiyalarının azaldılması çətin olan sənayelər üçün praktiki strategiyaları təqdim edən dekarbonizasiya üzrə ümumi səviyyəli sessiya keçirilib. Dekarbonizasiya mövzusunda keçirilən tədbir karbon emissiyalarının azaldılması çətin olan sənayelər üçün xalis sıfır hədəfə nail olunması yollarını müzakirə etmək məqsədilə Azərbaycanın polad, sement, tikinti və enerji sektorlarından olan aparıcı ekspertləri bir araya gətirmək məqsədi daşıyıb.**




Sessiyada "Baku Steel Company"nin istehsalat direktoru Celal Öven, "NORM Cement" şirkətinin dayanıqlı inkişaf üzrə meneceri Elmar Məmmədov, "PMD Projects" MMC-nin direktoru Nəriman Topçubaşov və SOCAR-ın vitse-prezidentinin müavini Hikmət Abdullayev çıxış edərək Azərbaycanda karbon emissiyası yüksək olan sənayelərin üzləşdiyi çətinliklər və imkanlardan söhbət açıblar.

"PwC Türkiyə"nin partnyoru Akif Kocanın moderatorluğu ilə keçirilən panel müzakirəsində dekarbonizasiyaya kompleks yanaşmanın zəruriliyindən bəhs edilib. "Yaşıl iqtisadi modelə keçidə nail olmaq bizdən xammal və istehsal proseslərindən məhsul dizaynına və bazara hazırlığa qədər bütün dəyər zəncirini nəzərdən keçirməyi tələb edir" deyə, – o bildirib. Şirkət nümayəndəsinin sözlərinə görə, bu transformasiya dayanıqlı inkişafı təmin etmək üçün logistika, təkrar emal və istehsal kimi aspektlərin səmərəliliyinin artırılmasına yönəlmiş dairəvi iqtisadiyyat perspektivini özündə ehtiva etməlidir. O deyib ki, "yaşıl keçid" aparıcı yaşıl şirkətlər və yüksək karbon emissiya edən sənayelər arasında strateji rəqabət yolu ilə inkişaf edəcək uzunmüddətli bir prosesdir.

Sessiya zamanı bərpaolunan enerji, alternativ yanacaq növləri, elektrikləşdirmə, karbontutma və rəqəmsal həllərin tətbiqi də daxil olmaqla bir sıra karbonsuzlaşdırma üsulları dərindən təhlil edilib. Süni intellekt, peyk monitorinqi və dronlar kimi inkişaf etməkdə olan texnologiyalar karbon emissiyalarının izlənilməsi və azaldılması üçün effektiv vasitələr kimi vurğulanıb ki, bu da onların dayanıqlı inkişaf məqsədlərinə nail olmaqda artan rolunu nümayiş etdirir.

PwC-nin baş meneceri Günay Əsgərova şirkətlərə ESG profilini daha real qiymətləndirməyə kömək edə biləcək sənaye normaları və hesabatlılıq standartlarına dair praktiki məsləhətlər verib. O, şirkətin dekarbonizasiya məqsədlərinə çatmaqda əsaslandırılmış qərarların dəstəklənməsi üçün hesabatlılıq çərçivələrinin, iqlim dəyişmələri ilə bağlı risklərin və imkanların, müvaiq maliyyə açıqlamalarının və məlumatların keyfiyyətinin vacibliyini vurğulayıb.

# COP hərəkatı qlobal iqlim platformasıdır

**COP29 tədbiri iqlim dayanıqlığının artırılması məqsədilə innovativ maliyyələşdirmə həllərinin və problemlərin müəyyən edilməsi üçün səmərəli platformadır. Bu dialoq iqlim dəyişikliyi ilə mübarizədə əsas istiqamətlərin müəyyənləşdirilməsi, COP29 ərzində və ondan sonrakı dövrdə yeni tərəfdaşlıqların qurulması üçün effektiv olacaq. Bu fikirlər COP29 çərçivəsində "Dayanıqlı gələcəyin gücləndirilməsi: maliyyə vasitəsilə yaşıl inkişafa təkan" mövzusunda keçirilən tədbirdə səsləndirilib.**

İqtisadiyyat Nazirliyinin dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov inkişaf etməkdə olan ölkələrdə iqlim fəaliyyətinə investisiya yatırmaq məqsədilə Azərbaycanın təşəbbüsü olan İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu barədə təqdimat edib. Diqqətə çatdırılıb ki, fondun kapitalının karbohidrogen ehtiyatlarına sahib olan ölkələrin, eləcə də şirkətlərin könüllü ianələri sayəsində formalaşdırılması, 1 milyard ABŞ dolları həcmində ilkin vəsait toplandıqdan və 10 səhmdar ölkə donor olduqdan sonra fəaliyyətə başlaması nəzərdə tutulur.

Tədbirdə fondun işə başlamasının qlobal "yaşıl keçid" üçün tələb olunan investisiyaların səfərbər edilməsi istiqamətində mühüm addım olduğu vurğulanıb. Qeyd olunub ki, əsas missiya, sadəcə, yaşıl və təmiz keçidi maliyyələşdirmək deyil, həm də iqtisadiyyatları yenidən formalaşdırmaqdır.

BMT-nin İnkişaf Proqramının Dayanıqlı Maliyyə Habının direktoru Tomas Belonun moderatorluğu ilə keçirilən tədbirdə COP29-un prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol çıxış ediblər.

# İƏT ölkəmizdə Təmiz Enerji Mərkəzi yaradır

**İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNİDO) ölkəmizdə Təmiz Enerji Mərkəzi yaradıb. Bakı iqlim konfransı çərçivəsində təsis edilmiş bu mərkəz İqtisadi Əməkdaşlıq Təşkilatı regionuna xidmət göstərəcək. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, tədbirdə çıxış edən energetika naziri Pərviz Şahbazov COP29 çərçivəsində Bakıda təsis edilən ECO-UNIDO Təmiz Enerji Mərkəzini təkcə Azərbaycan üçün deyil, İƏT-in bütün üzv dövlətləri üçün strateji əhəmiyyət kəsb edən bir təşəbbüs kimi dəyərləndirib. Nazir deyib ki, mərkəzin fəaliyyətə başlaması Azərbaycanın və İƏT ölkələrinin enerji sahəsindəki liderlik səylərini daha da gücləndirəcək, regional əməkdaşlığı təşviq edəcək və bərpaolunan enerji mənbələrinə keçidi sürətləndirəcək: "Azərbaycan – Türkiyə – Avropa" və "Mərkəzi Asiya – Azərbaycan" yaşıl enerji dəhlizləri kimi regional enerji şəbəkələrinin inteqrasiyasını təşviq edərək biz İqtisadi Əməkdaşlıq Təşkilatının enerji təhlükəsizliyi və iqlim dəyişikliyinə qarşı mübarizədəki rolunu gücləndiririk, sıfır emissiya məqsədlərinə çatmaq üçün vahid bir strateji platforma yaradırıq".

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Əsəd Məcid Xan isə son dövrdə davamlı enerji keçidinin təşkilatın ümumi enerji gündəminə daxil edilməsindən bəhs edərək BMT-nin Sənaye İnkişafı Təşkilatı ilə birgə Bakı şəhərində Təmiz Enerji Mərkəzinin yaradılmasını bu transformasiya prosesinə təkan verən uğurlu nümunələrdən biri kimi vurğulayıb. Baş katib davamlı enerji gündəminin irəliləyişinin təmin edilməsi və İƏT Təmiz Enerji Mərkəzi üçün resursların cəlb edilməsi istiqamətində davamlı regional dialoqa çağırış edib.

UNIDO baş direktorunun müavini və Texniki Əməkdaşlıq və Davamlı Sənaye İnkişafı İdarəsinin rəhbəri Ciyong Zou İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin iqlim dəyişikliyi və enerji təhlükəsizliyi kimi təcili problemləri həll etmək istiqamətində davamlı öhdəliyini vurğulayıb. O deyib ki, yeni yaradılan mərkəz regionda təmiz enerjiyə keçidi sürətləndirərək innovasiya, əməkdaşlıq və potensialın artırılması mərkəzi kimi fəaliyyət göstərəcək, enerji təhlükəsizliyi və iqlimə davamlılığın inteqrasiyasını təmin edəcək.

Tədbirdə İƏT üzv dövlətlərinin nazirləri, OFID, Əbu Dabi Fondu, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı və Avrasiya İnkişaf Bankı kimi beynəlxalq maliyyə institutları da təmsil olunub.

***XQ***

# COP29-un geosiyasi və siyasi-tarixi əhəmiyyəti




## IV məqalə

**Diplomatiyaya həddən çox arxalanmaq səhv ola bilər. Kifayət qədər vasitə olmadan yalnız gücə arxayın olmaq intihar deməkdir.**

*Henri KİSSİNCER*

### Meqalayihələr və azad ticarət

Azərbaycan regional və regionlararası miqyasda unikal layihələrin təşəbbüskarıdır. Buraya yalnız enerji layihələri daxil deyil. Müxtəlif sferaları əhatə edən və faktiki olaraq "meqalayihə" ("nəhəng layihə") adlanan əməkdaşlıq platformaları meydana gəlmişdir. Özlüyündə bu proses birbaşa iqlim dəyişikliyinə və çox sayda ölkənin harmonik inkişafa nail olmasına aiddir.

Meqalayihələr real olaraq həm proteksionizmi aradan qaldırır, həm də azad ticarət üsulu ilə fərqli inkişaf tempinə malik dövlətlərin tərəqqisini ortaq ritmə gətirir. Məlumdur ki, son illər ABŞ ilə Çin arasında əsas mübarizə məsələlərindən biri iqtisadi və ticari proteksionizmdir. Böyük və güclü dövlətlər idxal və ixraca bir sıra məhdudiyyətlər və süni şərtlər qoymaqla rəqib hesab etdikləri dövlətlərin inkişafına əngəllər yaradırlar. Sadə tərzdə desək, onlar bununla yalnız öz şəxsi maraqlarını təmin etməyə çalışırlar. Bu da, bütövlükdə, dünyada həm inkişafı qeyri-stabil edir, onu fraqmentləşdirir, həm də ümumdünya miqyasında ekoloji mənzərəyə nəzarət etmək imkanı əldən çıxır.

Əgər dünyanın bütün regionları arasında bir-birinə uyğun olan inkişaf dinamikası mövcud olmasa, sözün həqiqi mənasında, ekoloji situasiyanı qalıcı olaraq nəzarətdə saxlamaq imkanı əldən verilmiş olacaq. Eyni zamanda, sağlam ticarət platforması yaradılmayanda ekoloji mühitin qanunsuz yollarla çirkləndirilməsi və deməli, atmosferə zərərli maddələrin atılması sürətlə çoxalır. Qəribə də olsa, hətta ən müasir texnologiyalara əsaslanan və rəqəmsallıqla sıx bağlı olan sahələrdə mühitin çirklənməsi baş verir. Bir sıra hesablamalara görə, elektron tullantılar başqa növ maddələrdən daha sürətlə ətraf mühiti çirkləndirirlər.

Bunlar onu göstərir ki, ticarətin təşkili və onun reallaşması üsulları bütövlükdə ekoloji mühitin tarazlığında və ayrıca, iqlim dəyişikliyində ciddi rol oynayır. Bu bağlılıqda Azərbaycan Prezidentinin "Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib", fikri əhəmiyyətli məna yükünə malikdir.

Hər şeydən əvvəl, aydın olur ki, Azərbaycanın həyata keçirdiyi meqalayihələr Avrasiya məkanını əhatə edir. Bu, çox geniş coğrafi ərazidir və həmin miqyasda ticari əlaqələri ekoloji şərtləri gözləməklə təşkil etmək asan vəzifə deyildir.

Prezident İlham Əliyevin artıq Avrasiyanın enerji və daşımalar yollarının dəyişməsindən bəhs etməsi onu göstərir ki, Azərbaycanın təşəbbüs etdiyi əməkdaşlıq platforması öz müsbət bəhrəsini verməkdədir. Bunun nəticəsi kimi çoxtərəfli əməkdaşlıq formatının qurulması olmuşdur. Beləliklə, Azərbaycan real surətdə ticari körpü rolunu oynayır.

Bakının təşəbbüsü ilə ticari əməkdaşlıq formatı iki funksiyanı paralel yerinə yetirir. Onlardan birincisi çox sayda dövlətin vahid əməkdaşlıq modelinə daxil olmasıdır. İkincisi, bu əməkdaşlıq zamanı ekoloji tarazlıq ciddi şəkildə gözlənilir. Nümunə kimi, bərpaolunan enerji layihələrini göstərə bilərik. Mərkəzi Asiyadan başlayan enerji ixrac marşrutu Azərbaycan vasitəsilə Gürcüstana, oradan da bir istiqamətdə Türkiyəyə, digər istiqamətdə isə Qara dənizdən keçərək Şərqi Avropaya çıxarılır.

Başqa ekoloji təmiz layihələr də geniş ərazidə vahid infrastruktur yaratmağa imkan yaratmışdır. Bu baxımdan COP29 çərçivəsində bərpaolunan, "yaşıl enerji" ilə bağlı Azərbaycan–Qazaxıstan–Özbəkistan strateji tərəfdaşlığı sazişinin imzalanması mühüm hadisədir. Bu formatda Səudiyyə Ərəbistanının bir şirkəti də iştirak edir. Mərkəzi Asiyanın iki böyük dövləti ilə Cənubi Qafqaz "yaşıl enerji inteqrasiyası"na baş vurur. Təbii ki, bu prosesə regionun digər dövlətləri, Türkiyə, Şərqi Avropa, İran, Rusiya və başqa dövlətlər də qatıla bilərlər. Onların hamısını bir yerdə bərpaolunan, ekoloji təmiz, "yaşıl enerji" birləşdirəcək.

Bununla avtomatik olaraq ticarətlə başqa vacib faktorlar inteqrasiya edilmiş olur. Həmin faktorlar nəqliyyat və logistika ilə bağlıdır. Eyni zamanda, bu iki faktor birbaşa rəqəmsallıqla əlaqəlidir. Türk Dövlətləri Təşkilatının son bir ildə informasiya sahəsində imzaladıqları sazişlər göstərir ki, artıq vergi də daxil olmaqla bir sıra sferalarda, məsələn, logistika, yükdaşıma və s. rəqəmsal texnologiyalar tətbiq edilir. Bu da geniş bir ərazidə həm ticari əlaqələri, yükdaşımaları və logistikanı vahid ekoloji təmiz idarəetmə sistemində birləşdirməyə imkan yaradır, həm də davamlı inkişafı təmin edir.

Vurğulanan məqamlar haqqında Azərbaycan Prezidenti bu ilin aprel ayında ADA-da keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" adlı beynəlxalq forumda konkret fikirlər ifadə etmişdir. Dövlət başçısına verilən suallar əməkdaşlığın ticari tərəfi ilə ekoloji tərəfinin uyğunlaşdırılması ilə bağlı olmuşdur. İlham Əliyev bununla bağlı demişdir ki, COP29-un bizə həvalə edilməsinə qədər biz ekoloji problemlərlə ciddi məşğul olduq, iqlim dəyişkənliyinin mənfi fəsadlarını azaltmağa çalışdıq.

Əgər əvvəllər Xəzər dənizi irəliyə gəlir geri çəkilirdisə, indi dəniz yalnız geri çəkilir. Bu da ciddi problemdir. Nəinki ekoloji, həm də kommunikasiya layihələri ilə bağlı problemdir. Bununla bağlı da ətraf mühitin mühafizəsi üçün çox işlər görülür.

Fikirlərinə davam edərək Azərbaycan Prezidenti daha geniş kontekstdə məsələni izah etmişdir. Dövlət başçısı vurğulamışdır: "Bütün bu məsələlər geosiyasət və regional əməkdaşlıq ilə sıx əlaqədardır. Birincisi Azərbaycan həmişə enerji layihələrini siyasətdən ayırmışdır. Lakin, eyni zamanda, onları yalnız müsbət mənada inteqrasiya etmişdir. Bizim bütün enerji layihələrimiz əməkdaşlığa aparır".

Azərbaycanın enerji layihələrinin əməkdaşlığa aparması yalnız regional miqyası əhatə etmir. Eyni zamanda, bir neçə regionda yerləşən dövlətlər arasında əməkdaşlığı inteqrasiya istiqamətinə yönəldir. Məsələn, "Bu gün Cənub Qaz Dəhlizi ilə əhatə olunan ölkələrə nəzər salsanız görərsiniz ki, bu ölkələrin bəziləri arasında münasibətlər heç də yaxşı deyil. Lakin bu layihələr onları birləşdirir. Bu, müştərək maraqdır. Burada uduzan tərəf yoxdur və əslində, enerji sülhə doğru aparır. Tarixdən biz bilirik ki, neft müharibəyə, qan tökülməsinə gətirib çıxarır. İndi isə biz paradiqmanı dəyişirik və hələ ki, buna müvəffəq olmuşuq".

Doğrudan da, Azərbaycanın ticari əməkdaşlıqla nəqliyyat faktorunun münasibətləri baxımından prinsipial mövqeyi bundan ibarətdir. Bakı əməkdaşlıq platforması ilə əsrlərlə davam edən mənfi paradiqmanı dəyişir – müxtəlif regionlarda yerləşən ölkələrin qarşılıqlı faydalı və ekoloji təmiz əməkdaşlığı modelini formalaşdırır. O cümlədən, ticari və nəqliyyat-logistika sferalarının körpü rolunu oynaması üçün geniş imkanlar yaradır.




Prezident İlham Əliyev "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin bir-biri ilə bağlantıları aspektində vurğulamışdı ki, "Azərbaycandan İtaliyayadək uzanan, Cənub Qaz Dəhlizi adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı Ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır".

### COP29-un fəlsəfəsi

COP29 tədbirinin praktiki aspektdə fəlsəfəsinə bu mövzuya həsr etdiyimiz 4 silsilə məqalədə əksini tapmış fikirlərin işığında müəyyən aydınlıq gətirə bilərik. Öncə, onu ifadə edək ki, "COP" ideyasının yaranması XX əsrin 90-cı illərinə gedib çıxır. İlk dəfə olaraq 30 il bundan öncə Ümumdünya Metereoloji Təşkilatı Cenevrə və Torontoda iqlim dəyişməsini müzakirə etmişdir. 1988-ci ildə BMT iqlim dəyişməsi ilə bağlı hökumətlərarası xüsusi qrup yaratmışdır (Intergovernmental Panel on Climate Change, IPCC). 1990-cı ildə qrup mövzunun aktuallığı ilə bağlı məruzə etmişdir.

1992-ci ildə BMT-nin iqlim dəyişməsi ilə bağlı hazırladığı Çərçivə Sazişini Rio-de-Janeyroda (Braziliya) 154 dövlət imzalamışdır. Sonra üzvlərin sayı 198-ə çatmışdır. Bu, təqribən bütün dünya ölkələri deməkdir. Nəhayət, iqlim dəyişməsini öyrənmə və mənfi tendensiyaların qarşısını alma prosesi 1994-cü ildə iqlim haqqında BMT-nin Çərçivə Konvensiyası Tərəfdaşlarının Konfransı (COP) təsis edilmişdir.

Beləliklə, COP-un yaranmasının xüsusi tarixçəsi vardır və demək olar ki, BMT-yə üzv olan ölkələrin hamısını əhatə edən fəaliyyət məqsədi mövcuddur. Həmin məqsəd dünyada iqlim dəyişmələrinin mənfi nəticələrinin aradan qaldırılması üçün dünya dövlətlərinin nəticəverici birgə fəaliyyətini təşkil etməkdən ibarətdir.

Lakin məsələ bundan ibarətdir ki, bu ümumi məqsədə heç də hər bir üzv dövlət konkret nəticəverici fayda verə bilmir. Xüsusilə, XXI əsrin gəlişi ilə siyasi, ideoloji və geosiyasi maraqların toqquşması fonunda, obrazlı desək, iqlim dəyişməsi də siyasiləşmiş, şəxsi ambisiyaların savaş meydanına çevrilmişdir. Belə bir mürəkkəb şəraitdə prakitiki faydası ola biləcək COP təşkil etmək başqa işlərlə yanaşı, həm də onun fəlsəfəsini yeniləşdirməyi tələb edir. Həmin kontekstdə əminliklə deyə bilərik ki, COP29-un fəlsəfəsinin memarı Azərbaycan Prezidenti İlham Əliyevdir.

Dövlət başçısı kimi İlham Əliyev COP29-un Azərbaycanda təşkilini praktiki siyasi-diplomatik fəaliyyəti ilə yanaşı, xarici siyasətin prioritetlərinin ümumi məzmunu və mahiyyəti əsasında həyata keçirdi. Nadir haldır ki, XXI əsrdə müstəqil dövlətin rəhbəri həm ölkənin inkişaf strategiyasının BMT-nin dayanıqlı inkişafın 17 istiqamətinə uyğun müəyyən edib, real həyata keçirsin, həm dövlətin ərazi bütövlüyünü öz gücünə bərpa etsin, həm də regional və regionlararası miqyaslarda sülh təşəbbüskarı olsun! Sonuncu cümlədə əks olunan fikirlərin hər birini sübut edən faktlar kifayət qədərdir.

Azərbaycan Prezidenti yeni enerji strategiyası çərçivəsində ardıcıl olaraq yeni enerji layihələrini Çindən tutmuş, Dardanel boğazına qədər geniş bir məkanda həyata keçirməkdədir. Avropanın 10 ölkəsi ilə strateji tərəfdaş olmağın praktiki təsdiqi olan həmin layihələr çox sayda xalqların rifahına xidmət edir. Bir sıra dövlətlərin enerji təhlükəsizliyi vasitəsilə milli təhlükəsizliklərinin təmininə ciddi töhfələr verir. Burada sülh, əməkdaşlıq və tərəfdaşlıqla ekoloji faktorun bir-birini tamamlaması diqqəti çəkir. Yəni siyasi-doplomatik məharəti ilə Azərbaycanın dövlət başçısı sırf energetik, ticari, nəqliyyat, logistika, informasiya və təhlükəsizlik faktorlarını qarşılıqlı fayda verən müxtəlif sferalara aid layihələrlə üzvi surətdə birləşdirə bilmişdir. Buna görə də İlham Əliyevin tam haqqı vardır ki, desin: "Azərbaycan əsrlərdir davam edən geosiyasi parçalanma paradiqmasını dəyişir", "Azərbaycan regionda tarixi, siyasi və geosiyasi dəyişikliklər edir", "Azərbaycan sülh, əməkdaşlıq, təhlükəsizlik, qarşılıqlı hörmət, suverenliyə sayğı, konstruktiv geosiyasət paradiqmasını yaradır"!




*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

COP29 Baku Azerbaijan COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024 COP29 Baku Azerbaijan

# TDT-nin dünya geosiyasətində rolu artır

**Azərbaycan həm siyasi, həm iqtisadi, həm mədəni baxımdan öz tarixinin növbəti intibah mərhələsini yaşayır. Bir vaxtlar enerji sənayesini, neft-qaz sektorunu inkişaf etdirmək üçün digər dövlətlərdən sərmayə cəlb etməyə çalışan Azərbaycan bu gün güclü maliyyə imkanlarına malik investor dövlətdir. O, yaşıl enerjiyə keçidi təmin etmək üçün müxtəlif layihələrə investisiyalar yatırır.**

Vaxtilə Ermənistan tərəfindən işğal edilmiş əraziləri azad etmək üçün müxtəlif güc mərkəzlərindən dəstək istəyən Azərbaycan dövləti indi özünün bütün ərazisi üzərində qeyd-şərtsiz hökmrandır, ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir. Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonasına çevirir.

Bir zamanlar müxtəlif beynəlxalq təşkilatlara üzv qəbul edilmək üçün aylarla, illərlə növbə gözləyən Azərbaycan bu gün ədalətsizliyi başlıca prinsipinə çevirmiş həmin təşkilatların haqsız istək və tələblərinə boyun əymir, özü isə Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı kimi bir sıra qurumların aparıcı üzvlərindən birinə çevrilmişdir. Ölkəmiz BMT-nin ən nüfuzlu sammitlərindən olan COP29-a evsahibliyi edərək, tədbiri yüksək səviyyədə təşkil etmişdir.




***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin atdığı addımlar, irəli sürdüyü regional və qlobal miqyaslı təşəbbüslər təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının maraqlarına xidmət edir. Azərbaycan dövlətinin çoxəsrlik dövlətçilik ənənələrini yaşatmaqla yanaşı, həm də tariximizdə yeni tipli lider obrazı yaradan İlham Əliyev Türk dünyasından Avropaya yaşıl enerji ixracı ideyasının da müəllifidir.

Onun yeni enerji strategiyasında qarşıya qoyulan başlıca məqsəd təkcə ənənəvi neft-qaz ixracatçısı olan Azərbaycanı yaşıl enerji istehsalçısına və təchizatçısına çevirmək deyildir. İlham Əliyevin enerji diplomatiyası Orta Asiyanın türk dövlətlərini böyük yaşıl enerji istehsalı potensialından istifadə etməyə, istehsal olunan yaşıl enerjini Azərbaycan və Türkiyə əraziləri vasitəsilə Avropaya göndərməyə təşviq edir. Bu prosesdən isə həm Türküstan dövlətləri, həm Türkiyə, həm də Azərbaycan qazanacaqdır. Orta Asiyadan Avropaya uzanan yaşıl enerji xətti layihəsi miqyasına görə indiyə qədər reallaşdırılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Cənub Qaz Dəhlizi kimi layihələri geridə qoyacaqdır. Prezident İlham Əliyev 2024-cü ilin iyulunda keçirilən II Şuşa Qlobal Media Forumundan bu barədə demişdi: "Bizim planlarımız, istədiyimiz həyata keçsə, Özbəkistan və Qazaxıstandan Xəzər dənizindən keçərək Azərbaycana, Gürcüstana, Türkiyə və Rumıniyaya uzanacaq kabel xətti inşa edə bilərik. Yəni bu layihə Cənub Qaz Dəhlizindən də daha böyük layihə olacaq".

***

Azərbaycanın "yaşıl enerji" yolu yeni başlamayıb. Onun tarixi 20 ildən artıqdır. Hələ cənab İlham Əliyevin hakimiyyətə gəlməsindən cəmi 1 il sonra – 2004-cü il oktyabrın 21-də qəbul edilmiş "Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nda müxtəlif tələbatçıların təmiz enerji ilə təchiz edilməsi prioritetlərdən biri kimi müəyyənləşdirilmişdi. Məhz həmin proqramda qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi nəticəsində bərpa olunan enerji mənbələri ilə bağlı vacib enerji infrastrukturu formalaşdırılmışdır.

Bu istiqamətdə səylər 2020-ci ildən sonra xüsusən güclənmişdir. Həmin ildən etibarən Azərbaycan Böyük Britaniyanın BP, Fransanın Total Energies, Çexiyanın "A-Z Czech Engineering" kimi nüfuzlu şirkətləri ilə yaşıl enerji layihələrinin həyata keçirilməsi üçün müzakirələrə, sonrakı illərdə Səudiyyə Ərəbistanının dünyaca məşhur olan "ACWA Power", Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri ilə əməkdaşlığa başlamışdır.

2021-ci ilin fevralında təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinə Azərbaycanı təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməklə bağlı xüsusi bənd daxil edilmişdi. Ölkə ərazisində bərpa olunan enerji istehsalı potensialına malik 8 xüsusi ərazi müəyyənləşdirilmişdir.

Həmin ilin mayında Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji Zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamının icrası ilə bağlı görülən işlər dövlətimizin bu sahəyə verdiyi önəmin göstəricisidir.



Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvan Muxtar Respublikasında da yaşıl enerji zonası yaradılmaqdadır. Bununla bağlı hədəflər "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təfsilatlı tədbirlər planında əksini tapmışdır.

Muxtar respublikada yaşıl enerji zonasının yaradılması təkcə daxili enerji tələbatının ödənilməsinə hesablanmayıb. Yaşıl enerji istehsalı və onun Türkiyə Cümhuriyyəti ərazisi vasitəsilə Avropa bazarına çıxarılması baxımından Naxçıvan unikal imkanlara malikdir.

Azərbaycanın Avropanın yaşıl enerji təchizatçısına çevrilmək yolunda atdığı mühüm addımlardan biri 2023-cü ildə "SOCAR Green"in yaradılması barədə qərarın qəbul edilməsi olmuşdur. Onun yaradılmasında məqsəd Günəş və külək enerjisi layihələrinə, yaşıl hidrogen istehsalına investisiyaların yatırılmasıdır.

***

Türk dünyasından Avropaya yaşıl enerji ixracı ideyası iştirakçı tərəflərin hər biri üçün faydalıdır. İdeyanın reallaşdırılması istiqamətində atılan addımlar həm Türk dünyası, həm Qafqaz, həm də Avropa ölkələrinə fayda gətirəcəkdir.

Bu ideyanın reallaşdırılması istiqamətində mühüm sənədlərdən biri 2022-ci il dekabrın 17-də Buxarest şəhərində imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"dir. Sənəd Azərbaycanda istehsal olunacaq yaşıl enerjinin Avropaya ixracı ilə yanaşı, Qara dəniz sualtı elektrik xəttinin çəkilməsini nəzərdə tutur. Burada həm də Orta Asiya mənşəli yaşıl enerjinin Azərbaycan üzərindən Avropaya ötürülməsi kimi vacib məsələ də vardır.

Yuxarıda da qeyd etdiyim kimi, İlham Əliyevin ideya müəllifi olduğu qlobal layihənin –Avropaya yaşıl enerji xəttinin potensial iştirakçıları arasında Orta Asiyanın qardaş türk dövlətləri də vardır. 2023-cü ilin noyabrında Bakı, Daşkənd və Astana arasında yaşıl enerjinin Avropaya ixracı üçün müştərək müəssisənin yaradılması haqqında razılaşma əldə edilmişdir.

Məhz İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Gürcüstandan Rumıniyaya Qara dəniz vasitəsilə yaşıl enerjini çatdıracaq elektrik xətti əvvəlcə Xəzər dənizinin qərb sahilinə – Bakıya qədər, sonra isə Xəzər dənizinin şərq sahilinə, Qazaxıstana qədər genişləndirilmişdir.

2024-cü ilin mayında Daşkənddə Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin inteqrasiyası sahəsində əməkdaşlıq memorandumu imzalanmışdır. Bu sənəd üç ölkənin yaşıl enerji istehsal etmək və onu Avropaya ixrac etmək istiqamətində atdıqları ən mühüm addımlardan biri kimi qiymətləndirilir. Memorandumda Qazaxıstanda və Özbəkistanda istehsal edilən yaşıl enerjinin Azərbaycana ötürülməsi üçün Xəzər dənizinin dibi ilə və digər ölkələrin əraziləri vasitəsilə yüksək gərginlikli kabel xətlərinin çəkilməsi niyyətləri ifadə edilmişdi.

Enerji sahəsində Özbəkistan və Avropa İttifaqı arasında əməkdaşlıq da son illərdə əhəmiyyətli dərəcədə genişlənməkdədir. Özbəkistanda istehsal olunan yaşıl enerjinin Avropa ölkələrinə ixracı üçün də ən əlverişli marşrut Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən keçir. Türkmənistanın və Qırğızıstanın da Avropa ölkələri ilə enerji sahəsində əlaqələrini inkişaf etdirəcəyi təqdirdə Cənubi Qafqaz marşrutuna ehtiyac duyacağı istisna deyildir.

COP29-da iştirak etmək üçün Azərbaycana gəlmiş Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə keçirdikləri üçtərəfli görüş yaşıl enerji ilə bağlı arzuların, ideyaların artıq reallığa çevrildiyini göstərir. Üç ölkənin dövlət başçılarının "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzalamaları həm Orta Asiya, həm Cənubi Qafqaz, həm də Avropa üçün kifayət qədər ciddi və əhəmiyyətli hadisədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dediyi kimi, bu "saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır".

Qazaxıstan üçün də bu layihə böyük əhəmiyyətə malikdir. Yaşıl enerji dəhlizinin yaradılması Qazaxıstana Avropanın enerji təchizatındakı nüfuzunu qoruyub saxlamağa, qazıntı-karbohidrogen resurslarından asılılığını azaltmağa imkan verə bilər. Heç də təsadüfi deyildir ki, qardaş ölkənin Prezidenti Tokayev sazişin imzalanmasının əhəmiyyətinə toxunarkən demişdir: "Sənəd dövlətlərimizin enerji sistemlərinin inteqrasiyası, habelə ekoloji cəhətdən təmiz enerjinin Avropaya və digər bazarlara çatdırılması üzrə etibarlı dəhlizlərin yaradılmasında yeni imkanlar açır. Yaşıl enerji karbon neytrallığına doğru irəliləyən Qazaxıstan üçün prioritet istiqamətdir. Biz qazıntı resurslarından asılılığımızı azaltmaq, texnoloji yenilikləri inkişaf etdirmək və ekoloji davamlılığımızı dəstəkləyə biləcək infrastruktur yaratmaq üçün fəal işləyirik".

Özbəkistanın isə Avropanın yaşıl enerji təchizatçısına çevrilməsi Qazaxıstan və Azərbaycanla sıx əməkdaşıq olmadan, demək olar ki, mümkünsüzdür. Məhz bu baxımdan Özbəkistan həm türk inteqrasiyasının, həm də yaşıl inteqrasiyanın ən əsas dəstəkçilərindən və iştirakçılarından biri kimi çıxış edir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin sazişin imzalanması mərasimindəki çıxışından aydın olur ki, bərpaolunan enerji təkcə iqtisadi məqsəd deyil. Prezident Mirziyoyev çıxışında vurğulamışdır: "Bu, bizim gələcəyə verdiyimiz töhfədir, gələcək nəsillər qarşısında məsuliyyət hissimizin nəticəsidir. Mən bu layihənin ekoloji əhəmiyyətini xüsusilə qeyd etmək istərdim. Nəql ediləcək enerji külək və Günəş enerjisidir, iqlimə təsiri azaltmağa kömək edəcək bərpaolunan və təmiz mənbədir. Bununla biz Paris Sazişi çərçivəsində iqlimin qorunması üzrə birgə səyləri və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağı dəstəkləyirik. Ölkələrimiz əhəmiyyətli dərəcədə bərpaolunan enerji resurslarına malikdir və qlobal enerji keçidinə mühüm töhfə verə bilər".

***

Enerji layihəsinin reallaşması Cənubi Qafqazın digər ölkələrinə də fayda gətirə bilər. Gürcüstan uzun illər Azərbaycanın enerji resurslarının Avropaya ötürülməsi nəticəsində böyük iqtisadi faydalar əldə etmişdir. İstisna deyildir ki, Azərbaycanın şərtlərini qəbul edəcəyi, türkofobiya xəstəliyindən sağalacağı təqdirdə uzun illər yürütdüyü işğal siyasəti səbəbindən regional layihələrdən kənarda qalmış Ermənistan da Türk dünyası miqyasında yaşıl enerji ilə bağlı həyata keçirilən layihələrdən faydalana bilər. Azərbaycan enerjinin alternativ ixrac marşrutlarından biri kimi Bakı-Qərbi Zəngəzur – Naxçıvan – Türkiyə – Avropa xəttini dəyərləndirə bilər. Lakin bu yalnız Ermənistanın revanşist və işğalçı niyyətlərindən əl çəkməsi, enerji xətlərinin təhlükəsizliyi ilə bağlı üzərinə beynəlxalq öhdəliklər götürməsi şəraitində mümkündür.

***

Aparılan təhlillərdən aydın olur ki, türk inteqrasiya prosesinin yaşıl enerji ixracı məsələləri ilə əlaqələndirilməsi əvvəllər Türk birliyini təhlükə olaraq görən bir çox qüvvələrin neytrallaşdırılmasını təmin edib. Hazırda Türkiyə və Azərbaycanın da iştirakı ilə türk inteqrasiyasına Avropa ölkələrinin, demək olar ki, neytral yanaşması, bunu məqbul bir proses kimi görməsi həm də enerji maraqları ilə bağlıdır. Hesab edilir ki, türk dövlətlərinin enerji sistemlərinin inteqrasiyası Türküstan – Avropa enerji transferində maliyyə xərclərinin əhəmiyyətli dərəcədə azalmasına kömək edə bilər. Qara dəniz elektrik xətti layihəsi gerçəkliyə çevrildikcə Xəzər dənizinin sualtı kabelinin çəkilməsinə də maraq artır. Avropa üçün türk dövlətlərinin, o cümlədən Qazaxıstan və Özbəkistanın enerji infrastrukturuna sərmayə yatırılması daha cəlbedici olur.

Beləliklə, Prezident İlham Əliyevin irəli sürdüyü və bu gün gerçəkliyə çevrilməkdə olan Türk dünyasından Avropaya yaşıl enerji ixracı ideyası həm də türk inteqrasiyasını gücləndirir. Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın Azərbaycanla, Türkiyə ilə əlaqələri sıxlaşır. Türk amili ölkələr arasında əməkdaşlığın inkişafı üçün təbii əsası təşkil edir. Geosiyasi, iqtisadi və milli maraqların üst-üstə düşməsi isə inteqrasiya proseslərinin təbii əsaslarla inkişaf etməsinə şərait yaradır.

***Elnur KƏLBİZADƏ,***
***AMEA Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, fəlsəfə doktoru, dosent***

# COP29 İordaniya mediasında

**İordaniyanın aparıcı media qurumları Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) aid çoxlu sayda xəbərlər və videomateriallar yayımlayıb.**

Azərbaycanın İordaniyadakı səfirliyindən bildiriblər ki, bu ölkənin "Petra" Dövlət İnformasiya Agentliyi, "The Jordan Times", "Al-Rai", "Əd-Dustur", "Ammon News", "Jordan News", "Roya News", "Al-Mamlaka" qəzet və saytlarında, eləcə də "Jordan Tv", "Roya Tv" və "Mamlaka Tv" televiziya kanallarında COP29 ilə bağlı silsilə məqalə və videomateriallar dərc edilib.

Xəbərlərdə COP29 çərçivəsində keçirilən Liderlər Sammitində İordaniya Kralı II Abdullahı təmsil edən Vəliəhd Şahzadə II Əl-Hüseyn bin Abdullahın tədbirdəki çıxışı, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə ətraflı məlumat verilib. Bundan əlavə, COP29-un Bakıda yüksək səviyyədə təşkil edilməsi, iqlim dəyişmələrinə dair danışıqların uğurla nəticələnməsi və COP29-la bağlı təşəbbüslərin dəstəklənməsi ilə bağlı müsbət rəylər oxuculara təqdim olunub. Azərbaycanın dünyanın prioritet qəbul etdiyi yaşıl enerji layihələri ilə bağlı məlumat verilib, ölkəmizin bu sahədə təcrübəsinin dünyaya çatdırılması məsələləri geniş işıqlandırılıb.

Yerli mediada Vəliəhd Şahzadə II Əl-Hüseyn bin Abdullahın COP29-da iştirakı, Azərbaycanın tarixi və turizm imkanları ilə bağlı faktların yer aldığı videoçarxlar da bu ölkə mətbuatında geniş yayılıb.






# Xəzər İqlim və Dayanıqlılıq Mərkəzi yaradıldı




**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "Xəzər dənizi hövzəsi: risklərin qiymətləndirilməsi və aradan qaldırılması" mövzusunda dəyirmi masa müzakirələrində iştirak edib.**








Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC , ADA Universiteti, IDEA İB, "Caspian İntegrated Scientific Network", ABŞ-ın Kaliforniya Universiteti və BMT-nin Ətraf Mühit Proqramının birgə təşkil etdiyi toplantının açılışında çıxış edən Leyla Əliyeva Xəzər dənizinin ətraf mühitinin mühafizəsinin əhəmiyyətini vurğulayıb. İDEA rəhbəri Dünya göllərinin ümumi su ehtiyatlarının 40 faizdən çoxunu təşkil edən Xəzər dənizinin malik olduğu zəngin ekosistem barədə tədbir iştirakçılarına məlumat verilib. Leyla Əliyeva Xəzər dənizində yaşanan problemlərin bir sıra canlıların, o cümlədən suitilər, nərə və qızılbalıqların populyasiyasına təsir etdiyini bildirib.

Heydər Əliyev Fondunun vitse-prezidenti IDEA-nın müvafiq fəaliyyətlərinə, o cümlədən "Zəngin hövzələr", "Bir damcı" layihələri və "Blue Marine Foundation" təşkilatı ilə əməkdaşlıq çərçivəsində Xəzər dənizində yaradılan ilk dənizkənarı mühafizə olunan ərazi seçilmiş Qızılağac Milli Parkı ilə bağlı bir sıra məsələlərə toxunub. Leyla Əliyeva qeyd edib ki, 2011-ci ildən bəri 7 mindən çox könüllünün yardımı ilə sahilyanı ərazilərdən 120 tona yaxın tullantı toplanaraq təkrar emal edilib. O, ətraf mühitin mühafizəsi sahəsində gənclərin rolunu toxunaraq Xəzər dənizinin gələcək nəsillər üçün qorunub saxlanılması üçün gənc mütəxəssislərin yetişdirilməsinin əhəmiyyətini vurğulayıb.

İDEA rəhbəri Xəzər dənizinin nadir ekoloji sisteminin qorunması naminə monitorinq və davamlı təhlillərin aparılmasının vacibliyini qeyd edərək beynəlxalq ekspertlər və tədqiqat mərkəzlərinin nümayəndələrini birgə layihə və təşəbbüslərlə çıxış etməyə çağırıb.

Dəyirmi masada Bakı Limanının baş direktoru Taleh Ziyadov, BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında ölkəmizin daimi nümayəndəsi Qalib İsrafilov, BMT "GRID-Geneva" proqramının rəhbəri Paskal Peduzzi, UCLA Universiteti Ətraf Mühit və Dayanıqlılıq İnstitutunun professoru, "CTrees" layihəsinin rəhbəri Sassan Saatchi, Bakı Limanının eksperti və CASPISNET-in koordinatoru Elnur Səfərov, Nazarbayev Universitetinin professoru Emil Bayramov və Rusiya Elmlər Akademiyası P.Şirşov adına Okeanologiya İnstitutunun professoru Andrey Kostyanoy fikir və mülahizələrini söyləyiblər.

Sonda Xəzər İqlim və Dayanıqlılıq Mərkəzinin yaradılması elan edilib.

***XQ***

**17 Noyabr Milli Dirçəliş Günüdür**

# Dirçəlişdən Zəfərə



*(əvvəli 1-ci səhifədə)*

1. Azərbaycan hökuməti iqtisadi əlaqələri kəsəcəyi haqqında Ermənistana qəti xəbərdarlıq etməlidir. Televiziya birbaşa canlı yayımla verəcək ki, Topxanada nə işlər görülür.

2. Ağdam şəhərində qadağa saatı 24 saata ləğv edilməlidir.

3. Dağlıq Qarabağ Muxtar Vilayətində partiya və sovet orqanları buraxılmalıdır. Orada Azərbaycanın hüquqi, siyasi və iqtisadi normaları bərpa olunmalıdır.

4. Noyabrda açılan sessiyada iştirak edəcək SSRİ Ali Sovetinin 63 deputatı bu haqda məlumat verməlidir. Əks halda onların Azərbaycana qayıtması məqsədəuyğun deyil.

5. Burada oturub gecələmək şərtilə 24 saata şərtimizə əməl olunmasa nümayiş qeyri-müəyyən vaxtadək uzanacaq.

1988-ci il noyabrın 17-dən xalq Azadlıq meydanından illərlə ürəyində saxladığı həqiqətləri püskürdü. Hərəkat dekabrın 5-nə kimi davam etdi.

70 illik sovet dönəmində Zəngəzurun böyük bir hissəsi Azərbaycandan alınıb ermənilərə verildi. Nəticədə Naxçıvanın Azərbaycanın digər rayonları ilə əlaqəsi kəsildi, Qarabağda erməni separatizmini gücləndirmək üçün muxtar qurum yaradıldı. 1948–1953-cü illərdə Qərbi Azərbaycandan on minlərlə azərbaycanlı öz dədə-baba yurdlarından deportasiya edildi.

İndi münaqişənin səbəbi DQMV-nin Azərbaycanın tərkibinə daxil olması faktı ilə izah edilir və bu, "tarixi səhv" kimi qələmə verilir. Ermənistan SSR Elmlər Akademiyasının müxbir üzvü Q. Avetisyan Azərbaycanın hüdudları daxilində Dağlıq Qarabağa muxtariyyət elan edilməsinin "1921-ci ildə Stalinin yol verdiyi "volyuntarizm" kimi səciyyələndirir. Erməni mətbuatında dərc olunan yazılarda DQMV məsələsinin həllində Stalinin "xüsusi" rolunu heç olmasa dolayı şəkildə təsdiq edə bilən bircə fakt da gətirilmir, heç bir sənədin adı çəkilmir, şahid ifadəsi verilmir. Bu məqsədlə hadisələrin ilk dövründəki məqalələrdə müəlliflər aşkar saxtakarlığa əl ataraq, qərarın qəbul edildiyi gün ərəfəsində Stalinin "qəfildən" gəlib çıxdığını və əvvəlki qərarı dəyişdirməyə məcbur etdiyini bildirirdilər. Sonrakı yazılarda onlar özləri də bu yeganə "dəlildən" imtina etməyə məcbur olmuşlar. Hərçənd, Stalinin bu məsələdə xüsusi rolundan yenə də ağızdolusu danışılır. Şübhəsiz, bu, Stalin irsinin ölkədə güclənən tənqidindən onların açıq-aşkar öz xeyirlərinə istifadə etmək ümidi ilə bağlıdır.

"Tarixi səhv" barədə haray-həşir salan bir çox məqalə müəllifləri tarixini saxtalaşdırdıqları Dağlıq Qarabağı "qədim erməni torpağı" kimi təqdim edirlər. Halbuki bütün elmi dəlillərə görə bu, qətiyyən belə deyildir. Şahidlərin iddia etdiyi sənədlər əsasında təsdiq olunmuş fakta görə ermənilərin bu torpağa kütləvi surətdə köçürülməsi əsasən XIX əsrə– Rusiya–İran və Rusiya–Türkiyə müharibələrindən sonrakı dövrə təsadüf edir. Həmin məsələ ilə əlaqədar saysız-hesabsız mənbələr və faktlar vardır. Lakin problemin mahiyyəti heç də bunda deyildir ki, Dağlıq Qarabağ eramızdan əvvəl və ya bizim eranın hansı əsrində kimə məxsus olmuşdur. Bu gün tarixin təkərini geri döndərməyə, qədim və orta əsr sərhədlərini bərpa etməyə heç kəsin haqqı yoxdur.

Sovet dönəmində ermənilər xalqımıza qarşı hər cür böhtanlar yaydığı halda, Azərbaycan tərəfi xalqlar dostluğunu tərənnüm edir, Azərbaycan xalqına düşmən kəsilən Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunasını tərifləyirdi.

Dağlıq Qarabağ hadisələri üçün zəmin "hazırlamış" elə amillər kompleksi vardır ki, onların qarşılıqlı təsiri hadisələrin bu qədər dramatik gərginlik və fövqəladə şəkil almasına gətirib çıxarmışdır. Həmin amillər əsasən aşağıdakılardır:

Ermənistan–Azərbaycan münasibətləri son yüzillikdə o qədər də hamar olmamışdır. Əsrin əvvəllərində–inqilabi yüksəliş dövründə iki xalq arasına dəfələrlə milli nifaq salınaraq, silahlı toqquşmalar törədilmişdir. Minlərlə günahsız adamın bu fitnəkarlığın qurbanı olması, şübhəsiz, xalqların tarixi yaddaşında iz buraxmaya bilməzdi. Türkiyədə baş vermiş hadisələr də erməni ziyalılarının bir qisminin cidd-cəhdi ilə qəsdən Azərbaycan xalqının da ayağına yazılmışdı. Onu da deyək ki, adətən, ermənilər azərbaycanlılarla türkləri eyniləşdirir, onları bir xalq sayırlar. Beləliklə, erməni xalqının təsəvvüründə "düşmən azərbaycanlı" obrazını formalaşdırmaq üçün lazımi bəhanə tapılmış və bu bəhanə beynəlmiləl tərbiyə işinin, millətlərarası münasibətlərin ciddi deformasiyaya uğradığı, ideoloji aşınmaya məruz qaldığı durğunluq illərində erməni xalqının müəyyən hissəsinin beyninə yeridilmişdir. Məhz həmin illərdə nəşr olunan kitab və məqalələrdə Azərbaycan xalqının ünvanına təhqiramiz böhtanlar söylənilirdi. Z. Balayanın bədnam "Ocaq" kitabı bu mənada xüsusilə fərqlənir. XX əsrin əvvəllərində Azərbaycanın dinc əhalisini vəhşicəsinə qırmış cəllad Andraniki bu gün milli qəhrəman kimi qələmə verməyə başlamışlar.

1980-ci illərin sonlarında Sovet dövləti süqut edərkən ermənilərə dəyər verən dünya Azərbaycanın haqqını tanımır və hayların yalançı göz yaşlarına inanırdılar. Erməni lobbisi və erməni diasporu Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək üçün ilk xeyir-duanı sovet rəhbərliyindən aldılar.Halbuki, Azərbaycan hakimiyyəti öz xalqının iradəsinin əksinə olaraq, bütün ümidini Moskvaya bağlayırdı. 17 noyabr bütün xalqı öz ətrafında birləşdirdiyi halda, yerli hakimiyyət nə xalqı, nə də onun tələblərini yaxına buraxmadı. Amma on minlərlə azərbaycanlı daşıdığı vəzifəsindən asılı olmayaraq, Azadlıq meydanına gedir və həmrəylik nümayiş etdirirdi. Ədalət naminə qeyd etmək lazımdır ki, o zaman "Kommunist" qəzetinin əməkdaşları Azərbaycan xalqının iradəsini ətraflı şəkildə işıqlandırmağa müvəffəq olmuşlar.

Hadisələr ərəfəsində mərkəzi mətbuatda regiondakı rüşvətxor bürokratiyanın fəaliyyəti ilə bağlı tənqidi fikirlər söylənmiş, belə adamların adını açıq deməyə cəhdlər göstərilmişdir. Həmin adamlar vəzifə kreslolarını və imtiyazlarını qorumaq, cinayətkar əməllərinə görə qanun qarşısında cavab verməkdən yaxalarını kənara çəkmək üçün öz xalqının milli hissləri ilə oynayırdılar.

Lakin bizdən fərqli olaraq erməni hakimiyyəti və erməni ziyalıları Azərbaycana qarşı ərazi iddiası məsələsində birləşə bildilər.

Çox təəssüf ki, Azərbaycanın milli demokratik ziyalıları Azərbaycan hakimiyyəti tərəfindən müdafiə olunmadı, qəbul edilmədi. Yəni, ədalətsiz erməni tərəfi birləşə bildi, öz haqlarını müdafiə edən Azərbaycan isə daxildən birləşə bilmədi.

17 noyabr xalqımızın tarixində ibrətli bir hadisədir. Çünki xalqımız mənfur düşmənə qarşı birləşməyin yollarını ortaya qoydu. 17 noyabr Azadlıq meydanında milyonların gücünü nümayiş etdirdi. Çox təəssüflər olsun, iqtidar bu gücü özü üçün rəqib gördü. Bütün bunlar keçdiyimiz tarixi yoldur, həm də acı tarixi yol. Bu tarixin nəticəsi olaraq Azərbaycan Birinci Qarabağ müharibəsində məğlubiyyətlə qarşılaşdı, torpaqlarımızın 20 faizi düşmən tərəfindən işğal olundu.

Amma illər keçdi, Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında "Dəmir yumruq" şəklində birləşdirildi və 44 günlük Vətən müharibəsi və lokal xarakterli anti terror tədbirləri ilə düşməni darmadağın etdi, öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdi.

Həmin gündən başlanan Dirçəliş on illər sonra möhtəşəm Zəfərə çevrildi.

***Anar İSGƏNDƏROV,***
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri,***
***tarix elmləri doktoru, professor***

# Bakı təntənələri turistləri heyran qoyur

**Bir neçə gündür ki, Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) 29-cu Tərəflər Konfransı işə başlayıb. Tədbir ilə əlaqədar ölkəyə gələn turistlərin sayı da xeyli artıb. Qonaqlar təkcə tədbirdə iştirak etmir, həm də respublikanın milli-mənəvi dəyərlərinə - musiqi və mətbəxə böyük maraq göstərirlər.**

Ruandalı **Bright Ntare** XQ-yə müsahibəsində COP29-da iştirak etmək üçün Azərbaycana gəldiyini dedi. Artıq 1 həftədir ki, Bakıdadır:



– İqlim dəyişiklikləri ilə məşğul oluram. Bu mənim vəzifəmdir. Konfrans dünyamız üçün mühüm önəm daşıyır. Heç birimiz iqlim dəyişikliyinin dəhşətli fəsadlarından sığortalanmamışıq. Bu gün Afrika ölkələri iqlim dəyişikliklərinə görə ən çox əziyyət çəkənlər sırasındadır. Bakıda bu nüfuzlu sammitdə mühüm qərarlar qəbul etdik. Yerin orta temperaturu və hava şəraitinin uzunmüddətli dəyişməsi dünyanı narahat edir. Gələcək onilliklərdə vəziyyətin daha da pisləşəcəyi ehtimalı olsa da, elm adamları təcili tədbirlərin iqlim dəyişikliyinin ən pis təsirlərini məhdudlaşdıra biləcəyini düşünürlər.

Bakıda ilk dəfə olduğunu bildirən afrikalı qonaq şəhərimizin onu heyran etdiyini dedi. O qeyd etdi ki, Bakı gözəlliyi ilə yanaşı, təmizliyi ilə də diqqət çəkir:

– Parklar, xiyabanlar şəhərə xüsusi gözəllik verir. Yol kənarlarında əkilmiş ağaclar diqqətimi çəkdi. Sevindirici haldır ki, yeni ağaclar, kollar əkilir. Bu, ətraf mühitin qorunması üçün çox vacibdir.

Hollandiyalı **Markku Jaatinen** təbiəti çox sevir. O, bizimlə söhbətində bildirdi ki, Azərbaycanda da ətraf mühitin qorunması diqqətə layiqdir.



– Azərbaycan ilə bağlı məlumatlı idim. Pilotam və səfər etməyi xoşlayıram. Azərbaycan maraq göstərdiyim ölkələrdən biridir. Azərbaycanın iqlimi rəngarəngliyi ilə fərqlənir. Bu əsrarəngiz müxtəliflik, həm də turistləri özünə cəlb edir. Ölkənizdə qış mülayim keçir. Yay da o qədər də isti olmur. Əsl yaşamalı yerdir. Elə insanları da mülayim təbiətlidir.

Yeməkləriniz fərqli və çoxçeşidlidir. Hansı yeməyin dadına baxıramsa, xoşuma gəlir. Kabablar xüsusilə yaxşı hazırlanır. Restoran və kafelərdə təmizliyə xüsusi diqqət yetirilir.

Bakıda gəzməli, görməli yerlər çoxdur. Şəhərdə gəzmək çox rahatdır. İnsanlar mehribandırlar. Köməyə ehtiyac duydunsa, o saat yardım əllərini uzadırlar.

Burada ətraf mühitin qorunmasına xüsusi diqqət yetirilir. Bakıda yüksək səviyyədə keçirilən COP29 bunun bariz nümunəsidir.

Pakistanlı **Muhtar Han** dünyanın nəbzinin bu günlər Bakıda döyündüyünü bildirdi:



– COP29-la bağlı dünyanın hər yerindən Bakıya qonaqlar gəlib. Konfrans iştirakçıları iqlim dəyişikliklərinin yaratdığı fəsadların aradan qaldırılması ilə bağlı məsələlərin həlli üçün ciddi addımlar atmağı planlaşdırırlar. Bu günlər hamımız böyük narahatlıq keçiririk. İstəyirik ki, iqlim böhranının yaratdığı təhlükələrlə bağlı əməli işlər görülsün. Qəbul edilən qərarlar kağız üzərində qalmasın.

COP bayramı ekologiyamızın müdafiəsinə yönəlmiş beynəlxalq konfransdır. Dünya gələcək nəsillər üçün təmiz, təhlükəsiz enerji irsi yaradır. Belə konfransın Bakıda keçirilməsi təqdirəlayiqdir. Çünki Azərbaycan ekoloji problemlərin həllində müəyyən məsuliyyəti öz üzərinə götürə bilir. Ölkənizin təbiəti, yaşıllıqlar zövqümüzcədir.

Rusiyalı **Yekaterina Krylova** ilk dəfədir Azərbaycana gəlib. Dedi ki, burada olduğu 2 həftə ərzində şəhərin görməli yerlərini gəzib:



– Azərbaycan irimiqyaslı tədbirlərə yüksək səviyyədə evsahibliyi edir. COP29-a hazırlıq tədbirləri də təqdirəlayiqdir. Hər şey əladır. Demək olar ki, idealdır. Bu mötəbər tədbirdə dünyanın hər yerindən çoxlu nümayəndə heyəti gəlib. Mövzu müasir dövr üçün çox vacibdir.

Aydındır ki, iqlim böhranı sərhəd tanımır, hamımıza təsir edir. Bu səbəbdən Bakıda keçirilən Birləşmiş Millətlər Təşkilatının COP29 konfransına böyük maraq var. Çünki konfransın əsas gündəliyi xüsusilə həssas ölkələr üçün iqlim dəyişikliyi ilə mübarizə məqsədilə lazımi maliyyənin necə təmin edilməsidir. Regionda təbii fəlakətlərlə effektiv mübarizə aparmaq üçün əməkdaşlıq zəruridir. Bu baxımdan ekoloji problemlərdən qorunmaq üçün dünya ölkələri həmrəy olmalıdırlar.

Azərbaycanda olduğum müddətdə muzeyləri gəzdim. Qədim xalçaçılıq sənəti ilə bağlı çoxlu məlumat topladım. Regionlara da səfər etmək fürsətini qaçırmadım. Gəncə şəhərində və Quba rayonunda da oldum.

**Abdullah Saleh Samed** COP29-da iştirak etmək üçün Dubaydan gəlib. Özünün İordaniyadan olduğunu deyən logistika üzrə mütəxəssis Bakının COP29-a yüksək səviyyədə hazırlaşdığını dedi:



– Bu mötəbər konfransda müzakirə edilən məsələlər dünyanın diqqət mərkəzindədir. Mən də tədbirdə iştirak edəcəyəm. Bu gün bəşəriyyəti ən çox narahat edən problemlərdən biri iqlim dəyişmələridir. İqlim böhranı təhlükəsini yaradan amillər, onunla mübarizə aparmaq yolları araşdırılır. Bu tədbir iqlim fəaliyyətində Azərbaycanın qlobal əməkdaşlıq üçün yüksək standartlar müəyyən etmək səylərini əks etdirir. İnanırıq ki, COP29 dünya üçün böyük töhfələr verə bilər.

Qonaq Bakı ilə bağlı xoş təəssüratlarını da bildirdi:

– İndiyədək 14 ölkədə olmuşam. Ölkəniz, paytaxt Bakı xüsusilə xoşuma gəldi. Şəhər təhlükəsiz və çox gözəldir. “Dənizkənarı Bulvar”, “Köhnə şəhər”, “Ağ şəhər” və digər yerlər möhtəşəmdir. Xalqınız qonaqpərvər və mehribandır. Bir sözlə, Azərbaycanda olmaqdan xoşbəxtik. Memarlıq baxımından çoxsaylı görməli yerləri olan Bakı sanki “Şərqin Parisi”dir. Tarixi abidələr, çoxmədəniyyətli mühit və yaşıl parklar gözlərimdən yayınmır. Alış-veriş mərkəzlərindən xeyli müxtəlif əl işləri və suvenirlər almışam. Paytaxtınızın hər küçəsində, hər yerində COP29 abu-havası var.

*LeylQ URBANOVA,*
*Vüsalə ƏLİYEVA,*
*Rizvan FİKRƏTOĞLU,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

# “Yaşıl zona”da “yaşıl dünya” yürüşləri

**Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflərin Konfransının 29-cu sessiyasının altıncı günündə müxtəlif yerli və beynəlxalq təşkilatlar Mavi və Yaşıl Zonada fəaliyyətlərini davam etdiriblər. Yaşıl zonada da eyni aktivlik müşahidə olunur. Burada müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, media işçiləri, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının bir araya gələrək ünsiyyət qurduğu məkandır.**



Yaşıl Zonada ziyarətçilər arasında Türkiyə Respublikasının Azərbaycandakı səfiri Cahit Bağçı XQ-ə qısa müsahibəsində bildirdi ki, bu gün Azərbaycan yüksək təşkilatçılıq keyfiyyətlərinə əsaslanaraq böyük beynəlxalq tədbirə evsahibliyi edir:

– Bu baxımdan qardaş Azərbaycanın COP29 sammitini ən yaxşı şəkildə keçirdi. Biz COP29-u Azərbaycanı daha da gücləndirəcək qlobal tədbir kimi görürük. Türkiyə olaraq bu tədbirdə ən yüksək səviyyədə iştirak edirik.

Hesab edirəm ki, həm iqlim dəyişikliyi, həm də onun təsirləri ilə mübarizə aparmaq üçün səylərimizi davam etdirməyimiz çox vacibdir. Buna görə də, COP konfransları kimi müntəzəm tədbirlər tərəqqini ölçmək və hər kəsə bunun əsas məsələlərindən biri olduğunu xatırlatmaq üçün vacibdir.

COP29 qlobal səviyyədə izlənilən bir tədbirdir, həmin tədbir zamanı müxtəlif məsələlər dünya ictimaiyyətinin diqqət mərkəzində olur. COP29 iştirakçıları ətraf mühitə xüsusi diqqət yetirməklə yeni əhəmiyyətli enerji layihələrinin həyata keçirilməsi mövzusuna toxunurlar ki, bu da çox əhəmiyyətlidir. Əsas odur ki, qlobal həmrəylik, yaşıl dünya uğrunda mübarizədə ümumi səy göstərilir və buna görə də deyə bilərik ki, konfrans çox böyük uğurla keçir”.

Burundini təmsil edən **Nkurunziza Jadot** COP29-nun hər kəsin xatirəsində qalacağına inandığını bildirdi. Onun sözlərinə görə, ölkələrin bir araya gələrək qlobal problemləri həll etməyə çalışmaları vacibdir:

– Beynəlxalq əməkdaşlıq olmasa, dünyada ekoloji vəziyyət daha da pisləşəcək. Böhran sərhəd tanımır, nəticələr bütün ölkələrə təsir edir. Artıq bu gün bəşəriyyət ciddi təbii fəlakətlərlə üz-üzədir. İqlim dəyişmələrindən Afrika ölkələrə də ciddi əziyyət çəkir. Kənd təsərrüfatı sektorunda iqlim dəyişikliyi səbəbindən ciddi itkilər qeydə alınır və qarşıdakı illərdə zərərin miqyası arta bilər. Buna görə də hamının yaşıl dünyamızı qorumağa çalışmalı və təxirəsalınmaz qərarlar qəbul etməliyik. Bu mənada Bakı keçirilən COP29-un əhəmiyyəti yüksəkdir.

*Səbuhi MƏMMƏDOV,*
*Elşən AĞALAR (foto)*
*XQ*

# COP30 Bakıdan dərs alır

**COP30-un nailiyyəti COP29-un uğurundan asılıdır. İqlim maliyyəsi üçün dövlət maliyyəsi çox vacibdir. Dövlət maliyyəsindən əlavə, özəl mənbələrin vəsaitlərinin cəlb edilməsinə ehtiyac var. Lakin bu vəsaitləri cəlb etmək üçün dövlət tərəfindən güclü dəstək olmalıdır. Onların biri digərini əvəz etmir, hər ikisinə ehtiyacımız var.**




Braziliyanın iqlim dəyişikliyi üzrə katibi Ana Toni bu fikirləri COP29 çərçivəsində keçirilən mətbuat konfransında səsləndirib.

O bildirib ki, ölkəsi COP29-a milli səviyyədə müəyyən edilmiş ambisiyalı öhdəliklərlə gəlib və yüksək ambisiyalı iqlim hədəfləri ilə bağlı müzakirələrdə digər ölkələrin də iştirakı arzu olunur.

A.Toni, həmçinin COP30-a gedən yolda COP29 Sədrliyi ilə uğurlu əməkdaşlıq etdiklərini diqqətə çatdırıb.

*XQ*

# COP29 qlobal iqlim platformasıdır

**İqlim dəyişikliyi ilə mübarizə təkcə ekoloji bir problem deyil, həm də mənəvi öhdəlikdir. İqlim dəyişikliyi ilə mübarizə yalnız dövlətlərin deyil, hər bir fərdin, hər bir cəmiyyətin və bütün dövlətlərin birgə vəzifəsi olmalıdır. Azərbaycan da bu sahədə qlobal səyləri dəstəkləyir, iqlim ədalətinə nail olmaq və ədalətli həllər tapmaq üçün beynəlxalq konsensusun əldə edilməsinə töhfə verir. Bu baxımdan COP29 ölkələr arasında həmrəyliyi gücləndirmək üçün qlobal səviyyədə bir platformadır.**

Bu gün dünya ölkələrinin və onların liderlərinin əsas öhdəliklərindən biri dayanıqlı inkişaf konsepsiyalarına üstünlük verərək bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atmaqdır. Bəşəriyyətin gələcəyi üçün nəzərdə tutulan strategiyalar qlobal problemlərin həllində ən effektiv vasitələrdir. Lakin bu hədəflərə çatmaq heç də asan deyil, çünki dünyanın müxtəlif bölgələrində problemlər fərqli şəkildə özünü göstərir və təxirəsalınmaz tədbirlər tələb edir. COP29-un Bakıda keçirilməsi məhz bu baxımdan böyük əhəmiyyət daşıyır.

Dünyanın 196 ölkəsindən olan 72 min nəfərin iştirakı ilə keçirilən COP29 iqlim problemlərinin həllində unikal yanaşmalar ortaya qoyur. Azərbaycanın bu tədbirə evsahibliyi etməsi, onun iqlim dəyişikliyi ilə qlobal mübarizədəki prinsipial mövqeyini və beynəlxalq səviyyədə artan nüfuzunu göstərir. Azərbaycanın qlobal iqlim siyasətində fəal iştirakı onu Qərb və digər qlobal güclərlə dayanıqlı enerji təhlükəsizliyi və ekoloji əməkdaşlıq sahələrində mühüm tərəfdaşa çevirir. Bu yanaşma, həm də ölkəmizə iqtisadi dividendlər gətirməklə yanaşı, onun regionun enerji xəritəsində strateji mövqeyini möhkəmləndirir.

Noyabrın 12-də COP29-un Liderlər Sammitində Prezident İlham Əliyev çıxış edərək Azərbaycanın qlobal səylərə verdiyi dəstəyin əhəmiyyətini bir daha vurğuladı. Azərbaycanın COP29-a evsahibliyi etməsi, ölkəmizə hörmət və beynəlxalq arenada fəal rolunun yüksək qiymətləndirilməsidir. Şimal, Cənub, Qərb və Şərqin qovuşduğu bir məkanda yerləşən ölkəmiz enerji, mədəniyyət və daşımalar sahəsində müxtəlif beynəlxalq tərəfdaşlarla geniş əlaqələr qurur. Sammitin ilk günü dünya ölkələri karbon krediti bazarı üçün BMT-nin yeni qaydalarını qəbul edərək dayanıqlı inkişaf məqsədlərinə çatmaq üçün yeni bir səhifə açdılar.




COP29 Azərbaycan üçün təkcə bir iqlim tədbiri deyil, gələcək üçün dayanıqlı və innovativ enerji strategiyalarını inkişaf etdirmək və ölkəmizin beynəlxalq mövqeyini daha da gücləndirmək üçün bir fürsətdir.

Məlum olduğu kimi, son illər Azərbaycan bərpaolunan enerji mənbələrinin potensialını inkişaf etdirməyə xüsusi diqqət göstərir. Xüsusilə külək və günəş enerjisindən istifadənin genişləndirilməsi daxili ehtiyacları ödəməklə yanaşı, regionun enerjiyə olan tələbatını dayanıqlı şəkildə qarşılamağa imkan yaradır.

COP29 həm dövlət, həm də özəl sektor üçün “yaşıl” iqtisadiyyatın inkişafını sürətləndirmək və innovasiyaların genişləndirilməsi istiqamətində geniş imkanlar açır. Eyni zamanda, bu mühüm iqlim tədbiri Azərbaycanın xarici sərmayə üçün açıq və müasir texnologiyaların tətbiqi ilə yenilənə bilən enerji sektorunu inkişaf etdirməsinə böyük töhfə verəcək.

COP29-un əsas prinsiplərindən biri də inklüzivlikdir. Bu tədbirdə hər kəsin səsinin eşidilməsi, xüsusilə həssas xalqların və neokolonializmdən əziyyət çəkən ölkələrin mənafelərinin qorunması prioritetdir. Azərbaycan, Kiçik ada dövlətlərinin və iqlim dəyişikliyindən ən çox təsirlənən icmaların COP29-da fəal iştirakına xüsusi diqqət yetirir.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü rolunu oynamağa çalışır. COP29 vasitəsilə Azərbaycan, qitələrdən olan dövlətlər arasında əlaqələrin gücləndirilməsi və qarşılıqlı anlaşmanın təmin olunması istiqamətində səylər göstərir. Bu da ölkəmizi həm ekoloji, həm də geosiyasi mənada qlobal səviyyədə əhəmiyyətli mövqeyə yüksəldir.

*Hüseyn İMANOV,*
*Naxçıvan Dövlət Universitetinin müəllimi*

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Bakı Dialoqu Təşəbbüsünə start verildi



(əvvəli 1-ci səhifədə)

İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxışında bu təşəbbüsün inkişaf etməkdə olan ölkələrə münasibətdə ticarət yönümlü iqlim siyasətinin təşviqi baxımından önəmini vurğulayıb. Nazir Bakı Dialoqu Təşəbbüsünün iqlim maliyyəsi və ticarət üzrə bacarıqların artırılması istiqamətində birgə fəaliyyət və birbaşa xarici investisiyaların cəlbi üçün səmərəli dialoq olacağına əminliyini bildirib. Qeyd olunub ki, yeni təşəbbüs qlobal yaşıl və ədalətli keçidi gücləndirmək məqsədilə beynəlxalq səylər üçün uğurlu institusional tərəfdaşlığın inkişafına təkan verəcək. Tədbirdə kiçik və orta müəssisələrin yaşıl keçidi üzrə Bakı İqlim Koalisiyası Bəyannaməsinin tərəflərin qoşulması üçün açıq olduğu elan edilib.

Tədbirdə, həmçinin BMT-nin Ticarət və İnkişaf Təşkilatının baş katibi Rebeka Qrinspan və BMT-nin İnkişaf Proqramının administratoru Axim Ştayner aparıcı tərəfdaşlar kimi açılış nitqi ilə çıxış ediblər. Harvard Universitetinin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzinin baş tədqiqat meneceri Tim Çeston və "Aya Coalition" qurumunun həmtəsisçisi Patrisiya Ellen da Silvanın moderatorluğu ilə keçirilən tədbirdə Ümumdünya Ticarət Təşkilatı baş direktoru Nqozi Okonyo-İveala, Beynəlxalq Ticarət Mərkəzinin icraçı direktoru Pamela Kouk-Hamilton və Beynəlxalq Maliyyə Korporasiyasının idarəedici direktoru Maxtar Diopun çıxışları dinlənilib.

Sessiyada dövlət, özəl sektor, beynəlxalq təşkilatlar, biznes assosiasiyaları, akademik dairələr və maliyyə institutlarının nümayəndələrinin iştirakı ilə iqlim maliyyəsi, investisiya və ticarət siyasətlərini formalaşdırmaq, iqlim məqsədlərinə nail olmaq üçün beynəlxalq əməkdaşlığı gücləndirmək və iqlim fəaliyyətini davamlı inkişafla uyğunlaşdıracaq innovativ yanaşmalar müzakirə edilib. Tədbirdə Mərakeşin, Misirin, Birləşmiş Ərəb Əmirliklərinin, Braziliyanın, Avstraliyanın, Dominikan Respublikasının və digər ölkələrin nazirləri və digər yüksək vəzifəli nümayəndələri çıxış edərək bu təşəbbüsə dəstək bildiriblər.

COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bağlanış nitqi ilə çıxış edərək müzakirələrin məzmununun və təmsilçiliyin genişliyinin iqlim dəyişikliyinin həllinin inkişafı ilə paralel formada əlaqələndirilmiş, çoxsahəli və çoxtərəfli yanaşma tələb etdiyinin göstəricisi olduğunu bildirib, Bakı Dialoqu Təşəbbüsünün təqdim etdiyi qlobal innovativ platformanın əhəmiyyətini vurğulayıb.

İqtisadiyyat Nazirliyinin məlumatına görə, iqlim maliyyəsi, sərmayə və ticarət üzrə Bakı Dialoqu Təşəbbüsü kompleks yanaşmaların inkişafına dəstək olmaq, bilik mübadiləsinə şərait yaratmaq, iqlim sərmayələrini təşviq etmək və dialoq vasitəsilə həll yollarını birgə müəyyənləşdirmək üçün qlobal platforma rolunu oynayacaq. Məlumat və təcrübə mübadiləsinə, koordinasiyaya və digər tərəfdaşlıqlara imkan verəcək bu təşəbbüs, həm də iqlim fəaliyyəti ilə inkişaf məqsədlərinin daha münasib şəkildə uyğunlaşdırılmasını təmin edən konkret iqlim layihələrinin tərtib olunması, strukturlaşdırılması və hazırlanması üzrə proseslərə töhfə verəcək.

Tədbirin sonunda keçmiş, hazırkı və növbəti COP prezidentləri tərəfindən iqlim maliyyəsi, sərmayə və ticarət üzrə Bakı Dialoqu Təşəbbüsü üzrə Birgə Bəyannamə qəbul edilib.

## Füzulidə də günəş elektrik stansiyası tikiləcək

**Füzuli rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib. Baş nazir Əli Əsədov bununla bağlı müvafiq qərarı imzalayıb. Sənədə əsasən, qoyuluş gücü 160 meqavat olan günəş elektrik stansiyasının tikintisi üçün 482 hektar torpaq sahəsi ayrılıb.**



Energetika Nazirliyi sözügedən qərarla müəyyən edilmiş bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli fərmanı ilə təsdiq edilmiş "Bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun olaraq həyata keçirməlidir.

Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 482 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanunda nəzərdə tutulmuş müddətdə Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır. Eyni zamanda, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tikintiyə icazə verdikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün ərzində bu barədə Nazirlər Kabinetinə məlumat verməlidir.




## "Yaşıl iqtisadiyyat" razılaşmaları

**"Azərbaycan İnvestisiya Şirkəti" ASC COP29 çərçivəsində ölkənin yaşıl iqtisadiyyatının gücləndirilməsinə töhfə verən layihələrin həyata keçirilməsi məqsədilə xarici tərəfdaşlarla dayanıqlı inkişaf və innovasiyaların təşviqinə yönəlik mühüm razılaşmalar imzalayıb.**

Azərbaycan İnvestisiya Şirkəti ilə Türkiyənin "Dias Bilişim ve Teknoloji Hizmetleri A.Ş." şirkəti arasında imzalanmış "Depozit idarəetmə sistemi" layihəsi üzrə Anlaşma Memorandumu çərçivəsində ölkəmizdə plastik və şüşə qabların toplanması həyata keçiriləcək. Eyni zamanda, depozit idarəetmə sistemi təşkil olunacaq. Layihə təkrar emalı stimullaşdırmaq və dairəvi iqtisadiyyata töhfə vermək məqsədi daşıyır. Depozit idarəetmə sisteminin tətbiqi ilə Azərbaycanda təkrar emal potensialının əhəmiyyətli dərəcədə artırılması gözlənilir.

İkinci Anlaşma Memorandumu AİŞ-lə Böyük Britaniyanın "Carbonbit Technologies" şirkəti arasında karbon texnologiyalarının inkişafı və kommersiyalaşdırılması sahəsində birgə iş məqsədilə imzalanıb. Layihə ölkəmizdə karbon texnologiyalarının inkişafını hədəfləyir. Müasir karbontutma həllərinə investisiya yatırmaqla Azərbaycan karbon emissiyalarını azaltmağa və iqlim dəyişmələrinə qarşı mübarizəyə töhfələri artıracaq.

Üçüncü Anlaşma Memorandumu isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" və BP-nin törəmə şirkəti "Volts" ilə imzalanıb. Sənəd Azərbaycanda enerji batareyası istehsalı müəssisəsinin yaradılmasına dəstək verilməsini nəzərdə tutur. Bu təşəbbüs ölkənin təmiz enerjiyə keçidini gücləndirmək baxımından önəmli addımdır.

Tədbirdə, həmçinin "Azərbaycan İnvestisiya Şirkəti", "SOCAR Downstream" və "Technip Energies Italy S.P.A" tərəfindən yaradılmış "Ecostar" MMC-nin nizamnaməsi imzalanıb. "Ecostar" MMC "Alterra" piroliz texnologiyasına əsaslanan "Tullantıların monetizasiyası" layihəsinə dair ön mühəndislik layihələndirməsini həyata keçirəcək və plastik tullantı materiallarından istifadə etməklə piroliz yağı istehsal edəcək.

## Sərhəd karbon tənzimlənməsi mexanizmi

**Dünən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində "Sərhəddə karbon tənzimlənməsi mexanizmi" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə beynəlxalq ekspertlər, iqlim maliyyəsi üzrə mütəxəssislər, dövlət qurumlarının nümayəndələri, özəl sektor təmsilçiləri və audit şirkətlərinin əməkdaşları iştirak ediblər.**



Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva bildirib ki, görüşün keçirilməsində əsas məqsəd Avropa İttifaqı tərəfindən təklif edilən və hazırda mərhələli şəkildə tətbiq olunan yeni iqlim siyasəti aləti sərhəddə karbon tənzimlənməsi mexanizminin tələblərini daha dərindən öyrənmək, bu sahədə yarana biləcək çətinlikləri müəyyən etmək və səmərəli hazırlığın təmin edilməsi üçün mümkün həlləri nəzərdən keçirməkdən ibarətdir. O, müzakirələrin qlobal iqlim dəyişikliyi ilə mübarizə və iqtisadi inkişaf arasındakı balansın tapılması baxımından son dərəcəli əhəmiyyətli olduğunu vurğulayıb.

ABŞ-nin Harvard Universitetinin mütəxəssisi İlay Sandlerin moderatorluğu ilə keçirilən dəyirmi masada "Ernst & Young" şirkətinin tərəfdaşı Kasia Klaçinska Lyuis, "PwC" şirkətinin tərəfdaşı Nadya Pikard və digər ekspertlərin təqdimatları və çıxışları dinlənilib.

İştirakçılar sərhəddə karbon tənzimlənməsi mexanizminin biznesin fəaliyyətinə qlobal və milli səviyyədə təsirləri, Avropa İttifaqının bu sahədə qanunvericilik tələbləri ilə bağlı mümkün ssenarilərə dair nəzəri və praktiki məlumatları bölüşüb, istehsalçıların və ixracatçıların bu prosesə hazırlığını müzakirə ediblər. Bildirilib ki, bu mexanizm qlobal iqlim dəyişikliyi ilə mübarizə sahəsində müsbət dəyişikliklərə gətirib çıxara bilər, lakin onun uğurlu tətbiqi qlobal səviyyədə ədalətli yanaşmalardan, davamlı inkişaf və ekoloji ədalətin təmin edilməsindən asılı olacaq.

Dəyirmi masada ekspertlər iştirakçıların suallarını cavablandırıb, mütəxəssis şərhləri verilib.

## COP29 iqlim savaşına yeni məzmun və miqyas gətirdi

**Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev 29-cu iqlim konfransı çərçivəsində danışıqların nəticələri barədə mediaya müsahibəsində bu nüfuzlu sessiyanın davamlı inkişaf və iqlim dəyişikliyi ilə mübarizə sahəsində ən yaxşı təcrübə mübadiləsi platformasına çevrildiyini bildirib. Baş katib konfrans günlərində TDT-yə üzv ölkələrin iqtisadiyyat, kənd təsərrüfatı, urbanizasiya, ətraf mühit və ekologiya nazirlərinin iştirakı ilə iqlim, innovasiya və yaşıl iqtisadiyyat üzrə bir sıra tədbirlərin keçiriləcəyinin planlaşdırıldığını da vurğulayıb.**



K.Ömüralıyevin sözlərinə görə, TDT, həmçinin iqlim dəyişikliyinin yaratdığı təcili çağırışlara cavab olaraq davamlı inkişaf üzrə regional əməkdaşlığı yaxşılaşdırmaq üçün cəsarətli addımlar atır. Bu səylər 2024-cü ilin noyabrında Bişkek Sammitində təşkilatın liderlərinin qəbul etdikləri "Türk Yaşıl Baxışı"nda da qabarıq nəzərə çarpır. Bu istiqamət, eyni zamanda, Türk dünyasında davamlı inkişaf və iqlim fəaliyyətinə dair ortaq öhdəliyi ifadə edir. Təşkilat hazırda ekoloji davamlılıq və rəqəmsal innovasiya sahələrində əməkdaşlığı təşviq etmək üçün İqlim və Yaşıl Rəqəmsal Platformasının yaradılmasını nəzərdən keçirir. Bundan başqa, həssas dağ ərazilərində davamlı inkişafı dəstəkləmək üçün "Dağ İqlimi Dialoqu"nu həyata keçirməyi planlaşdırır.

TDT-nin Baş katibi daha sonra deyib: "Təşkilat öz üzvlərinə bir çox iqtisadi səmərə verir, əməkdaşlığı gücləndirir və inkişaf üçün yeni imkanlar yaradır. Bu, ilk növbədə, ölkələrimiz arasında iqtisadi inteqrasiyanın dərinləşməsi üçün platformadır. TDT-nin əhəmiyyətli üstünlüklərindən biri də onun üzvlərinin strateji coğrafi mövqeyidir. Ölkələrimiz əsas ticarət yollarının kəsişməsində yerləşir və bu, nəqliyyat-logistika dəhlizlərinin inkişafına imkanlar yaradır. TDT ölkələri əhəmiyyətli neft, təbii qaz, kömür və bərpaolunan enerji mənbələrinə görə yüksək enerji potensialına malikdir. Məsələn, Azərbaycan və Qazaxıstan qlobal enerji bazarında mühüm rol oynayan regionda əsas neft və təbii qaz ixracatçılarıdır. Qırğızıstan öz su ehtiyatları sayəsində hidroenergetika sahəsində böyük potensiala malikdir. Özbəkistan Mərkəzi Asiyada ən böyük təbii qaz istehsalçılarından biridir".

Müsahibədə Türkiyənin həm ənənəvi, həm də bərpaolunan enerji mənbələrini, xüsusilə günəş və külək elektrik stansiyalarını fəal şəkildə inkişaf etdirdiyini vurğulayan K.Ömüralıyev qardaş ölkə iqtisadiyyatının dünyanın ən böyük iqtisadiyyatlarından biri olduğunu, eləcə də onun G20 ("Böyük iyirmilik") üzvü statusunu daşımaqla qlobal iqtisadi səhnədə yüksək fəallığını diqqətə çatdırıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# Kosmik liderlərin iqlim sammiti

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a töhfə vermək məqsədilə "Azərkosmos" bir müddət bundan əvvəl "Yaşıl siyasət" sənədini təsdiqləyib. Eyni zamanda, qurumun dır ki, Yer səthini müşahidə edən peyklər mövcud vəziyyətin və proseslərin dəyişmə dinamikasını araşdırmaqda aktual və optimal üsuldur. Peyk resursları böyük, əlçatmaz ərazilərin səmərəli qiymətləndirilməsi üçün maddi xərclər və resurs baxımından optimaldır.

"Azərkosmos" Millətlər Birliyi Təşkilatının (MBT) üzvləri sırasındakı inkişaf etməkdə olan kiçik ada dövlətləri və digər həssas üzv ölkələri ilə iqlimlə bağlı fəaliyyətin gücləndirilməsi istiqamətində də əməkdaşlığı Azərbaycan və MBT-nin birgə imzaladığı memorandum çərçivəsində həyata keçirir.




qlobal iqlim dəyişikliyinin Azərbaycanda təsirinə dair hazırladığı rəqəmsal iqlim platforması ictimaiyyətə təqdim edilib. Platforma "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunan konfransda nümayiş olunub.

İki dildə hazırlanan yeni rəqəmsal platformada iqlim dəyişikliklərinin kosmik təsvirlər əsasında müqayisəli təhlili aparılıb. Platformadakı təhlillər 5 istiqaməti – qar örtüyü və buzlaqlar, su ehtiyatları, quraqlıq və şoranlaşma, kənd təsərrüfatı əraziləri və atmosferin dəyişməsini əhatə edir.

"Azərkosmos"un ölkəmizdə iqlim dəyişikliyinin kosmik monitorinqlər əsasında ilk belə müfəssəl rəqəmsal hesabatı "Azersky" peyki sayəsində hazırlanıb. Kosmik texnologiyaların üstünlüyü onda-

Qurum "Azərkosmos" birliyə üzv olan ölkələrə iqlim dəyişikliyində kosmik texnologiya və coğrafi məlumatlar vasitəsilə təhlillərin aparılması, eləcə də fəaliyyətin qiymətləndirilməsi məqsədilə kompleks proqram hazırlayıb. Proqram çərçivəsində birliyin üzvü olan dövlətlərdə, xüsusilə Karib dənizi regionunda və Sakit okean ölkələrinin ərazilərində peyk görüntülərindən istifadə etməklə quraqlıq səviyyəsinin monitorinqi və quraqlıq riskinin qiymətləndirilməsi, əkin sahələrinin sinifləndirilməsi, meşələrin kompleks monitorinqi, həmçinin metan ($CH_4$) konsentrasiyasının kosmik monitorinqi fəaliyyətləri icra olunacaq.

Hazırda iqlim dəyişikliyinin mənfi təsirlərinin ön cəbhə xəttində olan kiçik ada dövlətlərində iqlimin monitorinqinin ən güclü aləti kosmik həllərdir. Məsələn, kosmik texnologiya ada dövlətlərinin davamlı dolanışıq və iqtisadi inkişafı üçün həyati əhəmiyyət kəsb edən işlərdə rol oynayır. Həmçinin sahil mühafizəsi üçün sahil xətlərinin monitorinqi, okeanda suyun səviyyələrinin monitorinqi, qeyri-qanuni balıq ovuna nəzarət və neft dağılmalarının aşkar edilməsi kimi nümunələri misal göstərmək olar. Kosmik texnologiya əlçatmaz ərazilərdən məlumat əldə etməyi təmin edir. Bu da kiçik ada dövlətlərinin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən aspektdir.

"Azərkosmos"un hazırladığı bu proqram iqlim dəyişikliyinə həssas və kosmosa az və ya heç bir çıxışı olmayan dövlətlərdə Azərbaycanın kosmik təcrübəsini bölüşmək və onların kosmos sahəsində insan kapitalının inkişafına öz töhfəsini verəcək.

# Dövlət Neft Şirkətinin "təmiz" layihəsi

**Azərbaycan Dövlət Neft Şirkətinin törəmə müəssisəsi olan "SOCAR Green"in direktoru Elmir Musayev COP29 çərçivəsində "İstehsaldan daha çox: enerji keçidi məqsədlərinə nail olmaq üçün infrastrukturun yaradılması" adlı tədbirdəki çıxışında adıçəkilən şirkətdə artıq karbonsuzlaşdırma üzrə bir sıra layihələrə başlanıldığını, iqlim konfransının da Bakıda keçirilməsinin bu dəyişikliklərin bir hissəsi olduğunu bildirib.**



Onun sözlərinə görə, keçən ilki COP28-in iştirakçıları Dövlət Neft Şirkətinin karbonsuzlaşdırma üzrə iddialı məqsədləri haqqında məlumat əldə etmişdilər. Bu məqsədlərə 2030-cu ilə qədər səmt qazının müntəzəm olaraq məşəldə yandırılmasına son qoyulması, 2035-ci ilə qədər upstream seqmentində metan emissiyalarının tamamilə aradan qaldırılması və 2030-cu ilə qədər karbon intensivliyinin əhəmiyyətli dərəcədə azaldılması daxildir.

Elmir Musayev bildirib ki, rəhbərlik etdiyi qurum fəaliyyətində karbonsuzlaşdırma ilə bərabər, ölkənin enerji keçidi məqsədlərinə nail olunmasın töhfə verməyi diqqətdə saxlayır: "İki ildən az bir müddətdə biz artıq 1,4 qiqavatt gücündə bərpaolunan enerji layihələri portfelini hazırlamışıq. Məsələn, 1 qiqavat gücündə olan "Meqa" layihəsi çərçivəsində "Total" ilə əməkdaşlıq edirik. Bundan əlavə, BP ilə birlikdə Bakıda neft-qaz terminalının karbonsuzlaşdırılması üzrə fotoelektrik layihə həyata keçiririk. Dövlət Neft Şirkəti Çindən olan tərəfdaşları ilə ümumi gücü 160 meqavatt olan günəş elektrik stansiyası layihəsi üzərində işləyir".

# KOB-lar "yaşıl" zəncirin önəmli həlqəsidir

**Bakıda COP29 çərçivəsində "İqlim dəyişikliyinə dayanıqlı kiçik orta bizneslər" adlı tədbir keçirilib.**




COP29-un iqlim üzrə yüksək səviyyəli lideri Nigar Arpadarai, İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, eləcə də digər özəl və dövlət qurumlarının nümayəndələrinin iştirak etdikləri tədbirdə çıxış edən natiqlər kiçik və orta biznes subyektlərinin "yaşıl keçid"ə qoşulmasının vacibliyini diqqətə çatdırıblar. KOB subyektlərinin nümayəndələri iqlim dəyişikliyi ilə mübarizənin onlar üçün də prioritet olduğunu vurğulayıblar. KOB-ların yaşıl iqtisadiyyata keçməsinin bütün iqtisadiyyata təsir etdiyi diqqətə çatdırılaraq bildirilib ki, bir sıra ölkələrinin iqtisadiyyatlarının 90 faizini təşkil edən sözügedən qurumlar dünyada təchizat zəncirinin əsas hərəkətverici qüvvəsidir.

Qeyd olunub ki, KOB-ların ədalətli keçidin təminatçısı kimi fəaliyyət göstərməsi üçün lazım olan məsuliyyət və tədbirlər təkcə onların özlərinin deyil, həm də daha böyük təşkilatların üzərinə düşür. Tədbirdə, həmçinin iqlim dəyişikliyi ilə mübarizədə KOB-lar arasında əməkdaşlığın artırılması imkanları və onların prosesə daha sıx cəlb edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, COP29-un yüksək səviyyəli çempionu Nigar Arpadarainin başlatdığı iqlim dəyişikliyinə dayanıqlı kiçik orta bizneslər kampaniyası 2024-cü ilin sentyabrında Nyu-York İqlim Həftəsində təqdim olunub. COP29 Fəaliyyət Gündəliyi proqramının bir hissəsi kimi keçirilən bu xüsusi tədbir biznes, maliyyə, akademiya, yerli hökumətlər və şəhərlər, beynəlxalq təşkilatlar və siyasətçiləri bir araya gətirərək KOB-ların sıfır karbonlu və dayanıqlı bir gələcəyə keçid prosesində daha sistemli dəstək olma yollarını araşdırmaq məqsədi daşıyır.

# İstiləşmə və su ehtiyatlarının qorunması

**COP29 çərçivəsində Azərbaycanın BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən hazırlanan "Ətraf mühit üzrə fəaliyyətin icmalı" hesabatının təqdimatında ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov dünya əhalisinin böyük bir hissəsinin su qıtlığından əziyyət çəkdiyini və gələcəkdə bu problemin daha da kəskinləşəcəyinin gözlənildiyini deyib.**



V.Kərimov qeyd edib ki, Azərbaycanda Dövlət Su Komissiyası çərçivəsində su ehtiyatlarının səmərəli istifadəsi, itkilərin azaldılması, yeni su mənbələrinin yaradılması, uçotun təkmilləşdirilməsi, idarəetmənin elektronlaşdırılması və digər istiqamətlərdə genişmiqyaslı tədbirlər həyata keçirilir: "Ölkə Prezidentinin 2024-cü il 10 oktyabr tarixli sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" təsdiq edilib. Milli Strategiyanın icrası su ehtiyatlarının artırılmasını, keyfiyyətli içməli su və suvarma suyu ilə təminatın yaxşılaşdırılmasını, həmin sahədə idarəetmənin müasirləşdirilməsini, habelə beynəlxalq konvensiyaların tələblərinə riayət edilməsi istiqamətində əməkdaşlığın inkişafını nəzərdə tutur".

Yeri gəlmişkən, adıçəkilən Milli Strategiya iqlim dəyişikliyinə qarşı mübarizənin uzunmüddətli dövrdə qlobal miqyasda əsas çağırışlardan biri kimi qəbul edildiyi, Davos İqtisadi Forumunun "Qlobal risklər – 2024" hesabatında uzunmüddətli dövrdə ekstremal hava hadisələri, biomüxtəlifliyin itirilməsi və ekosistemin dağılması əsas risklər qismində diqqətə çatdırılıb, Ümumdünya Meteorologiya Təşkilatının məlumatına əsaslanaraq, növbəti 5 ildə temperatur səviyyəsinin sənayeləşmədən əvvəlki göstəricidən 1,5 C artma ehtimalının çox yüksək olduğu da diqqətə çatdırılıb.

Milli Strategiyada qeyd edilir ki, qarşıdakı illərdə ölkənin su ehtiyatlarında azalmanın davam edəcəyi gözlənilir. Bildirilib ki, Dünya Resursları İnstitutunun son tədqiqatına görə, Azərbaycan 2050-ci ilə qədər su ehtiyatlarının azalması ilə üzləşəcək 164 ölkə arasından 59-cu yerdə qərarlaşıb və orta-yüksək (20–40 faiz su stresi) risk kateqoriyalı ölkə kimi təsnif edilib.

"Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"da Dövlət Statistika Komitəsinin məlumatına əsaslanılaraq bildirilir ki, Azərbaycanda illik orta temperatur xüsusən 1980-ci ildən etibarən artmağa başlayıb və 2023-cü ildə 14,7°C-yə yüksəlib. 1915–2000-ci illərdə temperatur artımı isə illik orta hesabla 0,6°C qeydə alındığı halda, 2000–2020-ci illərdə bu artım 0,8°C-yə bərabər olub. Son 30 ildə illik isti (maksimum temperaturun 35°C-dən yuxarı olduğu) günlərin sayı 10-dan 15-ə artıb.

Temperatur artımı və buxarlanma Xəzər dənizinə axan suyun həcminin azalmasına səbəb olub. Belə ki, 2006-cı ildən etibarən Xəzərdə suyun səviyyəsinin ildə orta hesabla 11 santimetr azalması qeydə alınıb. Eyni zamanda, ölkə ərazisində yağıntıların uzunmüddətli dinamikası ümumilikdə sabit olsa da, son onillikdə cüzi azalma müşahidə edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə yağıntıların orta illik miqdarı 2002–2011-ci illərdəki 512,4 millimetrdən 2012–2023-cü illərdə 438,6 millimetrədək azalıb.

Azərbaycanla yanaşı, Türkiyə, Ermənistan, Gürcüstan və İranda da atmosfer yağıntılarının azalması su ehtiyatının həm transsərhəd, həm də yerli miqyasda azalması ilə nəticələnib.

Növbəti onillikdə Azərbaycan Respublikasında yağıntıların proqnozlaşdırılan səviyyəsi ilə bağlı qeyri-müəyyənlik var. Mövcud qeyri-müəyyənliklər və temperaturun artması su ehtiyatlarının daha çox buxarlanmasına, çay axınlarının azalmasına, buzlaqların sürətlə əriməsinə və nəticədə şirin su ehtiyatlarının azalmasına gətirib çıxara bilər. İl ərzində ardıcıl quru günlərin maksimum sayında müşahidə edilən artım tendensiyası o qədər böyük olmasa da, quraqlıq və su qıtlığı ilə bağlı riskləri artırır.

Hazırda dünya ölkələri iqlim dəyişikliklərinin kəskinləşməsi, su ehtiyatlarının azalması və onun ekoloji sistemə mənfi təsirlərinin getdikcə artması kimi ciddi problemlərlə üzləşib. Son 50 ildə davamlı qlobal iqlim dəyişikliyi, əhalinin sürətli artması, urbanizasiya və sənayeləşmə kimi amillər su ehtiyatlarının səviyyəsinə və keyfiyyətinə mənfi təsir göstərir.

# Ekofəalların səssiz harayı




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) altıncı günündə Bakıda ekofəalların səssiz aksiyası keçirilib. Aksiya zamanı onlar öz mövqelərini sözsüz ifadə edərək iqlim dəyişikliyi ilə mübarizə üzrə maliyyə öhdəliklərinin yerinə yetirilməsini tələb edib, "Pay up" şüarı olan pankart açıblar.**

Etirazçılar, həmçinin qalıq yanacaqların istifadəsinin azaldılmasının vacibliyi haqqında melodiya zümzümə ediblər. Fəallar iqlim təşəbbüslərinin maliyyələşdirilməsinin vacibliyinə, xüsusilə də iqlim böhranının nəticələrindən ən çox əziyyət çəkən inkişaf etməkdə olan ölkələrin dəstəklənməsinə diqqət çəkməyə çalışıblar. Onların çıxışı bütün dünyadan olan iştirakçıları birləşdirən qlobal iqlim ədaləti hərəkatının bir hissəsinə çevrilib.

# İqlim konfransında ESG platforması təqdim edildi

**29-cu iqlim konfransı çərçivəsində ölkəmizin ətraf mühit, sosial məsuliyyət və korporativ idarəetmə, yəni ESG təcrübələri və təşəbbüsləri üzrə vahid onlayn məkanın – ESGhub.az platformasının təqdimatı keçirilib.**

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına görə, platforma COP29-un "Mavi Zona"sında "Elm, Texnologiya və İnnovasiya / Rəqəmsallaşma" Günü çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Beynəlxalq Telekommunikasiya İttifaqı ilə birgə keçirdiyi yüksək səviyyəli "dəyirmi masa"da təqdim olunub.

Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev bildirib: "Bu gün işgüzar dairələr və cəmiyyətlərin dayanıqlı inkişafa və etik dəyərlərə yanaşmasında böyük dəyişikliklərin şahidi oluruq. İqlim dəyişikliyi, sosial bərabərsizlik, dayanıqlı maliyyə, şəffaf idarəetmə ilə bağlı çağırışlar dünyada daha geniş miqyasda qəbul edilir və bu mənada ESG prinsiplərinin və ESG üzrə hesabatlılığın vacibliyi gündən-günə artır. Dövlət–biznes dialoqu çərçivəsində "Azərbaycan Beynəlxalq Bankı" ASC, "Azercell Telecom" MMC və digər maraqlı tərəflərin dəstəyi ilə yaradılan ESG Hub Azərbaycan platformasının istifadəyə verilməsi ilə bu çağırışlara cavab vermək hədəflənir.

Təqdimatda qeyd olunub ki, ESG Hub platforması sadəcə təqdim etdiyi çoxşaxəli resurslar vasitəsilə ESG sahəsində məlumatlılığın artırılmasını hədəfləmir, həm də dövlət və özəl sektorun ESG səylərini birləşdirən netvörkinq platforması kimi davamlı və dayanıqlı gələcəyə töhfə vermək missiyası daşıyır. Bu platforma hər bir təşkilatın öz fəaliyyətinə ESG dəyərlərini daxil edə bilməsinə, uzunmüddətli dayanıqlı inkişafa və gələcək nəsillərə töhfə verməsini şərtləndirəcək.



**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**




# Biomüxtəlifliyin qorunması iqlim savaşının önəmli hədəfidir

**Qlobal istiləşmə nəticəsində təbii zonaların, iqlim qurşaqlarının sərhədləri dəyişir, meşələr təbii şəkildə məhv olur, səhralaşma prosesi baş verir, torpaq eroziyası güclənir, güclü tayfunlar, tornadolar müşahidə edilir. Bunlar həm cəmiyyətə, həm də təbiətə mənfi təsir göstərir və bioloji müxtəlifliyin itirilməsinin əsas hərəkətverici amillərindən birinə çevrilir.**



Azərbaycan Coğrafiya Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universiteti ümumi coğrafiya kafedrasının dosenti Mətanət Əsgərova ilə söhbətimiz də məhz bu barədədir.

– İqlim dəyişmələri bioloji müxtəlifliyin itirilməsinin əsas amillərindən biridir. Ona mikroorqanizmlər, bakteriyalar, mərcan riflərindən tutmuş heyvan və bitki orqanizmləri daxildir. Hazırda dünya üzrə ümumi daxili məhsulunun yarıdan çoxu bioloji müxtəliflikdən asılıdır. 1 milyarddan çox insanın dolanışığı meşələrlə bağlıdır. Biomüxtəlifliyin qorunmasında və suyun təbii yollarla təmizlənməsində mühüm rol oynayan meşə ekosistemi, eyni zamanda, insanları yaşayış təminatı və ərzaq təhlükəsizliyi üçün vacib olan tikinti materialları, yanacaq odunu, göbələk, qoz, giləmeyvə, dərman bitkiləri ilə təmin edir. Meşələr dağlıq ərazilərdə torpağın eroziyaya məruz qalmasının və təhlükəli sürüşmələrin yaranmasının qarşısını alır, eləcə də karbon qazının udulmasında önəmli rol oynayır. Bundan başqa, okeanın da bu məsələdə böyük əhəmiyyəti var, çünki bütün karbon emissiyalarının yarıdan çoxunu udur.

Amma indi iqlim dəyişmələri nəticəsində təbiət böhran yaşayır. Meşələr qırılma və kənd təsərrüfatı məqsədləri üçün istifadə baxımından davamlı təzyiq altındadır. Belə ki, zərərvericilər və xəstəliklərlə yoluxma, bitkilərdə yeni xəstəliklərinin yayılması, quraqlıq və meşə yanğınlarının artımı və temperaturun kəskin dəyişilməsi səbəbi ilə vegetasiya dövrünün uzanması və s. baş verir. Eyni zamanda, insan fəaliyyəti nəticəsində otlaqların tərkibi, sahəsi dəyişir. Su hövzələri çiriklənir.

**– İqlim dəyişikliyi biomüxtəlifliyə necə təsir edir?**

– Biomüxtəlifliyin itirilməsi iqlim dəyişmələrinin getdikcə daha çox təsirinə məruz qalır. İqlim dəyişmələri dünyada dəniz, quru və şirin su ekosistemlərinə təsir göstərir. Quruda temperaturun artması heyvanları və bitkiləri qütblərə doğru çəkilməyə və daha yüksək qurşaqlara köçməyə məcbur edir. Bu da ekosistemlərin dəyişilməsinə gətirib çıxarır. Hər dərəcə istiləşmə ilə növlərin nəsli kəsilmək riski artır. Bu, yerli növlərin itirilməsinə, xəstəliklərin artmasına, bitki və heyvanların kütləvi ölümünə səbəb olur, nəticədə iqlim dəyişmələri nəticəsində növlərin yox olması baş verir.

**– Xəzər dənizində vəziyyət günbəgün pisləşir. Çarə nədədir?**

– Xəzərdə vəziyyət heç də ürəkaçan deyil. Suiti bu dənizin yeganə məməlisidir və dünyada ən kiçik qulaqsız suiti növlərindən biridir. XIX əsrin sonlarında Xəzərdə suitilərin sayı 1 milyondan çox idi. Növbəti yüz il ərzində tənzimlənməyən ov, çirklənmə və digər səbəblərdən onların sayı xeyli azalaraq 1996-cı ildə “IUCN” adı altında tanınan Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin “Qırmızı siyahı”-sına vəziyyəti “zəif” statusu ilə daxil olub.

Həmin vaxt dənizin ümumi sahəsində hər 2 kvadrat kilometrə 1 suiti düşürdü. 2008-ci ilin oktyabrında status dəyişərək “təhlükəli” yazısı ilə daha çox həyəcan doğuranda isə bu canlıların sayı cəmi 104 min idi və 4 kvadrat kilometrə 1 suiti hesablanırdı.

Dənizdə balıqların sayı da sürətlə azalmaqdadır. Təkcə Azərbaycan sahillərində deyil, Xəzəryanı ölkələrin hər birində nərəcinsli balıqların ehtiyatı ötən əsrin 80-ci illəri ilə müqayisədə, təqribən, 30 dəfə, 2005–2006-cı illərlə müqayisədə isə 10 dəfə azalıb. Bu əsasən, iqlim dəyişikliyi ilə bağlıdır. Xəzər dayazlaşır, oksigenin miqdarı azalır.

**– Meşələrin də biokütləsi dəyişir. Ölkəmizin yaşıl zolağı dünyanın orta göstəricisindən 3 dəfə azdır Bu, heyvanların populyasiyasına necə təsir edir?**

– Meşələrin də biokütləsi dəyişir. Azərbaycan meşə sahəsi çox az olan ölkələr sırasındadır. Təxminən, 11,8 faiz meşəlik ərazimiz var, dünyanın orta göstəricisi isə 30 faizdir. Yəni ölkəmizdə meşə sahələri dünya göstəricisindən dəfələrlə azdır. Belə olan halda, meşə yanğınları və ağacların qırılması artıq ekoloji fəlakətdir. Mal-qoyun sürülərinin artması da meşələrə mənfi təsir göstərir. Quraqlıqlar, qasırğa və çovğunların tezliyinin artması meşə bitki örtüyünə təsirin ən əlverişsiz formalarından biridir.

Son 20 ildə qurumuş ağac kollarının ümumi sahəsinin 90 faizi əlverişsiz iqlim amillərinin təsiri nəticəsində tələf olub, bəzi illərdə (1992, 2003, 2018-ci illərdə) onların xüsusi çəkisi 97 faizə çatıb. Nəticədə bu, landşaftın pozulmasına, növlərin populyasiyasının təcrid olunmasına səbəb olub. İzolyasiya genetik müxtəlifliyin azalmasına və xəstəliklərə gətirib çıxarıb.

**– Nə üçün biomüxtəlifliyin qorunması iqlim dəyişikliyi ilə mübarizədə olduqca vacib hədəfdir?**

– İstixana qazları insanın istehsal fəaliyyəti ilə əlaqədar olduqda emissiyaların, təxminən, yarısı atmosferdə qalır, digər yarısı isə quru və okeanlar tərəfindən udulur. Bu ekosistemlər və onların tərkibində olan biomüxtəliflik iqlim dəyişmələrinə qarşı təbii mübarizə yoludur. Məsələn, meşələrin mühafizəsi, idarə edilməsi və bərpası iqlim dəyişmələrinin iazaldılması potensialının, təxminən, üçdə ikisini vəd edir. Geniş yayılmış və davam edən itkilərə baxmayaraq meşələr hələ də planetin quru ərazisinin 30 faizindən çoxunu əhatə edir.

Bataqlıq ərazilər dünyanın quru sahəsinin yalnız 3 faizini tutur, lakin onlar özündə bütün meşələrdən iki dəfə çox karbon qazı saxlayır. Azərbaycanda sahəsi 1000 hektardan böyük olan su-bataqlıq ərazilərinin sayı 17-yə yaxındır. Qızılağac, Ağgöl və Şirvan Milli Parkları, Mahmudçala gölü, Hacıqabul, Kür çayı deltası, Sarısu, Dəvəçi limanı və Xəzərin sahil rayonları belə ərazilərdəndir. Qızılağac, Ağgöl və Şirvan milli parkları xüsusilə zəngin bioloji müxtəlifliyinə görə diqqət cəlb edən ərazilərdir. Məhz bu ərazilərin milli park olaraq seçilməsi də təsadüfi xarakter daşımır. Bu ərazilərin qorunması və bərpası karbonun oksidləşməsinin və atmosferdə yayılmasının qarşısını alır.

Dəniz yosunları və manqr meşələri də atmosferdən karbon qazını quru meşələrindən dörd dəfə daha sürətli udur. Onların karbon tutmaq və saxlamaq qabiliyyəti mangr meşələrini iqlim dəyişikliyi ilə mübarizədə çox qiymətli edir.

Həm quruda, həm də suda təbii məkanların qorunması və bərpası karbon qazını məhdudlaşdırmaq və artıq dəyişən iqlimə uyğunlaşmaq üçün vacibdir. Növbəti onillikdə tələb olunan istixana qazları emissiyalarının azaldılmasının təxminən, üçdə birinə təbiətin udmaq qabiliyyətinin təkmilləşdirilməsi ilə nail olmaq olar.

*Söhbəti yazdı:*
***Pünhan ƏFƏNDİYEV***
***XQ***



# Ağstafada ekoloji müzakirə

**VASSERŞTAYN İsveçrə – Azərbaycan Plantasiyaları çərçivəsində həyata keçiriləcək beynəlxalq layihələr Ağstafada müzakirə olunub.**

Paytaxtımızda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən panel müzakirələr üçün Azərbaycanda işgüzar səfərdə olan İsveçrənin “iCsquared GmbH” şirkətinin prezidenti Zoltan Ştuçlikin başçılıq etdiyi nümayəndə heyəti Ağstafa rayonuna səfər edib.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov nümayəndə heyətini aparatın inzibati binasında qəbul edib. COP29-da iştirak edən xarici qonaqlar, Azərbaycanın təşkilatçılıq qabiliyyətinin, qonaqpərvərliyinin və peşəkarlığının ən yüksək səviyyədə olduğunu vurğulayıblar.

Seymur Orucov ölkələrimiz arasında mövcud olan müsbət siyasi və iqtisadi münasibətlərdən söz açaraq şirkətin Ağstafada icra edəcəyi beynəlxalq layihələrin ümumilikdə bölgəmizin aqrar sahəsinin inkişafına böyük töhfə verəcəyinə ümidvar olduğunu qeyd edib.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə ABAK-da (Ağstafa Beynəlxalq Aqro – klasterlər) VASSERŞTAYN İsveçrə-Azərbaycan Plantasiyaları çərçivəsində həyata keçiriləcək layihələr əsasında ayrılacaq torpaq sahələri, özünüməşğulluğun təmin edilməsi məqsədi ilə işlərə yerli sakinlərin cəlb olunması, suvarmaya əlçatanlıq, maşın-mexanizmlərdən istifadə, anbarlama və sair bu kimi vacib məsələlər müzakirə olunub.

Qonaqlara Azərbaycanın milli-mənəvi dəyərlərini təcəssüm etdirən hədiyyələr təqdim olunub. Sonra Ağstafa rayon Heydər Əliyev Mərkəzi ziyarət olunub, ağstafalı mədəniyyət və incəsənət nümayəndələri qonaqlar üçün klassik və milli musiqilərimizdən nümunələr ifa ediblər.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Ağstafa**

# Karbon ölüm mənbəyidir

**COP29 çərçivəsində “Sağlamlığa Xidmət” İctimai Birliyi və Beynəlxalq “Stop” Vərəm Tərəfdaşlığının birgə təşkilatçılığı ilə iqlim dəyişmələrinin sağlamlığa təsiri mövzusunda yüksəksəviyyəli müzakirə keçirilib.**




Müzakirədə ekstremal hava hadisələrinin artan tezliyi və intensivliyinin, eləcə də temperaturun yüksəlməsinin insan sağlamlığına və rifahına birbaşa təsir göstərdiyi, iqlim dəyişmələrinin ekosistemləri pozduğu, yoluxucu xəstəliklərin yaranmasına və yayılmasına səbəb olduğu, əhalinin sağlamlığı üçün ciddi təhlükə yaratdığı qeyd edilib.

Səhiyyə naziri Teymur Musayev çıxışında havanın çirklənməsinin ürək xəstəlikləri, insult, tənəffüs yolu infeksiyaları, ağciyər xərçəngi və diabet kimi bir çox xəstəlik üçün risk amilinə çevrildiyini, uşaqların havanın çirklənməsinin mənfi təsirlərinə xüsusilə həssas olduqlarını vurğulayıb.



Nazirin sözlərinə görə, dünyadakı uşaqların təqribən 93 faizi, yəni 15 yaşınadək 1,8 milyard uşaq çirkli hava ilə nəfəs alır. Bu da kritik inkişaf fazaları zamanı təhlükəli sağlamlıq nəticələrinə gətirib çıxarır. Körpələr və uşaqlar xüsusilə havanın çirklənməsinə məruz qaldıqda bu, ağciyərlərin sağlamlığına ciddi təsir edir.

T.Musayev ətraf mühitin çirklənməsinin insan sağlamlığına təsirinin azaldılmasının və sağlam həyat tərzinin təbliğinin Azərbaycan hökumətinin əsas prioritetlərindən olduğunu bildirib. O, eyni zamanda, Səhiyyə Nazirliyinin ətraf mühitin mühafizəsi ilə məşğul olan qurumlarla birlikdə ölkə ərazisində havanın keyfiyyətinə fəal surətdə nəzarət etdiyini də vurğulayıb: “Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlıq sazişi çərçivəsində hər iki qurumun mütəxəssisləri Azərbaycanda havanı çirkləndirənlərin ölüm hallarına təsirinin monitorinqinə başlayıb. Əsas hava çirkləndiricilərinin sağlamlığa təsirlərini qiymətləndirməyə imkan verən, ÜST tərəfindən hazırlanan proqram təminatından istifadə etməklə növbəti beşillik dövr ərzində monitorinq nəticələrinin xülasə hesabatı hazırlanır. Havanın çirklənməsinin sağlamlığa təsirləri barədə ictimaiyyəti məlumatlandırmaq üçün maarifləndirici proqramlar davam etdirilir”.

***XQ***

# Qoymayın dünyamız məhvə tuş olsun!

**Sadhquru Caqqi Vasudev Hindistanın Koimbatore şəhərində yerləşən İşa Xeyriyyə Fondunun təsisçisidir. Qeyri-kommersiya mənəvi təşkilat olan fond öz fəaliyyətində insanın səlahiyyətləndirilməsi və sosial canlandırılmasına diqqət yetirir. 1992-ci ildə qurulan vəqf aşram (mənəvi-ruhani kamilliyə can atanların dini icması) və yoqa ilə məşğul olur.**




Məşhur yoqa təlimçisi Sadhquru noyabrın 10-da BMT-nin İqlim Dəyişikliyi üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak etmək məqsədilə Azərbaycana səfərə gəlib. Sadhquru hesab edir ki, dünyanın ən böyük problemi onun məhvolma astanasında olmasıdır. O, bu böhrandan xilas olmaq üçün qida ehtiyatlarının artırılmasını, təbii materiallardan daha çox istifadə edilməsini, təbiətə daha çox diqqət yetirilməsini zəruri hesab edir.

Jurnalistlərə açıqlamasında bu barədə danışan Caqqi Vasudev deyib:

– İldən-ilə nə qədər dəyişikliklərin, yeniliklərin şahidi və iştirakçısı oluruq. Bütün diqqətimizi hər şeyi inkişaf etdirməyə verdiyimiz və buna çalışdığımız dönəmdə planetimizin qeydinə qalmağı unutduq. Bizim yeniliklərə ehtiyacımız var, amma ana təbiətin gözəlliklərini də qoruyub saxlamalıyıq. İqlim dəyişikliyinə ayrılan diqqət və qayğı problemin həlli istiqamətində ən böyük addımlardan biridir.

Ən modern texnologiyan olsa da, onu istifadə edə biləcək yararlı planetin yoxdursa, sən artıq məğlub olmuş sayılırsan. Son 25–30 ildə milli dəyərlərimiz dəyişib və bununla mübarizə aparmaq məcburiyyətində qalmışıq. Bu gedişlə 50–60 il sonraya baxsaq, gələcək nəsillər üçün təbiətdən heç nə qalmayacaq. Dəhşətli səslənir. Dünyanın yaşıllıqları və mühafizəsi neftdən və onu əldə etmək üçün sərf edilən səylərdən daha önəmlidir. İnanıram ki, konfransın bu məsələlərin həyata keçirilməsində böyük rolu olacaq.

***Z.HÜSEYNOVA***
***XQ***

# Naxçıvanda enerjinin yarısı “yaşıllaşıb”

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsində olan elektrik stansiyalarının 2024-cü ilin yanvar–oktyabr ayları üzrə texniki–iqtisadi göstəriciləri açıqlanıb. Müvafiq dövr ərzində istehsal olunan ümumi elektrik enerjisinin 52 faizinin alternativ və bərpa olunan enerji mənbələrinin payına düşdüyü bildirilib.**



Açıqlamada hesabat dövründə istehsal olunan ümumi elektrik enerjisinin 48 faizinin istilik, 39 faizinin su, 13 faizinin Günəş elektrik stansiyalarında istehsal olunaraq elektrik şəbəkələrinə ötürüldüyü vurğulanıb.

Qeyd edilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə alternativ və bərpaolunan enerji mənbələrində istehsal olunan elektrik enerjisinin payı 18 faiz artıb. Belə ki, bu rəqəm 2023-cü ildə 34 faiz olduğu halda cari ildə 52 faizə yüksəlib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**




APA – 20

# Müstəqil Azərbaycanın aləmə yayılan səsi

*Müsahibimiz APA Media Qrupunun baş direktoru Vüsalə Mahirqızıdır*

**Müstəqillik dövrünün uğurlu media layihəsi kimi özünü təsdiq edən Azəri-Press Agentliyi – APA-nın 20 yaşı tamam oldu. 2004-cü ildən müstəqil, özəl və beynəlxalq aləmdə öz dəst-xətti ilə tanınan agentlik Azərbaycan, rus, fars, fransız və ingilis dillərində özəl, operativ xəbərləri bütün dünyaya çatdırır. APA bu gün nəinki Azərbaycanda, eləcə də Gürcüstan, Rusiya, Türkiyə və İranda fəaliyyət göstərir.**



**– Vüsalə xanım, 16 noyabr APA-nın yaranma günüdür. Ötən 20 ildə agentliyin informasiya məkanındakı fəaliyyəti söz azadlığı uğrunda cəsarət və peşəkarlığın daha bir nümunəsi sayıla bilər. APA müstəqil Azərbaycan dövlətinin səsini dünyaya yayan çevik media qurumu kimi illər ötdükcə təcrübəsini artırıb, mükəmməl yaradıcılıq komandasına çevrilib. Bugünlərdə APA-ya ünvanlanan çoxsaylı mötəbər təbriklərə "Xalq qəzeti" də qoşulur.**

– Əvvəlcə, həmkarlıq ehtiramınıza görə redaksiyanıza minnətdarlığımı bildirirəm. Bu gün səhərdən başlayaraq həmkarlarım – Azərbaycan Mətbuat Şurasından, müxtəlif media qurumlarından təbriklər göndəriblər. Hamısına xüsusi olaraq təşəkkür edirəm. Sizə gəldikdə isə deyərdim ki, 105 illik tarixi olan bir qəzetin, hətta "Xalq TV"-nin mənimlə belə bir səmimi söhbət qurması qürurvericidir. "Xalq"qəzeti məktəbdir, verdiyiniz dəyər o deməkdir ki, 20 ilimiz hədər getməyib.

Fəaliyyətimizin əsas nəticəsi budur ki, informasiya məkanında öz sözümüzü deyə bilmişik, artıq APA-nın imzası, nüfuz möhürü var. Bu gün APA Azərbaycanın, Cənubi Qafqazın ən böyük media qurumlarından biridir. İlk üçlükdə yer tutmuşuq. Peşəkar, gecəsini-gündüzünə qatan komanda yetişdirmişik.

APA-ya istinadların yetərincə olması məni qürurlandırır, xəbər saytlarımıza da inam və diqqətin çox olması isə məsuliyyətimizi ikiqat artırır. 20 il ərzində addım-addım uğurlara imza atmağımız təkcə APA-nın xidmətləri deyil, bu, həm də ölkədə normal media mühitinin formalaşmasının nəticəsidir. Əgər Azərbaycanda işgüzar media mühiti yaradılmasaydı, biz nə qədər çalışsaq belə, heç nə əldə edə bilməzdik. Dövlətimiz və onun rəhbəri Prezident İlham Əliyevin mediaya hərtərəfli qayğısının nəticəsidir ki, bu gün çox sayda müstəqil informasiya agentlikləri azad fəaliyyət göstərə bilirlər. Bəli, peşəkarlar diqqət və qayğı görəndə uğur qazanırlar.

**– Bu diqqət və qayğını siz necə uğura çevirmisiniz?**

– İlk növbədə, aydın məramımızla, Vətən sevgimizlə meydana atılmışıq. İkincisi, APA-nın ətrafına fədakar media işçilərini yığa bilmnişik. Hazırda 30-a yaxın əməkdaşımız COP29 beynəlxalq tədbirində çalışır. Bu konfrans bizim üçün də geniş meydan açıb, orada 2 ofis, 1 studiyamız işləyir. Bu tədbirin işıqlandırılmasında əməyi olan, nahar saatlarını belə iş başında keçirən əməkdaşlarımızla fəxr edirik. Düşünürük ki, ötən 20 ili boşa verməmişik. Bizim əməkdaşlar COP29-da biri-birinə, adətən, belə müraciət edirlər: "Vaxt yoxdur, iş gözləmir". İnanın bu mənzərənin şahidi olanda hətta kövrəldim. Onlar APA-nın imici naminə həqiqətən fədakarcasına işləyirlər. Bundan böyük sevgi ola bilərmi? Bu, APA komandasının işə yanaşmasıdır.

APA-nı brend edən peşəkarlardır. Onlar media fədailəridir. Mən belə insanlara işinin fədaisi deyirəm. Elə olub ki, komanda halında günlərlə ofisdə qalmalı olmuşuq, xəbərin operativliyi naminə iş yerini tərk etməmişik.

Hazırda yeni media dövrüdür. Etiraf etməliyik ki, sosial şəbəkələr informasiyanı elə sürətlə yayırlar ki, sən reallığı, həqiqəti qorumaq naminə son dərəcə çevik tərpənməlisən.

Dəfələrlə olub ki, bizim sosial şəbəkə menecerlərimiz mənim xəbərim olmadan belə, bütün gecəni işləyiblər ki, informasiyanı birinci versinlər. Bu ürək, bu vicdan olmasa, davamlı inkişafdan söhbət gedə bilməz. Biz, demək olar ki, 24 saat işləyirik. Bu şirkətin qapıları heç vaxt bağlanmır. Məqsədimiz ilk növbədə operativ, qərəzsiz, dürüst informasiyanı birinci olaraq yaymaqdır. İctimai rəydən bilirəm ki, biz qarşımıza qoyduğumuz məqsədə çatmışıq.

**– APA çağdaş informasiya siyasətini necə qurub? Yenilikləri necə toplayıb auditoriyaya ötürürsünüz?**

– Bizim üçün informasiya həyatın özüdür. Bizə görə, jurnalistika peşə deyil, həyat tərzidir. Müəyyən peşələr var ki, siz işdən çıxıb gedirsiniz evə, peşəniz sizi tərk edir. Jurnalistika, informasiya isə hər yerdə sizinlədir. İnformasiyasız cəmiyyəti indi təsəvvür etmək belə mümkün deyil

2020-ci ildə Vətən müharibəsi zamanı 44 gün ordumuzla, xalqımızla birgə biz medianın əsgəri olduq. Müzəffər Ordumuzun misilsiz qəhrəmanlığını, Ali Baş Komandanın çıxışlarını bütün dünyaya yaydıq və bundan sonsuz qürur duyduq. Torpaqlarımız düşməndən azad olunub, amma bu gün yenə də informasiya cəbhəsində döyüşürük. Çünki düşmənlərimizin havadarları Böyük Zəfərimizi həzm edə bilmirlər.

Təəssüf ki, ədalətsiz dünya Azərbaycanın COP29 kimi beynəlxalq tədbirə evsahibliyi etməsini də şər-böhtanla qarşılayır, qərəzli niyyətlərini həyata keçirmək üçün var-qüvvələri ilə çalışırlar. Biz aparıcı media orqanı olaraq bu böhtanlara qarşı haqq səsimizi dayandırmamalıyıq.

**– COP29 Azərbaycanda buvaxtadək keçirilən ən böyük və məsul beynəlxalq toplantıdır. Belə nəhəng və qlobal konfransın, onun çoxsaylı iclas, təqdimat və aksiyalarının əhatəli işıqlandırılması yeni bir iş üsulu tələb edirdi...**

– APA-nın əsas amalı da məhz xalqımızın haqq səsini dünyaya çatdırmaq, haqqımızı müdafiə etmək olduğundan biz belə bir çətinliyə çiyin verə bildik. Bədxahlarımızın pozuculuq kampaniyaları bizi ikiqat fədakarlığa səsləyib. "Etnik təmizləmə" adı altında ölkəmizə ləkə yaxmaq olmaz. Azərbaycan haqqın, ədalətin yanındadır. "Feyk" xəbərlər stəkanda yaradılan süni fırtınaya oxşayır. Baxın, yalan xəbərlərlə işləmək nə qədər ağırdır?

COP29-da 10 mindən çox foto qeydə almışıq, 1500-dən çoxunu yaymışıq. Əsl həqiqət göz qabağındadır, müxtəlif ölkələrin media qurumları bundan istifadə edirlər. Tədbir iştirakçılarına rahat işləmək və dincəlmək üçün hər cür şərait yaradılıb. 70-dən çox dövlət rəhbərindən müsahibələr almışıq.

Yeri gəlmişkən, bir mühüm faktı da deyim ki, Müzəffər Liderimiz başda olmaqla biz artıq tarixin təkərini döndərmişik. Biz 200 ildən sonra türkün qələbəsini əldə etmişik. Düşmən, əlbəttə, bunu həzm edə bilmir. Ona görə də ölkəmizə qarşı qara piara qarşı barışmaz olmalıyıq. Biz xalq və dövlət olaraq Yer üzündəki bütün doğru, dürüst, vicdanlı insanları inandırmaq istəyirik ki, biz haqlıyıq.

**– Siz artıq qlobal informasiya məkanında mötəbər media qurumu olduğunuzu təsdiqləmisiniz. 20 illik yubileyin hesabatında, şübhəsiz, bu uğur öndə gəlir.**

– Bir media şirkətinin püxtələşməsi üçün 20 il çox azdır. Mən bu işə başlayanda 25 yaşım vardı, indi 45 yaşdayam. İllər və zaman öz hökmünü verir. APA mənimlə birgə yaşlanmağa doğru gedir, amma çox istərdim ki, mən dünyada olmayanda da, APA yaşasın və nüfuzunu itirməsin.

APA ilə mən imzamı tanıtmışam. APA həyatımın mənasıdır, təsəvvür edin ki, bu informasiya agentliyinin nəzdində olan saytlar, APA TV belə mənə APA qədər doğma ola bilməz, hətta hərdən bizim əməkdaşlar deyirlər ki, Vüsalə xanım, bir qədər ayrı-seçkilik edirsiniz?!

Bəli, etiraf edirik ki, APA mənim üçün xüsusi olaraq önəmlidir. Arzum budur ki, o, Azərbaycanın media tarixində əbədi olaraq yaşasın və bu imza ilə bütün dünyaya xalqımız və dövlətimiz barədə yeni xoş müjdələrlə dolu xəbərlər yayaq.

**– Bu məsul və şərəfli fəaliyyətdə APA-ya yeni uğurlar arzulayırıq.**

***Söhbəti qələmə aldı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

Dil və təfəkkür

# Söz olmasa dünyada ...

**İnsan rəmzlər sistemi üzrə ustalaşmağa necə başlayır? Bu, onun hansı düşüncə sahəsinə maraq göstərməsindən asılıdır. Ən qədim və təməl qaydaların sözlər vasitəsilə yarandığını bilirik. Böyük Nizami Gəncəvi sözün düçüncəyə qapı açıb, qanad taxdığını necə dahiyanəliklə ifadə edib: "Sözün də qanadı var – quş kimi incə-incə. Söz olmasa, dünyada nəyə lazım düşüncə?"**



Sözlər bu gün də mürəkkəblik səviyyəsində axına girmək üçün sonsuz fürsətlər yaradır. Krossvord həll etmək buna ən sadə nümunədir. Qədim yanıltmac yarışlarını xatırladan çox yayılmış asudə vaxt məşğuliyyətinin xeyrinə deyilə biləcək çox sözlər var. Çətinlik səviyyəsi peşəkarların da, həvəskarların da zövqünə uyğunlaşdırıla bilir.

Krossvord yazmaq şüurda insana müvəffəqiyyət duyğusu hiss etdirən zövqverici bir nizam yaradır. Krossvordlar hava limanlarının gözləmə salonlarında insanları sıxıntıdan, darıxmaq hissindən azad edən vasitədir. Lakin insan bütün vaxtını sadəcə, krossvord həll etməyə sərf edərsə, həyatında ciddi problemlərlə üzləşəcəyi şəksizdir. Yaradıcı iş insanın öz krossvordunu yaratmasıdır. Belə olanda kənardan qəbul edilən modelə ehtiyac qalmır. Adam hətta bu işdən daha çox zövq alır.

Sözlər vasitəsilə həyatımızı zənginləşdirməyin müxtəlif yolları var. Bunlardan biri də söhbət sənətidir. Çoxlarına bu ifadə qəribə gələ bilər. Bəli, söhbət etməyin özü də bir sənətdir. İntellektual insanların söhbətləri bəşəriyyət üçün son dərəcə faydalıdır. Bu qarşılıqlı məlumat mübadiləsi başqalarının da düşüncələrinə istiqamət verir, onları hansısa faydalı işlərə yönəldir. Məşhur fenomenologiya mütəxəssisləri Peter Berger və Tomas Lukman kainata dair duyğumuzun bütövlüyünü məhz söhbətlərin, fikir mübadilələrinin qoruduğunu yazırlar. İş dünyasında bir idarəçi üçün ən vacib uğur vasitələrindən birinin zəngin söz ehtiyatı və axıcı danışıq tərzi olması sadəcə, mənfəət xatirinə deyil. Yaxşı danışmaq istənilən münasibəti zənginləşdirir, ona məna qatır, bu münasibətin davamlı olmasına səbəb olur. İnsanların çoxu özlərində bu vərdişi formalaşdırmadığı üçün ünsiyyət zamanı müəyyən çətinliklərlə üzləşirlər.

Dil ünsiyyət vasitəsidirsə, dili yaradan sözləri sevmək, mənimsəmək lazım gəlir. O zaman düşüncə də zənginləşir, istənilən mövzuya çevik reaksiya verir. Krossvord düşüncə məşqlərinin ən ibtidai mərhələsidir. Reflektiv təfəkkür birdən-birə yaranmır, beyində müəyyən baza yarandıqdan sonra bu mexanizm işə düşür. Görkəmli psixoloq Mihay Çiksentmihayi "Axın: optimal təcrübə psixologiyası" əsərində yazır ki, dilin ən yaradıcı istifadəsi şeirdir. Şeir şüura yaşananları sıxışdırılmış və dəyişdirilmiş şəkildə yerləşdirmə imkanı verdiyi üçün zehni formaya salmaqda ideal bir vasitədir. İdman da bədəni bu cür formalaşdırır, nizamda saxlayır. Ən azı, başlanğıcda mütləq çox yaxşı şeirlər oxumağınıza ehtiyac yoxdur. Şeirin hamısını oxumağa da məcbur deyilsiniz. Əsas odur ki, sizə təsir edən, düşüncələrinizə qida verən hansısa bir misra, yaxud bənd tapasınız. Bəzən bir sözcük belə yeni bir dünyagörüşünə qapı açmağa, şüuru daxili və mənəvi səyahətə çıxarmağa kifayət edə bilər.

Bu qabiliyyətin əldə edilməsi həyat keyfiyyətini də artırır, insanların həyatdan zövq almaları ilə yanaşı, mənliklərini də əhəmiyyətli dərəcədə gücləndirir, özlərinə hörmət duyğularını artırır.

Günümüzdə ünsiyyət üçün istifadə etdiyimiz vasitələrin bolluğundan yazı vərdişlərinə barmaqarası baxırıq. Telefonlar, sosial şəbəkələr məlumat göndərmək cəhətdən daha təsirli vasitələrdir. Yazmağın yeganə məqsədi məlumat mübadiləsi olsaydı, onun artıq dəbdən düşdüyünü deyə və buna haqq da qazandıra bilərdik. Amma yazmağın məqsədi təkcə məlumat mübadiləsi deyil, məlumat yaratmaq, məlumat verməkdir. Bu, gələcək üçün vacibdir. Gələcəkdə yaşayacaq insanlar bu günün tarixini məhz bu yazılar vasitəsil öyrənəcəklər.

Daxili səbəblərlə yazmaq isə əsla vaxt itkisi deyil. Əvvəla, yazmaq zehinə nizamlı ifadə vasitəsi verir. Yazmaq yaşanan hadisələri izah etməyin və anlamanın bir yolu və həyata nizam-intizam qazandıran ünsiyyət formasıdır. Bəlkə də insanların yazıçılığı seçmələrinin səbəbi şüurlarının fövqəladə səviyyədə xaos və dağınıqlıqla əhatələnmiş olmasıdır. Yazmaq duyğu qarışıqlığı içində müəyyən qədər nizam yaratmaq üçün müalicə effekti yaradır. Mövcud reallıqdan qaçış hissi, öz daxili dünyasını yaratmaq ehtiyacı... Yazıçılığın bir sirri də bu həqiqətlərdə gizlənir.

Beləcə, krossvord vasitəsilə başlayan söz oyunları əksər hallarda insanı yazıçılığa gətirib çıxarır.

***Kənan HACI,***
***yazıçı-publisit***

# Azərbaycan multikulturalizminin İspaniyada təqdimatı

**Bugünlərdə İspaniyanın Malaqa şəhərində "Müdrik İnsanların Xəzinəsi" adlı beynəlxalq sərgi keçirilib. Krallığın Maqos Fondunun təşkil etdiyi toplantıda ölkəmizi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbərliyi ilə dini icma nümayəndələri təmsil edib.**



İspaniyadakı səfirliyimizin təşkilatçılığı və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə sərgidə təqdim olunan Azərbaycan guşəsində ölkəmizin tarixi, mədəniyyəti, tolerantlıq mühiti geniş əksini tapıb. Müstəqil dövlətimizin aparığı milli siyasət, həyata keçirilən mədəni layihələr barədə İspaniya ictimaiyyətini məlumatlandırmaq məqsədilə sərgidə "Azərbaycanın multikulturalizm modeli" mövzusunda seminar da təşkil olunub.

BBMM-in icraçı direktoru Rəvan Həsənov təqdimatda və seminarda bildirib ki, müxtəlif etnik və dini icmaların birgə yaşadığı mühit Azərbaycanın multikulturalizm sahəsindəki uğurlu siyasətinin nəticəsidir. O, ölkəmizin tolerantlıq ənənələri, multikulturalizm siyasəti, din-dövlət münasibətləri haqda geniş məlumat verərək rəhbərlik etdiyi mərkəzin bu sahədəki fəaliyyətindən, keçirilən beynəlxalq tədbirlərdən və təcrübə mübadiləsindən danışıb.

Azərbaycandakı Avropa Yəhudiləri İcmasının baş ravvini Şneor Seqal ölkəmizdə yaşayan yəhudilərin həyat tərzi, Katolik kilsəsinin keşişi Vladimir Baxa və Alban-Udi xristian icmasının sədri Robert Mobili isə xristianların Azərbaycandakı yaşam şəraiti və dini ibadətlərini azad şəkildə icra etmələrindən və Azərbaycan dövlətinin bu sahədəki qayğısından danışıblar.

16 Noyabr Dünya Tolerantlıq Günü münasibətilə Malaqa Şəhər Bələdiyyəsində keçirilən dünyada sülh və birgə yaşayışın təbliğatında göstərilən xidmətlərə görə mükafatlandırma mərasimində Azərbaycan nümayəndə heyətinə də Maqos Fondunun mükafatı təqdim olunub.

***T.RÜSTƏMLİ***
***XQ***

Maraq dünyamız

# Lemurlar Günəşəmi sitayiş edirlər?

*Bu sualı Madaqaskardakı ekspedisiya üzvləri dəfələrlə bir-birinə veriblər*

**Müxtəlif ölkələri təmsil edən alimlər fərqli meşələrdə müşahidə apararkən maraqlı və qeyri-adi mənzərə ilə üzləşiblər. Onlar hər səhər bütün lemurların hündür ağacın zirvəsinə qalxaraq, uzun müddət ( 15-20 dəqiqə) üfüqdəki Günəşin "gözünün içinə" baxdığını görüblər. Həm də bu "mərasimdə" bütün lemurlar öz "ailələri" ilə birlikdə iştirak edirlərmiş. Bala lemurlar Günəşə daha çox baxmağı sevirmiş.**



Ancaq bu əlamət lemurların qeyri-adiliyini nümayiş etdirən yeganə fakt deyil. Madaqaskara və yaxınlıqdakı Komor adalarına endemik olan (yəni onları dünyanın başqa yerində görən olmayıb) primatların yaxın qohumu sayılan lemurlar qabarit və çəkisinə görə çox fəqlənən canlılardır. Belə ki, onların arasında cırtdan lemurlar – tam yetkinlik yaşına çatandan sonra da çəkisi cəmi otuz qram olanı da var, indri adlı çəkisi on kiloqrama çatanlar da. Nəsli kəsilmiş (sümükləri tapılan) arxeoindrilərin çəkisinin isə təxminən, 160 kiloqram olduğu söylənilir.

Onların eyni sinifdən olduğunu sübut edən ümumi bir göstərici isə aşağı çənənin önə çıxan hissəsindəki kəsici dişləri və köpək dişləri, eləcə də arxa ayaqların ikinci barmağında daha çox uzanan dırnaqdır. Yaz və yay fəsillərində ağacda yaşayır və əsasən yarpaqla qidalanırlar. Qışda isə ələ keçirə bildikləri xırda canlılar və otlarla.

Bəzi alimlər onların adının qədim Roma əsatirləri ilə əlaqələndirildiyini deyirlər. Bu zaman lemurların həmişə həyəcanlı, hərəkətdə, axtarışda olduğu, xüsusən, gecələr daha çox fəallaşdıqları (qartallar onları asanlıqla ovladığına görə əsasən gecə vaxtı fəal olurlar) əsas götürülür.

Xatırladaq ki, qədim Roma mifologiyasına görə lemurlar şər, qəzəbli, zalım ruhlar idi. Romalıların fikrincə, vəfat eləmiş insan bütün qaydalara əməl edilmədən dəfn olunubsa, lemurlar həmin mərhuma sakitlik vermirlər.

Doğrusu, mən bu ad bağlılığı ilə razılaşmadım. Çünki şər qüvvələrə bağlı olan canlılar hər səhər həyat mənbəyi olan Günəşə baş əyməzlər.

Mütəxəssislərin fikrincə, lemurların əcdadları 50–53 milyon il əvvəl yaranmışdır. Onların bu qədər uzunömürlü olduğunu isə planetimizdəki böyük meymunların, xüsusən, ətyeyənlərin Madaqaskar adasına gələ bilməməsi ilə əlaqələndirirlər.

***İttifaq MİRZƏBƏYLİ***









# Ekoloji fəaliyyətin mədəni qaynaqları

**Bakıda keçirilən COP29 sessiyası çərçivəsində iqlim dəyişikliyi və mədəniyyət mövzusu müzakirələrdən kənarda qalmayıb. Bu baxımdan Müxtəlif ölkələrdən mədəniyyət nazirləri və həmin nazirlikləri təmsil edən geniş mütəxəssis heyətinin iştirakı ilə Mədəniyyət əsaslı İqlim Fəaliyyəti üzrə 2-ci Yüksək Səviyyəli Nazirlər Dialoqu Görüşü xüsusi qeyd edilməlidir.**



İclasda "Mədəniyyət və iqlim dəyişikliyi" mövzusu müzakirə edilib. Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli jurnalistlərə açıqlamasında deyib: "İclasın vacib məqamlarından biri COP28-də əsası qoyulan və bu gün təsdiqlənən "Mədəniyyətə əsaslanan iqlim fəaliyyətinin dostları Qrupu" təşəbbüsüdür. Həmin təşəbbüs qrupunun ilk şərtlər toplusu təsdiq edilmiş oldu. Təbii ki, Azərbaycan da buna qoşularaq Birləşmiş Ərəb Əmirliyi və Braziliya ilə birgə "Dostlar qrupu" təşəbbüsünün həmsədri olaraq təqdim edildi. Bu gün Azərbaycanın sədrliyi ilə bu şərtlər toplusu ölkələr tərəfindən qəbul edildi".

Nazir Adil Kərimlinin sözlərinə görə, "Dostlar qrupu" üzvlərinin sayı get-gedə çoxalır və dünya ictimaiyyətinin diqqəti məhz mədəniyyətin iqlimə təsiri mövzusunda daha da genişlənmiş olur.

***

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoyla görüşüb.

Mədəniyyət Nazirliyindən bildirilib ki, Adil Kərimli belə bir mötəbər tədbirdə qardaş Türkiyə Cümhuriyyətinin də iştirakından məmnunluğunu söyləyib. Azərbaycan ilə Türkiyə arasında mədəniyyətin bütün sahələrində uğurlu əməkdaşlığın qurulduğunu deyən nazir bu sahədə əlaqələrin daha da inkişafı üçün perspektivlərin olduğunu deyib.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy ölkəmizin COP29 kimi mötəbər bir tədbirə yüksək səviyyədə evsahibliyi etdiyini diqqətə çatdırıb. Bildirib ki, əgər Türkiyə COP31-i qəbul edərsə, Azərbaycanın bu sahədəki təcrübəsi öyrəniləcək. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra nazirlər tədbir məkanındakı Azərbaycan, Türkiyə və Özbəkistanın pavilyonları ilə tanış olublar. Türkiyə və Özbəkistan pavilyonları ilə tanışlıqda Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov da iştirak edib.

***

Sessiya çərçivəsində Birləşmiş Ərəb Əmirlikləri, Braziliya və Azərbaycanın Mədəniyyət nazirliklərinin təşkilatçılığı ilə mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşü keçirilib.

Əvvəlcə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli çıxış edərək tədbirin əhəmiyyətini vurğulayıb. ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik qeyd edib ki, iqlim dəyişikliklərinin mədəniyyətə təsiri get-gedə artmaqdadır: "Biz gələcəyimiz üçün mədəni irsimizi qorumağa çalışacağıq".

Mədəni Mülkiyyətlərin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) Baş direktoru xanım Aruna Francesca Maria Gujral, UNESCO-nun Mədəniyyət sektoru icra aparatının rəhbəri Dorine Dubois, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, UNESCO-nun xoşməramlı səfiri, Petra Milli Trestinin prezidenti, İordaniya şahzadəsi xanım Dana Firas, Ağa Xan İnkişaf Şəbəkəsinin Ətraf mühit və iqlim komitəsinin sədri şahzadə Rəhim Ağa Xan, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxış ediblər.

Görüş məruzələrlə davam etdirilib. Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu (GFCBCA) haqqında danışan Birləşmiş Ərəb Əmirliklərinin mədəniyyət naziri Salem bin Xalid əl-Qassimi qurumun üzvlərinin sayının artmasından məmnunluğunu bildirib. Qeyd edib ki, bu, sektorlararası daha güclü bir səs olacaq: "Bu görüşdə iqlim dəyişikliyi fəaliyyətində mədəniyyət ölçüsünü diqqətə çatdırmış olacağıq. Mədəniyyət və iqlim dəyişikliyi bir-biri ilə əlaqədardır. Düşünürəm ki, bu sahədə araşdırmalara daha çox investisiya qoyulmalıdır. Biz bütün tərəfləri nazirliklərarası əməkdaşlığa dəvət edirik".

Sonra Braziliya (videomüraciət), Türkiyə, Pakistan, Özbəkistan,Yunanıstan mədəniyyət nazirləri və digər çıxış edən nümayəndələr mövzu ətrafında öz fikirlərini bildiriblər. Çıxışçılar mədəniyyətin iqlim siyasətində oynadığı güclü rolu xüsusi qeyd ediblər.

Çıxışlardan sonra Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşünün yekun sənədi qəbul edilib. Yekun söz söyləyən COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev iqlim fəaliyyətində mədəniyyətin payının yüksək olduğunu deyib. Bildirib ki, qəbul olunmuş bu sənəddə mədəniyyət əsaslı iqlim tədbirlərinin əhəmiyyəti xüsusi vurğulanır.

***Ə.ƏLİYEV***
***XQ***

# İqlimlərin ilmələr dünyası



**BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edən Bakıda ətraf mühit amillərinin mədəniyyətə təsiri ilə bağlı tədbirlər sırasında "İqlimlər və ilmələr" adlı beynəlxalq sərgi xüsusi yer tutur.**

Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə Azərbaycan Milli Xalça Muzeyində açılan sərginin məqsədi müasir sənətkarların qədim ənənələr əsasında yeni üslub və texnikada yaratdıqları əsərlər vasitəsilə cəmiyyətin diqqətini iqlim dəyişikliyinə qarşı mübarizəyə, sağlam həyat tərzinin əhəmiyyətinə yönəltmək, bəşər övladını ekoloji problemlərin həllinə, ətraf mühitin mühafizəsinə səsləməkdir.

Sumqayıtlı xalçaçı-rəssam dostumuz Fazil Abasquluzadənin təklifi ilə birgə ziyarət etdiyimiz sərgidə öz sənətkarlarımızla bərabər, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Meksika və Rusiyanın tanınmış rəssamlarının Azərbaycan xalça sənətinin özəlliklərindən ilhamlanaraq yaratdıqları əsərlər nümayiş olunur.

Sərginin açılış mərasimində muzeyin direktoru Əminə Məlikova iştirakçıları və qonaqları salamladı. BMT-nin Cenevrədəki Ofisinin Baş direktorunun müavini Lidiya Qrigoryeva, Meksikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mariya Viktoriya Romero Kabalyero, Rusiya Federasiyası Prezidentinin beynəlxalq təşkilatlarla əlaqələr üzrə xüsusi nümayəndəsi, "Abrau Durso" şirkətlər qrupunun sahibi Boris Titov, "365 ART" qalereyasının təsisçisi Olqa Daniele ürək sözlərini söylədilər. Onlar unikal mədəni təşəbbüs olan bu qeyri-adi sərginin böyük maraq kəsb etdiyini bildirdilər.

Ekspozisiyanı gəzdikcə, sanki, ecazkar bir aləmə düşürsən. Buradakı xalçaların naxışları ana təbiətin müxtəlifliyi kimi cazibədardır. Təbiət mövzusu necə də rəngarəngdir. Əriş-arğac ilmələrin təkrarlanaraq naxış, naxışların isə ritmə düşərək ornament yaratdığı orijinal kompozisiyalı, ekoloji təmiz xalçaların hərəsi sanki bir rəmzi məhəbbət hekayəsidir. İlahi, bu hekayələrin əsas materialı olan yun saplar nə qədər çeşidli gül-çiçəkdən, ağac qabıqlarından, bitki köklərindən rəng alıb! Bu boyalar uzun illər solmadan, parlaqlığını itirmədən "Canım-gözüm, Azərbaycan" mahnısı oxuyur.

Xalçaların rəng fəlsəfəsi isə pıçıldayır ki, yaşıl sağlamlıq, göy isə səma cisimlərinə inam və sitayişlə bağlıdır. Göy rəngin çalarları da müxtəlif təbiət hadisələrinə işarədir. Mavi rəngli naxışlar səma kimi genişliyi və sonsuzluğu, tündgöy isə dənizlərin dərinliyini ifadə edir. Sarı rəng bir çox xalçada günəşin haləsi kimi verilir və istilik, hərarət yayır. Bütün xalçalardan həyat eşqi, dünyaya yaradıcı münasibət boylanır.

Sərginin ilk günü ziyarətçilərə məşhur rus sənətkarı Natalya Boçkaryovanın "Odda yarananlar" adlı birgə işi, Çikaqo Nort Park Universitetinin professoru Nnenna Okorenin, meksikalı rəssam Pedro Sezar Peraltanın, bizim "YARAT" Müasir İncəsənət Mərkəzinin, eləcə də kolleksiya dizaynı və dekor üzrə ixtisaslaşmış "CHELEBI" brendinin təsisçisi, rəssam Aida Mahmudovanın, Əməkdar rəssam Faiq Əhmədin, Əməkdar mədəniyyət işçisi Elmira Abbaslının, rəssamlar Məmməd Rəşidov, Milena Nəbiyeva, Məhər Məhərrəmovun yaradıcı təxəyyül məhsulları nümayiş olundu.

Eyni zamanda, sərginin zəngin ekspozisiyasında şüşə, yun, metal, bioplastik, tənzif, lif və s.-dən hazırlanmış fərqli sənət nümunələri də yer alıb. Öyrəndik ki, onlardan birinin müəllifi – rusiyalı Natalya Boçkaryova turist qismində Bakıda Milli Xalça Muzeyini ziyarət edərkən burada nümayiş olunan eksponatlar, xüsusilə "Gəncə-buta" xalçası öz rənginə və kompozisiya sxeminə görə sənətçini heyran edib. O, xalça ornamentlərinin semantik mənalarından ilhamlanıb və şüşədən (!) xalça yaradıb. Rəssam "Alovda doğulmuş" adlı əsəri ilə adamların diqqətini ətraf mühit problemlərinə yönəldib və sənət nümunələrinin yaradılmasında tullantılardan istifadə oluna biləcəyini məharətlə göstərib. Tərəf-müqabilləri ilə o, eyni ölçüdə, uyğun rəng və formada şüşə su qabları toplayıblar və əridərək "Gəncə-buta" xalçasının kompozisiyasını yaradıblar. Xalçanın müxtəlif kiçik detallarını hazırlamaq üçün isə şüşəni kəsib, 700–800 dərəcə temperaturda, füzyon metodu ilə birləşdiriblər. Baxanda adamın inanmağı gəlmir ki, şüşə də toxuculuq üçün xammal ola bilərmiş.

Aida Mahmudovanın şəmkirli peşəkar toxucularla işbirliyinin nəticəsi olan xalçalar isə rəssamın dünyagörüşünün, onun ənənə və müasirliyin vəhdətindən ərsəyə gələn çoxqatlı fəlsəfi düşüncələrinin təcəssümü kimi heyrətamiz idi. "Parıltı", "Landşaft" kimi möcüzə əsərlərə baxan hər kəs gördü ki, bu rəssam-toxucu əməkdaşlığı, eyni zamanda, qadınların incə ruhunun, tükənməz yaradıcı enerjisinin sübutudur.

Rəssam Təranə Əliyeva və Bilgəhdəki 11 nömrəli inteqrasiya təhsilli internat məktəbi yetirmələrinin yun, metal, bioplastik, cuna, lif, taxta qırıntıları, tullantı və digər materiallardan hazırlanmış işləri də diqqət çəkdi. Xüsusilə də unudulmaz Xalq rəssamı Lətif Kərimovun "Ağaclı" xalça eskizi əsasında xalça toxunan zaman sapların kəsilməsindən yaranan tullantıların yeni bir xalça üçün xammal kimi istifadəsi alqışa layiq idi.

Muzeyin Ənənəvi Texnologiyalar Bölməsində Əməkdar rəssam Taryer Bəşirovun COP29-a həsr etdiyi "Yaşıl dünya" xalçasının qədim ənənələrə uyğun hanadan kəsilməsi mərasimi yaddaqalan oldu. Eyni zamanda, Birləşmiş Ərəb Əmirlikləri Qadınlar Birliyinin üzvləri Məryəm Səid Salem Əl Məzrui və Amna Səid Saif Əl Dahuri ənənəvi Əl-Talli toxuculuq sənəti üzrə maraqlı ustad dərsi keçdilər. Ziyarətçilər bu sənətin ərəblərin milli-mədəni irsinin önəmli hissəsi olduğunu bilib, canlı rəngləri, gözəl dizaynları ilə seçildiyini gördülər. Məlumat verildi ki, Əl-Tallidən gəlinlik və rəsmi paltarlardan gündəlik geyimlərə qədər bütün növ qadın libaslarının bəzədilməsində istifadə olunur. Tallilər müxtəlif sapları büküb hörməklə, mürəkkəb dekorativ naxışlarla bəzədilir və zolaq-zolaq toxunur.

Mərasimdə 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi üzvlərinin təqdim etdikləri rəqs də alqışlarla qarşılandı. Sonra guşələri gəzən qonaqlar bir daha Azərbaycan incəsənətinin köklərinin necə qədimlərə gedib çıxdığına, xalçaçılığın əhalinin məişət və estetikası ilə bağlı olduğu qədər də onun təbiəti, mədəni müxtəlifliyi və dünyagörüşünü xarakterizə etdiyinə şahid oldular.

**Sonda jurnalistlərə müsahibə verən muzeyin direktoru – sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Əminə Məlikova layihə haqqında ətraflı danışaraq dedi:**

– Əsas amal COP29-a məxsusi bir töhfə vermək və cəmiyyəti iqlim dəyişikliyi sınaqlarına hazır olmağa, ekoloji duruma biganə qalmamağa səsləmək, gəncləri bədii vasitələrlə maarifləndirməkdir. Unutmayaq ki, dünya hamımızın evidir və onun təmiz saxlanmasına hər kəs cavabdehdir.

**Sərgidə "Kəsişən xətlər" əsəri ilə vətəni Meksikanın və Azərbaycanın zəngin mədəni irsi olan xalça sənəti əsasında ənənələri, mədəniyyətləri birləşdirmək ideyasını reallaşdıran rəssam Pedro Sezar Peralta təəssüratlarını bizimlə bölüşdü:**

– Belə sərgilərin önəmini sübut etməyə ehtiyac yoxdur. Dünyanın diqqətinin COP29-un keçirildiyi gözəl Bakı şəhərinə dikildiyi bir vaxtda buradakı sərgidə iştirak etmək fərəhlidir. Mən atamdan miras qalan bu sənəti rənglər və naxışlar vasitəsilə davam etdirir, yeni nadir əsərlər yaratmağa çalışıram. Həyat devizim bəşəriyyəti sənətlə bir araya gətirmək, fədakarlıq, nizam-intizam, bilik, bacarıq və orijinallıq nümayiş etdirməkdir.

**Rəssam dostumuz Fazil Abasquluzadə də sərgini yüksək dəyərləndirdi.**

– Xalça müqəddəsdir, hər naxışında bir tarix yaşayır, bir ismarıc yatır, – deyə o bildirdi. – Görürəm ki, siz də mənim təklifimlə buraya gəlməyinizə peşman deyilsiniz. Çox zəngin təəssürat yaradan bu sərginin əsas özəlliyi budur ki, COP29 günlərində xalça-məktublar vasitəsilə cəmiyyətə bəyan edir ki, gəlin, gözəl dünyamızın qədrini bilək, onun nizamını pozmayaq. Məncə, sərginin açılışı uğurlu olduğu kimi, gedişatı da istənilən səviyyədə olacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***


# Ləğv prosesində olan "Yunayted Kredit Bank" ASC-nin kreditorlarının diqqətinə!

Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan "Yunayted Kredit Bank" ASC-nin kreditorlarının diqqətinə çatdırır ki, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 82.1.5-ci maddəsinə əsasən bankın müflis elan olunmasına dair məhkəmə qərarının qəbul edildiyi tarixdən əvvəlki altı aydan çox olmayan dövr üçün ödənilməli müavinətlərin, əmək haqlarının verilməsi haqqında bankın işçilərinin və keçmiş işçilərinin, habelə Qanunun 82.1.8-ci maddəsinə əsasən təminatsız kreditorların tələbləri üzrə ödənişlərə 18 noyabr 2024-cü il tarixdən etibarən başlanacaqdır.

Tələblərin ödənişi nağdsız qaydada həyata keçiriləcəkdir.

Kreditorlardan xahiş olunur ki, tələblərin ödənişi ilə bağlı Əmanətlərin Sığortalanması Fonduna müvafiq sənədləri (bank rekvizitləri əlavə edilməklə) təqdim etməklə müraciət etsinlər.




Ünvan: Bakı şəhəri, Babək prospekti 16, ƏSF-nin inzibati binası.

Qaynar xətt əlaqə nömrəsi: (+994) 941



# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan diktlərin satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il noyabrın 22-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1263.

Ünvan– Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

COP29 Baku Azerbaijan · COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024 · COP29 Baku Azerbaijan

# Türkiyə Azərbaycanın COP29 uğurunu ortaq sevinclə qarşılayır

**İqlim dəyişmələri uzun müddətdir ki, bütün dünyanı narahat edir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin məhz Bakıda keçirilməsi tarixi əhəmiyyəti olan hadisədir. Hər zaman Azərbaycanın yanında olan qardaş Türkiyə bu tədbirdə də ölkəmizə dəstək verməkdədir. Araşdırmaçı–yazar doktor Sərdar Kozan COP29 Bakı sammiti ilə bağlı XQ-yə açıqlamasında bu barədə ətraflı danışdı.**



***– Sərdar bəy, bu gün dünyanı ekoloji fəlakət gözləyir. Onun ağır fəsadlarının qarşısını almaq mümkündürmü?***

– Əlbəttə, hər şey insanın öz əlindədir, təbiətə vurduğu zərəri də geri yerinə qoymaq onun borcudur. COP tədbirləri də qlobal səviyyədə bəşəriyyəti gözləyən fəlakətlərdən xilas etmək naminə BMT miqyasında həyata keçirilən təşəbbüsdür. Bu tədbirlər çərçivəsində çıxış yolları aranmaqdadır. Öncə dünya ölkələri iqlim dəyişmələrinin vurduğu və vura biləcəyi zərərləri müzakirə etməlidirlər. Hər bir dünya dövləti mühüm qərarlar qəbul etməlidir. Məncə, bu işdə böyük dövlətlərin üzərinə daha çox iş düşür. Çünki "yaşıl dünya" hədəfinə nail olmaq üçün maliyyə lazımdır. Bakı tədbirində ana mövzunun bu olacağı nəzərdə tutulmuşdur.

***– Bu beynəlxalq tədbirin Bakıda keçirilməsini necə dəyərləndirirsiniz?***

– Azərbaycan son illər ciddi bir dünya dövləti olduğunu ortaya qoydu. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir. Prezident İlham Əliyev bir çıxışında dediyi kimi, daxili və xarici sahələrdə əldə edilən uğurlar nəticəsində ölkə böyük etibar qazanmışdır və ona etimad yüksəkdir.

Burada mən Azərbaycanın Qarabağ zəfərini xüsusi qeyd etmək istərdim. Erməni tərəfdarları olan bəzi ölkələr bu qələbəni həzm etməsələr də, Azərbaycan postsovet məkanında sözü və əməli eyni olan dövlət kimi dünya miqyasında ciddiyə alınır. COP29 tədbirləri də bunun əyani göstəricidir.



***–Türkiyə COP29-da ən yüksək səviyyədə iştirak edir. Gözləntiləriniz nələrdir?***

–Prezident Rəcəb Tayyib Ərdoğanın bu sammitdə iştirakı öncə ev sahibi Azərbaycana dəstək mənasındadır. Bəzi dövlətlərə buradan mesaj verildi ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır. BMT-nin COP29 Konfransının Dövlət və Hökumət Başçılarının Yüksək Səviyyəli Sessiyasındakı çıxışına Azərbaycan Prezidenti İlham Əliyevi sammitə ev-sahibliyi etdiyinə görə təbrik etməklə başlayan Prezident Ərdoğan Türkiyənin iqlim böhranının mənfi təsirlərinin ən çox hiss olunduğu ölkələr arasında olduğuna diqqət çəkərək demişdir: "2024–2030-cu illəri əhatə edən iqlim dəyişikliyinin azaldılması və uyğunlaşma strategiyası fəaliyyət planlarımızı həyata keçirdik. Biz ümumi quraşdırılmış enerjidə bərpaolunan enerjinin payını 59 faizə çatdırdıq. Bu göstərici ilə biz Avropada 5-ci, dünyada isə 11-ci yerdəyik. 2053-cü il üçün xalis sıfır emissiya hədəflərimiz üçün prioritetlərimiz bunlardır: bərpaolunan enerji, enerji səmərəliliyi və nüvə enerjisi.

Bunların həyata keçirilməsi Türkiyənin əsas sektorlarının bu istiqamətdə transformasiya edilməsi deməkdir. Türkiyə 2053-cü il üçün xalis sıfır emissiyaya və "yaşıl" inkişafa nail olmaq proqmamına start verib. Yaxın vaxtlarda İqlim Qanunu TBMM-ə təqdim ediləcək. Türkiyədə Ətraf Mühit, Şəhərçilik və İqlim Dəyişikliyi Nazirliyi bir sıra tədbirləri uğurla həyata keçirir. İqlim dəyişikliyi ilə bağlı ayrıca qurumun yaradılması və fəaliyyət göstərməsi də bu işin ciddiliyinə necə böyük əhəmiyyət verildiyini göstərir.

***–Sərdar xoca, Ermənistan dəvət edilsə də, bu sammitdə iştirak etmədi. Bu hansı anlama gəlir?***

–Ermənistan bu tədbirə siyasi olaraq baxdı, izləyirdim ki, onlar buraya qatılacaqları durumda belə hansısa qərəzli niyyəti həyata keçirmək istədilər. Öncə iştirak etmək, yoxsa etməmək kimi seçim qarşısında qaldılar. Qarabağda cinayət törətmiş və mühakimə olunan separatçıların azad edilməsi kimi sərsəm şərtlər səsləndirirdilər. Azərbaycanla sülh danışıqlarında müəyyən dividentlər əldə etmək istədilər. Təbii ki, COP29 həmin məsələlərin müzakirə ediləcəyi məkan deyildi. Əslində, Ermənistanın bu tədbirdə iştirak etməməsi onların özlərinin zərərinə işlədi. Dünya gördü ki, sülh danışıqlarını manipulyasiya edən ölkə kimdir. Sülh sazişini COP-la əlaqələndirmək yanlış bir siyasət idi.

***Söhbəti yazdı:***
***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Sosial yeniliklər

## Özbək dostlar DOST Mərkəzində

COP29-da iştirak etmək üçün ölkəmizdə səfərdə olan Özbəkistanın "Beynəlxalq İnklüziv HUB" təhsil mərkəzinin direktoru Mədinə Bədəlovanın başçılıq etdiyi nümayəndə heyəti DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanış olub.



Qonaqlara məlumat verilib ki, mərkəz Cənubi Qafqazda ilk və ən böyük inklüziv müəssisədir. Mərkəzin əsas məqsədi əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar və digər həssas qruplara aid şəxslərin istedad və bacarıqlarının inkişafına, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyasına dəstək olmaqdır.

Yaradıcılıq studiyalarında təlim prosesini izləyən qonaqlar mərkəzdə və "DOST evi" filialında hazırlanan əl işləri, o cümlədən ətraf mühitin mühafizəsi, eləcə də "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda təlimçi və benefisiarların ərsəyə gətirdikləri sənət nümunələrindən ibarət sərgiyə baxıblar.

M.Bədəlova "Beynəlxalq İnklüziv HUB" tərəfindən davamlı həyata keçirilən ekoloji təşəbbüslər barədə məlumat verib. HUB-ın eko-fəallarının COP29 tədbirlərində fəal iştirak etdiyini, iqlim dəyişmələri və onun xüsusi qayğıya ehtiyacı olan insanlara təsiri ilə bağlı vacib məqamlara diqqət çəkdiklərini vurğulayıb. Bu layihənin Özbəkistan Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi, Məktəbəqədər və Ümumi Təhsil, Ali Təhsil, Elm və İnnovasiyalar, Məşğulluq və Yoxsulluğun Azaldılması nazirlikləri və "Zamin" Beynəlxalq İctimai Fondu tərəfindən reallaşdırıldığı bildirilib.



Həmin unikal platformanın gənclərə keyfiyyətli təhsil almaq, istedadlarını üzə çıxarmaq, reabilitasiya və sosial adaptasiya sahəsində bərabər imkanlar yaratmaq məqsədləri daşıdığı bildirilib. Həssas əhali qruplarına aid şəxslərin cəmiyyətə adaptasiyası sahəsində gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

## 1 yaşlı "DOST evi"

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin İsmayıllı rayonunda yerləşən "DOST Evi" filialının 1 yaşı tamam olub. Ötən dövrdə burada 5 həssas kateqoriyadan olan 30 benefisiar müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlimlərə cəlb edilib. 10 təlim istiqaməti üzrə 6 emalatxananın yaradıldığı müəssisədə benefisarlar duluşçuluq, bədii oyma, dərzilik, xalçaçılıq, un məmulatları emalatxanalarında həmin istiqamətlərdə bacarıqlarını, peşə vərdişlərini təkmilləşdirirlər.

"DOST evi"ndə əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində layihələr həyata keçirilib, dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində 20-dən çox tədbir təşkil olunub. Bu tədbirlərə müxtəlif master-klaslar, infoturlar, konsert proqramları və s. daxildir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Günün sualı

# Əhali artımı niyə aşağı düşüb?

## *Problem ildən-ilə mürəkkəbləşir*

**Əhalinin təbii artımına təsir göstərən amillərdən biri də kişi və qadınlar arasındakı münasibətlərə əsaslanan nikah və boşanmalardır. Nikahların sayının çox olması və onun uzun müddət davam etməsi doğuma müsbət təsir göstərir. Ailəllərin dağılması isə əhalinin azalmasına gətirib çıxarır. Demoqrafiya məsələləri üzrə mütəxəssis, coğrafiya elmləri doktoru, professor Zakir Eminov ölkəmizdəki bu duruma aydınlıq gətirirdi:**



– Nikaha daxil olmanın minimum yaşı qanunla müəyyən edilir. Dünyada şərti olaraq minumum hədd 15 yaş götürülür. Lakin ayrı-ayrı ölkələrdə qanunlar fərqlənir. Dünyanın sosial-iqtisadi cəhətdən inkişaf etmiş əksər ölkələrində nikaha daxil olmağa 18 yaşından icazə verilir. Amma islam dininin yayıldığı ölkələrin çoxunda erkən yaşda olan nikahlar geniş yayılıb. Azərbaycanda da kişi və qadınlar üçün ailə qurmağın aşağı həddi 18 yaşdır. Lakin müstəsna hallarda evlənənlərin ailə vəziyyəti və tərəflərin razılığı ilə yaş aşağı olduqda da nikah bağlamağa icazə verilir. Hazırda Azərbaycanda bağlanan nikahların sayı azalır, boşanmalar isə artır.

***– Şübhəsiz, bu ciddi demoqrafik problemdir. Səbəb nədir?***

– Ölkə qanunlarına görə, nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır. Ailə-nikah münasibətlərinin inkişafı isə çoxsaylı məlumatlarla bağlıdır. Onlara nikah və boşanmaların sayı və nisbi göstəriciləri, ailələrinin sayının artımı və əhalinin ümumi sayında baş verən dəyişikliklər aiddir. Nikahların sayı daim dəyişir. Müstəqillik dövründə ən çox nikah 2013-cü ildə qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, həmin il Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində 86 min 852 nikah bağlanıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 9,3 olub.

Sonrakı illərdə azalma müşayiət olunub. Məsələn, 2015-ci il ərzində ölkədə 68 min 773, 2021-ci ildə 56 min 314 nikah bağlanıb. 2022-ci illə müqayisədə 2023-cü ildə nikahların sayında 7 min 739 azalma olub. Belə ki, 2023-cü ildə 54 min 200 nikah qeydə alınıb. Rəqəmlər ciddi problemlərdən xəbər verir. Vəziyyət bu il də dəyişməyib. 2024-cü ilin yanvar–avqust ayları ərzində 30 min 788 nikah qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5-dən 4,5-ə düşüb. Rəqəmlərə fikir verin: 2013-cü ildə 87 minə yaxın nikah bağlandığı halda, 2023-cü ildə bu rəqəm 54 minə düşüb.

Buna müvafiq olaraq doğulan uşaqların sayı da azalır. Məsələn, 2015-ci ildə 166 min 210, 2022-ci ildə 122 min 846, 2023-cü ildə 112 min 620 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə doğulanların sayı 2022-ci illə müqayisədə azalaraq 12,2-dən 11,1-ə düşüb. Doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,1 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,9 faiz təşkil edib. Oğlan-qız nisbətində balansın pozulması isə, əsasən, selektiv abortla bağlıdır. Bu, demoqrafik problem yaradır. Kişi və qadınların sayında olan uyğunsuzluqlar, onlardan birinin az olması nikahların da sayının azalmasına səbəb olur.

Demoqrafik problemlərin digər səbəbi isə boşanmaların sayının artmasıdır. Ölkədəki iqtisadi-sosial çətinliklər də ailələrdə doğulan uşaqların sayının azalmasına gətirib çıxarır. Gənclər arasında işsizliyin sayının artması, təhsillə bağlı gec evlənmələr, bəzi ailələrin çoxuşaqlı ailə modelindən bir və ya iki uşaqlı ailə modelinə keçməsi, gənclərin daha çox xarici ölkələrə meyl etməsi, evlilik məsuliyyətindən çəkinməkləri və s. nikahın balanmasına və demoqrafik artımın zəif olmasına təsir edior.

***– Boşanmalar nədən yaranır. Qarşısını necə almaq var?***

– Boşanma əhalinin təbii artımına ciddi təsir göstərir. Ona görə ki, bu, adətən, ailə qurmanın ilkin dövrlərində baş verir. Artıq 2011-ci ildən başlayaraq, ölkədə boşanmaların illik sayı 10 mini keçib. Hər 1000 nəfərə görə boşanma əmsalı 1,2, o cümlədən şəhərlərdə 1,7-yə yüksəlib. Bu proses sonrakı illərdə də davam edib. 2013-cü ildə Dövlət Statistika Komitəsinin məlumatına əsasən, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri 11 min 730 (boşanma əmsalı 1,3), 2015-ci ildə 12 min 764 (1,3), 2021-ci ilfdə 17 min 191 boşanma (1,7) qeydə alınıb. 2023-cü ildə isə 21 min 688 boşanma qeydə alıb. 2022 ci illə müqayisədə 2023 cü ildə boşanmaların sayında 5 min 705 artm var. Bu ilin yanvar–avqust ayları ərzində isə 14 min 248 belə hal qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə boşanmaların sayı 2,2-dən 2,1-ə düşüb.

Ailələrin dağılmasının 73 faizə qədəri şəhər əhalisinin payına düşür. Şəhərlərdə boşanmaların çoxalmasına səbəb qadınların təhsil və məşğulluq səviyyəsinin yüksək olması, müstəqilliyinin artması, iş yerləri ilə təminatın yüksəkliyi, gəlirlərin nisbətən yüksək olması, özünütəminatın asanlığı, ailələrdə uşaqların sayının az olması və s. amillərdir. Bu onu göstərir ki, şəhərlərdə qadınların təsərrüfat sahələrində məşğulluğu getdikcə artır. Məşğulluq səviyyəsinin artması ailənin dağılması ilə yanaşı, digər mənfi proseslərin güclənməsinə də səbəb olur. Onların nikaha daxil olması yaşı artır, heç vaxt nikahda olmayanların sayı çoxalır. Göründüyü kimi, insanlar mədəni psixoloji dəyişiklər nəticəsində ailə institutuna əvvəlki kimi yanaşmırlar. Bu da ailələrdə uşaqların sayının kəskin azalması ilə özünü göstərir. Kəndlərdə isə vəziyyət bir qədər fərqlidir. Hələ də milli adət-ənənələr, dini amillər və valideynlərin ailələrə təsiri var. Bunlar kəndlərdə şəhərlərə nisbətən ailə təməlinin möhkəm olduğunu göstərir.

Bir məsələyə də toxunmaq istərdik. Boşanan qadınların əksəriyyətinin maddi vəziyyəti ölkənin demoqrafik inkişafında problemə çevrilib. Bu amil əhalinin təbii artımına da mənfi təsir göstərir. Ona görə də ciddi tədbirlərin görülməsi, təbliğat-təşviqat işlərinin aparılması, gənc ailələrə kömək göstərilməsi, onlara maddi yardımın edilməsi vacibdir.

***– Nikah sahəsində məhdudiyyətlər qanundankənar, qeydiyyata alınmayan nikahların sayını artırır. Bu isə qeyri-qanuni, nikahdan kənar doğulan uşaqların sayının artmasına gətirib çıxarır. Azərbaycanda bununla bağlı vəziyyət necədir?***

– Son illərdə kişi və qadının ümumi razılığı əsasında birgə yaşaması geniş yayılıb və bu proses vətəndaş nikahı adlanır. Lakin gizli nikahların dəqiq sayını müəyyən etmək olduqca çətindir. Çünki belə nikahlar dövlət qurumları tərəfindən qeydə alınmır. Amma onun kifayət qədər yüksək olduğu bildirilir. Bu göstəricinin ölkəmizdə yüksək səviyyəsi qızların erkən yaşda, yəni qanunda göstərilən minimum həddən aşağı yaşlarda ailə qurması və onların nikahının qeydə alınmaması ilə bağlıdır.

Ailələrin təhsil səviyyəsi bu amilə təsir edir. Belə ki, ailədə təhsil səviyyəsi aşağıdırsa, uşaqların gələcəklə bağlı sağlam planları və hədəfləri yoxdursa, bu halda onlar erkən nikahlara sövq edilirlər. Belə ailələrdə erkən nikahlar normal sayılır, evlilik daha prioritet hesab olunur. Təəssüf ki, bellə hallar normal qarşılanır. Təhsil, elm və inkişaf kimi vacib hədəfləri olmayan uşaqlar isə, heç şübhəsiz, erkən nikahlara meylli olurlar.

Bəzən də erkən nikahlara səbəb ailədaxili şiddətdir. Problemləri olan gənclər bu yolla azad olaraq, gələcəklərini özlərinin quracağını düşünürlər. İkinci dəfə ailə həyatı quranlar isə vətəndaş nikahına üstünlük verirlər. Bu amillər doğulan uşaqların nikahdan kənar qeydə alınmasına şərait yaradır və nikahdan kənar hesab edilir. Ölkədə hələ də qeydə alınmamış nikahdan doğulan uşaqların sayı azalsa da, yüksək olaraq qalır. Rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı 2015-ci ildə 24 min 38, 2020-ci ildə 17 min 714, 2021-ci ildə 17 min 566, 2022-ci ildə 18 min 814 nəfər olub. 2023-cü ildə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı 15 622 nəfər olub. Son 10 ildə vətəndaş nikahından doğulan uşaqların sayı şəhərlərdə 3 dəfə, kənd və rayonlarda isə 6 dəfəyə qədər artıb.

***– Vətəndaş nikahında olan qadınlar boşanarkən nə kimi problemlərlə qarşılaşırlar?***

– Bu niksah ər-arvad arasında rəsmi hüquq və vəzifələri müəyyən etmir. Rəsmi nikahları olmayan qadınlar ayrılan zaman əmlak hüquqlarına malik olmurlar. Başqa bir məsələ isə uşağın sənədləşməsidir. Vətəndaş nikahından doğulan uşaqları bəzən ata qəbul eləmir, aliment ödəməkdən imtina edir və yaxud hər hansı məsuliyyətdən qaçmağa çalışır. Bu, uşağa sənəd almağa da mane olur. Həmin uşaqlar vərəsəlik hüququndan da məhrum olurlar.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 253 (30657) 17 noyabr 2024-cü il, bazar

## Atma nar qabığını – alır xərçəngin qabağını

**Qurani-Kərimdə də adı keçən möcüzəli meyvələrdən biri olan nar müalicəvi xüsusiyyətləri ilə diqqət çəkir. İnsan sağlamlığı üçün saysız-hesabsız faydaları olan narın qabığında da qiymətli birləşmələr var və buna görə də istifadə edilməsi məsləhət görülür.**

Adətən, nar yeyildikdən, yaxud şirəsi çəkildikdən sonra qabığı atılır. Çində aparılan son araşdırmalar göstərib ki, narın qabığında onun şirəsindən daha qiymətli birləşmələr var. Onda olan ellagik turşunun, bütün xərçəng növləri, xüsusən də döş xərçəngi üçün həm profilaktik, həm də müalicəvi faydaları var.

Tədqiqatlar göstərir ki, nar qabığı pis xolesterolu azaldır və beta hüceyrələrini artırır, diabet xəstələri və ürək-damar xəstələri üçün şirəsindən daha əhəmiyyətli faydalar təmin edir.

Nar qabığında olan ellagik turşu antioksidant, antimutagen və xərçəng əleyhinə təsirli vasitədir.

Alimlər müəyyən ediblər ki, süd vəzi, yemək borusu, dəri, bağırsaq, prostat və mədəaltı vəzi xərçənglərində istifadəsi müsbət nəticə verir.



*Z.HÜSEYNLİ*
*XQ*

## Daş yaddaşımızın səhifələri

# Xudavəng – Qafqaz Albaniyasının məbədi

**Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra məğlub ölkədə və ona havadarlıq edən siyasi dairələrdə yeni qızışdırıcı şüarlar səslənir, saxta böhtan kampaniyaları təşkil edilir. Qarabağ və onun ətrafında yerləşən dini və mədəni irsin ermənilərə məxsus olduğu iddia edilir. Bu iddiaların isə heç bir tarixi və memarlıq əsası yoxdur. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnsitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ülviyyə Hacıyeva deyir ki, Xudəvəng monastır kompleksinin ərazisi Qafqaz Albaniyasının “Rostok” adlı bölgəsinə aid olub. Bu bölgə müasir Kəlbəcər rayonunu əhatə edib: “Xaçın knyazlığı sülaləsi və knyazlıq əhalisi Azərbaycan xalqının etnogenezində iştirak etmiş albanlara mənsub idilər. Abidə də onlardan yadigar qalıb”.**

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi Ramin Alizadə də monastır kompleksinin Qafqaz Albaniyasının yadigarı olduğunu bildirir. Onun sözlərinə görə, abidənin alban–qıpcaq türkləri ilə sıx bağlılığı var. O, V–VI əsrlərə aid qədim tapınağın qalıqları üzərində xristian memarlığına uyğun şəkildə inşa olunub.



Xudavəng monastır kompleksinə 10-dan çox dini xarakterli tikili daxildir. Burada ən qədim tikili olan Xudavəng bazilikası VI əsrdə inşa edilib. Baş kilsəni 1214-cü ildə Alban–Xaçın knyazı Vaxtanqın həyat yoldaşı Arzu xatun tikdirib. Arzu xatun kilsəsinin kitabəsində belə qeyd olunur: “Hər şeyə qadir Tanrı Ata və onun yeganə Oğlu İsa Məsihin rızası, ən Müqəddəs ruhun bəxşişi ilə mən, İsa Məsihin itaətkar qulluqçusu, knyazlar knyazı böyük Kurdun qızı, Aterk və bütün Yuxarı Xaçının hakimi çar Vaxtanqın həyat yoldaşı, böyük ümid ilə həyat yoldaşım və övladlarım – ilk övladım Həsən və körpə ikən bizi tərk edərək Tanrıya qovuşmuş Qriqorun məzarları üzərində bu kafedral kilsəni inşa etdirdim...”




Bu kilsədən başqa Xudavəng monastır kompleksinə daxil olan dini abidələr içərisində Müqəddəs Məryəm Ana kilsəsini, Müqəddəs Qriqor və Həsən Cəlal kilsələrini də qeyd etmək olar. Kompleksin bərpa olunması və əlavə binaların inşa edilməsi isə Alban–Xaçın knyazı Həsən Cəlalın adı ilə bağlıdır. Abidə Azərbaycan xalqının əcdadlarının yaratdığı möhtəşəm maddi-mədəniyyət nümunəsidir. Hər kəs bilməlidir ki, bu monastır Qafqaz Albaniyasının tarixi mirasıdır”.

Arzu xatun Kəlbəcərin digər ərazilərində də kilsə inşa edib. Məsələn, Qamışlı kəndi ərazisində aşkar edilən kilsə fasadındakı daş üzərində belə bir maraqlı yazı öz əksini tapıb: “Dualarda xatırla ki, mən, Vaxtanqın həyat yoldaşı Arzu xatun və mənim bacım Mama xatun bu kilsəni inşa etdi”. Adlardan göründüyü kimi, hər 2 qadın türk mənşəlidir.

Alizadə daha sonra deyir: “XII-XIII əsrlərdə Alban–Xaçın knyazlığında xristianlığın möhkəmlənməsində Arzu xatundan başqa, Dopu xatun, Qönçə xatun, Hurişah xatun kimi qıpçaq əsilli qadınların da böyük rolu olub. Qeyd edim ki, xatun türkdilli xalqlarda hökmdarın qadın həyat yoldaşına və ya şahzadə qızlara verilmiş addır. Sonralar digər Şərq xalqları arasında da yayılmışdır. Yuxarıda adları qeyd olunan xatunlar dövlətin idarə olunmasında, siyasi və iqtisadi həyatında mühüm rol oynayıblar. Erməni qadınlarında isə belə titul olmayıb.

Bundan başqa, Qarabağın qıpçaq tarixinə nəzər salarkən alban məlikləri ilə bağlı da maraqlı məqamlar ortaya çıxır: “1723-cü ilin martında Qarabağ məliklərinin I Pyotra etdikləri müraciət məktubunda alban türkü ifadəsi öz əksini tapıb. Maraqlıdır ki, mənbənin ermənicəsində bu ifadə alban türkü, rus dilinə tərcüməsində müsəlman alban kimi təqdim olunur. Göründüyü kimi, onların ermənilərin Xudavəngin monastır kompleksi ilə heç bir bağlılığı yoxdur”.

Monastırda erməni vandalizmi: onlar öz sərsəm iddiaları üçün tədricən “tarixi əsaslar” hazırlayırlar

Monastırda yağlı boya ilə çəkilmiş şəkil və yazılar olub. 1952-ci ildə yerli icra nümayəndəsi Məhərrəm İsmayılov Kəlbəcər rayon rəhbərliyinə müraciət edərək, qonaq qismində kəndə gələn ermənilərin fürsət tapdıqca balta və digər kənd təsərrüfatı alətləri ilə abidə üzərindəki qiymətli alban epiqrafik yazılarını yonub məhv etdiyini bildirmişdi. Lakin rayon rəhbərliyi susmağa üstünlük vermişdi. Nəticədə Ağdərədən və Basarkeçərdən gələn ermənilər xaç və yazıları balta ilə çaparaq yox etmiş və beləliklə, tarixi saxtalaşdırmağa çalışmışlar. Sonrakı dövrdə də abidə dəfələrlə ermənilərin təcavüzünə məruz qalmışdır. Məsələn, Ağdərə RPK katibinin göstərişi ilə abidə-kompleks taxtadan çəpərlənmişdi. Lakin Kəlbəcər camaatı həmin çəpəri dağıtmışlar.

1993-cü ilin aprelində Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasından sonra Xudavəng monastırının tarixində ən faciəli dövr başlandı. Erməni apostol kilsəsinin dəstəyi və Ermənistan dövlətinin vəsaiti hesabına monastırda “bərpa” adı altında qanunsuz işlər görüldü. Arzu xatun, Böyük Həsən kilsələri və kompleksə daxil olan digər tikililər üzərində əlavələr edildi. Arzu xatun məbədin divarlarında yağlı boya ilə çəkilmiş şəkilləri və yazı nümunələri, Alban–Qıpçaq xaç daşları balta ilə məhv edildi. Burada saxta erməni xaçdaşları yerləşdirilib. Hələ XX əsrin 70-ci illərində L.A.Durnova Arzu xatun kilsəsində müqəddəs Nikolasın freskasını araşdıraraq erməni–qriqoryan kilsələrində müqəddəs Nikolas inancının qəbul edilmədiyini qeyd edib. Ermənilər Arzu xatun kilsəsində müqəddəs Nikolasın freskası üzərində sonradan ermənicə qısa mətnlər yazmaqla bu abidənin gerçək tarixini saxtalaşdırmağa cəhd ediblər

Binaların üzərindəki kitabələr ya tamamilə silinib, ya da müdaxilə edilərək istifadəsiz hala gətirilib. Ermənilərə məxsus yazılar əlavə edilib. Təmir zamanı Alban memarlığının bütün elementləri itirilib, onlar öz orijinal formasından məhrum ediliblər. Təmir zamanı kilsələrin günbəzlərinin üst hissəsi bir neçə metr hündürləşdirilib, qırmızı kirəmitlə örtülüb. Zəng qülləsində yanaşı qoyulmuş bir-birinin üstündə iki dairəvi xonça və həyat ağacı şəklində xaç kompozisiyalı xaçdaşlar, zənglər və kitabələr də işğal dövründə sökülərək talan edilib. Monastır kompleksinin giriş qapısı və giriş qapısının sağ tərəfindəki tikilinin bir hissəsi öz görkəmlərinə uyğun olmayan bir formada, “erməni memarlığı üslubunda” təmir edilib. Əlavə tikililər sökülərək dağıdılıb. Ümumiyyətlə, onlar sonradan bərpa olunmayıb. Monastırın mənsubiyyətini saxtalaşdırmağa xidmət edən qeyri-qanuni “arxeoloji tədqiqatlar” və “bərpa–konservasiya” işləri aparıblar.

Torpaqlarımız işğaldan azad ediləndən sonra isə monastırda qalan erməni keşiş və rahiblər abidələrdəki qədim freskaları xarici mütəxəssislərin iştirakı ilə xüsusi üsulla kəsib götürüb, qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisindən çıxarıblar. Bundan başqa, zınqırov və xaç daşları da Ermənistana aparılıb. Beləliklə, monastır kompleksi öz görkəmlərinə uyğun olmayan bir formada, “erməni memarlığı üslubunda” təmir edilib”.

Bütün bunlar ermənilərin 1954-cü il Haaqa Konvensiyasının hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında tələblərinə məhəl qoymayaraq törətmiş olduqları vandalizm aktlarının bariz göstəricisidir.

Ermənilər də, onların havadarları da bilməlidirlər ki...

Ermənilər Alban dövrü tarix və mədəniyyət abidələrini mənimsəmək üçün bu cür hiyləgər metodlardan istifadə edərək, Azərbaycanın mədəni irsi üzərinə öz mülkiyyət hüquqlarını tətbiq etməyə çalışırlar: “Maraqlıdır ki, 2021-ci il dekabrın 16-da ermənilər İrəvan şəhərindəki Xalq Sənətləri Muzeyində “Dadivəngdən İrəvana” adlı satış-sərgi keçiriblər. Sərgidə Xudavəng monastır kompleksindən gətirilmiş “Bibliya”, xaçlar, ikonalar, suvenirlər, həmçinin kitablar, fotoalbomlar satışa çıxarıblar. Belə bir sual yaranır: əgər monastır kom pleksi ermənilərə məxsus idisə, niyə onun zəngin irsi satışa çıxarılıb. Təbii ki, bu hadisəni daha bir erməni həyasızlığı kimi dəyərləndirmək olar. Tanınmış gürcü ermənişünas–alimi, professor Bondo Arveladze erməni iddiaları ilə bağlı çox gözəl deyib: “Saxtakar ermənilər bu şərəfsiz işlə onilliklərdir məşğul olurlar. Onlar öz sərsəm iddiaları üçün tədricən “tarixi əsaslar” hazırlayırlar”.

Bir sözlə, onlar artıq 200 ilə yaxındır ki, ən çirkin vasitə və üsullardan istifadə etməklə qədim Azərbaycan dövləti olan Albaniyaya aid xristian irsini yox etmək, yaxud da özününküləşdirmək istiqamətində davamlı olaraq fəaliyyətdədirlər. Erməni kilsəsi, erməni siyasi dairələri, diasporu və nəhayət elm, sənət adamları və ziyalıları hamılıqla bu yoldadırlar. Amma ermənilər də, onların havadarları da bilməlidirlər ki, Qarabağ da, indiki Ermənistan ərazisi də tarixi Azərbaycan torpaqlarıdır. O yerlərdəki bütün tarixi-mədəni dəyərlər, o cümlədən alban xristian mədəni irs nümunələri də Azərbaycan xalqına məxsusdur. Və onun mədəni irsinə aiddir.

*P.ŞÖVKƏTOĞLU*
*XQ*

## İdman xəbərləri

# Xarici futbolçular COP29-da

**Gənclər və İdman Nazirliyində COP29-da iştirak etmək üçün Azərbaycana gələn futbol klublarının nümayəndə heyəti ilə görüş keçirilib.**

Nazirlikdən verilən məlumata görə, görüşdə Avropa Klublar Assosiasiyasının baş icraçı direktoru Çarli Marşall, dayanıqlılıq üzrə rəhbəri Qaya Pretner, “Udineze”nin sahibi Maqda Pozzo, “Liverpul”un təsir üzrə direktoru Rişi Jain, “Fənərbağça”nın dayanıqlılıq üzrə direktoru Gülcə Şənərən, “Atletiko”nun dayanıqlılıq və məsuliyyətli biznes üzrə rəhbəri Rosiya Torres, “Portu”nun dayanıqlılıq üzrə meneceri Teresa Santos, "Tottenhem”in dayanıqlılıq üzrə meneceri Markus Perri, “Real Betis” fondunun baş meneceri Rafel Muela Pastor, “Flamenqo”nun direktoru Katya Alensar və "Qarabağ"ın İdarə Heyətinin üzvü Asif Əsgərov iştirak ediblər.



“Qarabağ”ın təklifini qəbul etdikləri üçün qonaqlara təşəkkürünü bildirən nazir Fərid Qayıbov COP29 çərçivəsində artıq bir çox futbol ulduzunun və mütəxəssisin Azərbaycana gəldiyini xatırladıb. 700-dən çox futbol klubunun birləşdiyi Avropa Klublar Assosiasiyasının baş icraçı direktoru Çarli Marşall təşkilatın missiyası barədə məlumat verib. Qonaqlar təmsil etdikləri klubların fəaliyyətləri ilə bağlı danışıblar.

Görüş zamanı Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) çərçivəsində futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansın yaradılması ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Cüdoçularımız Avropa çempionu olublar

**Azərbaycanın iki cüdoçusu Polşanın Pila şəhərində keçirilən 23 yaşadək gənclər arasında Avropa çempionatında qızıl medal qazanıblar.**




Hüseyn Allahyarov (60 kq) və Fidan Əlizadə (57 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Azərbaycanın digər təmsilçilərindən Aydan Vəliyeva (52 kq) gümüş, Rüfət Şövlətov (73 kq) isə bürünc mükafata layiq görülüb.

Qeyd edək ki, noyabrın 17-dək davam edəcək Avropa çempionatında Azərbaycan 11 çəki dərəcəsində 15 idmançı ilə təmsil olunur.

*L.AZAD*
*XQ*

## Hava

# Yağış, külək və dumanlı bazar günü



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasə, noyabrın 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Səhər yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli leysan xarakterli olacağı ehtimalı var.**

Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Gecə 8-10°, gündüz 10-12° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var.

Gündüzdən əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 10-15° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacaq.

*QQ ASIMOV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

“Xalq qəzeti”nin kollektivi iş yoldaşları İlqar Rüstəmova yaxın qohumu

**AKİF QUBADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2623
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00